**Lənkəran Dövlət Universitetinin**

**İnstitusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının**

**YEKUN HESABATI**

**2023-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. Aslanov Eldar İkram oğlu - Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tədris işləri üzrə prorektor, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

**Üzvlər:**

2. Bilalov Bahadur Ənvər oğlu - Azərbaycan Turizm və Menecment Universiteti, Turizm və qonaqpərvərlik fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent
3. Ağayeva Könül Asəf qızı - Azərbaycan Memarlıq və İnşaat Universiteti, Keyfiyyətə Nəzarət Mərkəzinin müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent
4. Şahməmmədova Şəfəq İsmayıl qızı - Azərbaycan Dillər Universiteti, Tədris şöbəsinin müdiri, psixologiya üzrə fəlsəfə doktoru
5. Əfəndiyeva Fəxrəndə Namiq qızı - Xəzər Universiteti, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı, fizika üzrə fəlsəfə doktoru
6. Qəmbərov Əmirxan Cabbar oğlu - Azərbaycan Texniki Universiteti, Keyfiyyətin Təminatı və Öyrənmə-öyrətmə Mərkəzinin müdiri, Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi ixtisası üzrə doktorant (AzTU).

# Mündəricat

**Giriş** ........ **4**

**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar** ........ **4**

**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri** ........ **5**

**Qiymətləndirmənin icmalı** ........ **5**

1. **STRATEJİ İNKİŞAF** ........ **5**
2. **KEYFİYYƏT TƏMİNATI** ........ **11**
3. **TƏLİM VƏ TƏDRİS** ........ **17**
4. **ELMİ TƏDQİQAT** ........ **48**
5. **İDARƏETMƏ SİSTEMİ** ........ **58**
6. **İNFRASTRUKTUR** ........ **70**
7. **BEYNƏLMİLƏLLƏŞMƏ** ........ **75**

**Komissiyanın istiqamətlər üzrə təhlili** ........ **83**

**Təhsil müəssisəsi  üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi**Error! Bookmark not defined.

**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri** ........ **94**

**Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi** ........ **94**

## Giriş
## Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Lənkəran Dövlət Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 7 iyul 2017-ci il, Qeydiyyat N-012, 5 (beş) il müddətinə |
| Təhsil müəssisəsinin rəhbəri | prof. İbrahimov Natiq Səhrab oğlu |
| Fakültələrin sayı | 5 (beş) |
| Kafedraların sayı | 13 (on üç) |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 40 (qırx) |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | İxtisas 28 (iyirmi səkkiz)<br>İxtisaslaşma 29 (iyirmi doqquz) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 12 (on iki) |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı: 5402**<br>Bakalavriat: 5016 (beş min on altı)<br>Magistratura: 352 (üç yüz əlli iki)<br>Doktorantura: 15 (on beş)<br>Elmlər doktoru proqramı üzrə: 19 (on doqquz) |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 231 (iki yüz otuz bir) |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 62 (altmış iki) |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | office@lsu.edu.az<br>(+994) 025 255 25 88 |
| Müəssisənin hüquqi ünvanı | AZ4200, Lənkəran şəhəri, General Həzi Aslanov xiyabanı 50 |
| Müəssisənin faktiki ünvanı | AZ4200, Lənkəran şəhəri, General Həzi Aslanov xiyabanı 50 |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri

## Qiymətləndirmənin icmalı

Lənkəran Dövlət Universitetinin (LDU) institusional akkreditasiya qiymətləndirilməsi Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) 14.11.2022-ci il tarixli, F-181 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq aparılmışdır. Qiymətləndirmənin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır.

Təhsil müəssisəsinin institusional akkreditasiyasına dair Akkreditasiya Komissiyası Agentlik tərəfindən təsdiqlənmiş ekspert seçimi proseduruna uyğun seçilmişdir. Qiymətləndirmə proseduru 19 aprel 2023-cü il tarixindən 19 may 2023-cü il tarixinədək Akkreditasiya Komissiyası tərəfindən aparılmış və 22-26 may 2023-cü il tarixlərində Akkreditasiya Komissiyası tərəfindən ali təhsil müəssisəsində (ATM) sahə baxışı həyata keçirilmişdir.

Yekun Hesabatda əks olunmuş bütün cədvəl və qrafiklər LDU-nun Özünütəhlil Hesabatına əlavə olaraq ATM tərəfindən təqdim olunmuş məlumatlar əsasında tərtib edilmişdir.

Akkreditasiya Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

## 1. STRATEJİ İNKİŞAF

### *1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

#### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

Lənkəran Dövlət Universitetinin Strateji İnkişaf Planı 2022-2030-cu illəri əhatə etmiş və Universitetin EŞ-nın 27 aprel 2022-ci il tarixli, 04 saylı iclasında müzakirə olunaraq qəbul edilmişdir. Sənədlərin təhlili zamanı müəyyən olunmuşdur ki, ATM-in uzunmüddətli strateji inkişaf sənədi mövcuddur.

ATM-in Strateji İnkişaf Planı Universitetin perspektiv dövr üçün qarşısında duran əsas məqsəd, vəzifə və konkret istiqamətləri formalaşdırmaqla ölkənin təhsil bazarında onun rəqabətqabiliyyətliliyinin təmin edilməsini nəzərdə tutur.

Sənəd, "Giriş", "Yeni çağrışlar və universitetin mövcud vəziyyəti", "Təhsil fəaliyyəti", "Elmi-tədqiqat və innovasiya fəaliyyəti", "Beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi", "Kommunikasiya və reputasiyanın idarə edilməsi", "Sosial tərbiyə işləri", "İdarəetmə sistemi və effektiv menecment", "Planın reallaşma mərhələləri, mexanizmlər və inteqrativ nəticələr" olmaqla 8 bölmədən ibarətdir.

Universitetin Strateji İnkişaf Planında 2030-cu ilə qədər reallaşdırılması nəzərdə tutulan 6 strateji istiqamət və 7 strateji məqsədlər müəyyən olunmuşdur.

Universitetin Strateji İnkişaf Planı ATM-in strateji məqsədlərinə çatması üçün uyğun sənəd hesab edilə bilər.

### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

ATM-in missiyası “Universitetin missiyası, strateji məqsədlər, məqsədə çatma vasitələri, strateji fəaliyyət və dəyərlər sistemi” hissəsində qeyd olunmuş və aşağıdakı kimi müəyyənləşdirilmişdir: “Regionun, dövlətin və vətəndaş cəmiyyətinin maraqları naminə tələbələrin, professor-müəllim heyətinin və əməkdaşların peşəkar-şəxsi keyfiyyətlərinin yaxşılaşdırılması və inkişafı üçün əlverişli açıq məkanı formalaşdırması”.

Təhlillər zamanı müəyyən edilmişdir ki, ATM-in missiyası akademik heyətinin bacarıq və səriştələrinin inkişaf etdirilməsi, elmi tədqiqatın kəmiyyət və keyfiyyət göstəricilərinə görə sistematik inkişafı və regionda kadr hazırlığını yüksək səviyyədə həyata keçirən və əmək bazarına yüksək ixtisaslı məzunlar çıxarmağa xidmət göstərən universitetə çevrilməyi amal edir.

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

ATM-in Strateji İnkişaf Planı tərtib olunarkən əsas kimi müvafiq olaraq Azərbaycan Respublikasının qəbul etdiyi bir sıra strateji inkişaf sənədləri, o cümlədən “Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası”, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər” və “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası” götürülmüşdür.

SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu peşə - ixtisas bazarında baş verən dəyişikliklər; məzunların kompetensiya matrisasında dəyişikliklərin tezləşdirilməsinə yaranan tələbat; əmək bazarı inkişaf etdikcə kreativ və innovativ düşüncəli məzunlara daha çox ehtiyacın duyulması; müxtəlif bilik sahələrində bacarıq və vərdişlərin vəhdəti və s. kimi mühüm ənənələri formalaşdırmağa yönəlmişdir.

Regionun və bütövlükdə ölkə iqtisadiyyatının prioritet sahələrində yüksək və dayanıqlı tələbə malik ali təhsilli kompetent kadr hazırlığının həyata keçirilməsi ATM-in əsas məqsədlərindən biri olaraq qeyd olunmuşdur.

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

SİP-də prioritet istiqamətlər olaraq aşağıdakılar qeyd olunmuşdur:
- təhsil fəaliyyəti;
- elmi-tədqiqat və innovasiya fəaliyyəti;
- beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi;
-kommunikasiya və reputasiyanın idarə edilməsi;
- sosial və tərbiyə işləri;

- idarəetmə sistemi və effektiv menecment.
Strateji məqsədlər isə aşağıdakılardır:
1. Kadr potensialının idarəetmə sisteminin modernləşdirilməsi və inkişafı;
2. Kadr hazırlığı sisteminin transformasiyası;
3.Universitet imicinin formalaşdırılması və struktur baxımdan marketinq qərarları hesabına maliyyə gəlirlərinin artırılması;
4. Sosial və vətəndaş məsuliyyətinin formalaşması üçün optimal şəraitin yaradılması;
5. Universitetin dayanıqlı inkişafının iqtisadi təminatı;
6. Tədrisin keyfiyyətini artırmaq məqsədi ilə hər bir ixtisas üzrə maddi-texniki bazanın möhkəmləndirilməsi;
7. Universitetdaxili keyfiyyətin təmin edilməsi və ona nəzarət işinin təşkil edilməsi məqsədi ilə işlək mexanizmin yaradılması.

SİP-də müəyyən edilən prioritet istiqamətlər ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğundur.

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə ortamüddətli dövr ərzində görüləcək tədbirlər “8.1. 2022 - 2030-cu illərə qədər LDU-nun Strateji İnkişaf Planının reallaşma mərhələləri” hissəsində əksini tapmış və 2022 – 2025-ci illəri əhatə edəcək birinci və 2025-2030-cu illəri əhatə edəcək ikinci mərhələdən ibarətdir. SİP-də qısa müddətli dövrü əhatə edən tədbirlər planı əks olunmamışdır.

2022 – 2025-ci illəri əhatə edəcək birinci mərhələdə aşağıdakı işlərin həyata keçirilməsi planlaşdırılır:

●kadrların hazırlanması və yenidən hazırlanmasını nəzərdə tutan peşəkar standartlar əsasında innovativ təhsil proqramlarının işlənib hazırlanması;

●fiziki imkanları məhdud şəxslər üçün də normal mühit yaratmaqla keyfiyyətli təhsilin əlçatanlığının təmin edilməsi;

● hazırlığın fərdləşdirilməsi məqsədi ilə təhsil proqramlarının formalaşmasında təhsilalanların iştirak imkanlarının genişləndirilməsi;

İkinci mərhələdə (2025 - 2030-cu illər) aşağıdakı işlərin həyata keçirilməsi planlaşdırılır:

●bakalavriat və magistratura səviyyələri üzrə yeni təhsil proqramlarının lisenziyalaşdırılması;

●işəgötürənlər, regional və bələdiyyə orqanları ilə strateji əməkdaşlıq mexanizminin formalaşdırılması;

●bütün elmi - pedoqoji kollektivin Universitetin tədqiqat və innovasiya fəaliyyətinə aktiv formada cəlbedilməsi, 2030-cu ilə qədər professor-müəllim heyətinin elmi-tədqiqat işlərində iştirakının 60% -ə qədər çatdırılması;

●müəssisə və təşkilatların sifarişləri əsasında yerinə yetirilən qrant layihələri və müqavilələrin sayının artırılması;

●konkret elmi istiqamətlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün ixtisaslaşmış dissertasiya şuralarının yaradılması kimi işlərin həyata keçirilməsi nəzərdə tutulur.

Eyni zamanda sənəddə Strateji İnkişaf Planının reallaşma mexanizmi də qeyd olunmuşdur.

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

SİP üzrə fəaliyyətin qiymətləndirməyə yönələn gözlənilən nəticələr kəmiyyət və keyfiyyət göstəriciləri kifayət qədər aydın və ölçülə biləndir.

Belə ki, təhsilin təşkilində akademik mobillik proqramında iştirak edən müəllimlərin sayının 1,5-2 dəfəyə qədər artırılması; təhsil proqramlarının peşə standartlarının tələblərinə 100% adaptasiya olunması; cari, aralıq və yekun attestasiyaların 100% vahid qiymətləndirmə materialları formatında aparılması; təhsil proqramlarının 20%-nin sertifikatlaşdırılmasının əcnəbi maraqlı tərəflər tərəfindən icra edilməsi və s. kimi fəaliyyətlər nəzərdə tutulmuşdur.

Elmi tədqiqat və innovasiya fəaliyyətinin təşkilində Universitetin professor- müəllim heyəti tərəfindən Web of Science və Scopus məlumatlar bazasında indeksləşdirilən resenziyalı beynəlxalq jurnallarda hər 100 müəllimə 10 ədəd hesabı ilə nəşrlərin sayının artırılması; Universitetin bazasında elm və texnikanın prioritet inkişaf istiqamətləri üzrə hər il 10-15 beynəlxalq və ümumrespublika təyinatlı elmi-praktiki konfranslar, seminarlar, dəyirmi masaların təşkil edilməsi; elmi - tədqiqat işlərində iştirak edəcək tələbələrin sayının ümumi tələbə kontingentinin 35 - 40%-ə qədər artırılması; bütün elmi- pedaqoji kollektivin daha geniş formatda Universitetin tədqiqat və innovasiya fəaliyyətinə cəlb edilməsi məqsədi ilə 2030-cu ilə qədər professor - müəllim heyətinin 60%-dən çoxunun elmi - tədqiqat işlərində aktiv iştirakının təmin edilməsi; elmi-tədqiqat layihələrinin 30%-nin müəssisə və təşkilatların sifarişləri əsasında yerinə yetirilməsi və s. fəaliyyətlər nəzərdə tutulub.

Beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşməsi fəaliyyətinin təşkilində akademik mobil proqramlar üzrə təhsil alanların sayının artırılması; xarici ölkə universitetləri ilə ikili diplom üzrə təhsil proqramlarının reallaşdırılması; professor-müəllim heyəti və əməkdaşların beynəlxalq təkmilləşdirmə səviyyəsinin yüksəldilməsi; dünya təhsil məkanına inteqrasiya mexanizminin inkişaf etdirilməsi və s. tədbirlər nəzərdə tutulub.

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

ATM Strateji İnkişaf Planının icrası üçün fəaliyyət planı ehtiva etsə də, Akkreditasiya Komissiyasına planın müvafiq icrası, izlənilməsi və hesabatlılığı təmin edəcək müvafiq büdcə, işçi qrupunun ayrılmasına dair hər hansı bir sənəd təqdim edilməmişdir.

ATM-in "İnstitusional akkreditasiya üzrə özünütəhlilin nəticələri haqqında hesabatında" sözügedən məsələyə dair dəqiq informasiyaya rast gəlinməməkdədir.

### 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında qeyd olunmuşdur ki, Universitetin illik büdcə planlaşdırılması zamanı real islahatların aparılması məqsədilə SİP-də ayrı-ayrı illər üzrə yerinə yetirilməsi proqnozlaşdırılan inzibati - təşkilatı xarakterli tədbirlər istiqamətlər üzrə nəzərə

alınmışdır. “Lənkəran Dövlət Universitetinin 2022 - 2030 -cu illər üzrə strateji inkişafın həyata keçirilməsi üzrə fəaliyyət planı”nın bəzi müddəalarında müvafiq istinadlar vardır.

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

ATM-in Strateji İnkişaf Planında sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması kimi məsələlərə birbaşa və ya dolayı formada istinadlar mövcuddur.

Belə ki, SİP-in reallaşdırılmasından inteqrativ nəticələr kimi qabaqcıl təhsil texnologiyalarının korporativ təhsil sisteminə transferi üçün yüksək sosial məsuliyyət və şərait formalaşdıran təhsil müəssisələri, biznes qurumları və sosial sferaya mənsub təşkilatlar arasında sosial tərəfdaşlıq və qarşılıqlı fayda əsasında əməkdaşlığın yeni təşkilatı formalarının qurulması; intellektual fəaliyyətin rəqabət qabiliyyətli nəticələrinin təhsil xidmətləri bazarına irəlilədilməsi hesabına Universitetin regionun və ölkənin sosial - iqtisadi inkişafına təsir imkanlarının genişləndirilməsi qeyd olunmuşdur.

### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

ATM Strateji İnkişaf Planı 2022-ci ildə qəbul edilsə də, son bir illik fəaliyyətin icrasına dair hər hansı hesabat hazırlanmamış, monitorinqin aparılmasına dair sənəd təqdim edilməmişdir. Bu səbəbdən sözügedən məsələnin qiymətləndirilməsi mümkünsüzdür.

Eyni zamanda SİP hazırlanan zaman əvvəlki illərin planlarının icra vəziyyətinin nəzərə alınması barədə sənədlər də təqdim olunmamışdır.

### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

ATM Strateji İnkişaf Planının 1.3-cü hissəsi GZİT təhlilə həsr edilmiş və burada Lənkəran Dövlət Universitetinin cari mənzərəsinin doğru anlaşılması üçün əlçatan, habelə çağırışların reallıqla uyğunlaşan formada qiymətləndirilməsi formatında əks edilməsi kimi məlumatlar öz əksini tapmışdır.

### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

ATM-in Strateji İnkişaf Planında maraqlı tərəflərə dair ümumi məlumatlar əks olunsa da, maraqlı tərəflərin və onların gözləntilərinin təsnifatı və qruplaşdırılması aparılmamışdır.

Maraqlı tərəflərə aid olaraq SİP-də qeyd olunmuşdur ki, inkişaf strategiyası daxili və xarici çağrışlara cavab olaraq Universitetin bütün fəaliyyət istiqamətləri (təhsil proqramları, maraqlı tərəflərin - tələbələrin, valideynlərin, işə götürənlərin, məzunların, professor-müəllim heyətinin, elmi-tədqiqat işlərinin, maliyyə - iqtisadi idarəetmənin, tədris metodiki işlərin, infrastrukturun və informasiya-texniki bazanın keyfiyyətinin yaxşılaşdırılması, kommunikasiya və sosial-tərbiyə siyasəti) üzrə innovasiyayönümlü dayanıqlı sistemin formalaşmasına xidmət göstərir. Göstəricilərin seçilməsi və onların hesablanması metodikasının hazırlanması üçün

bütün maraqlı tərəfləri özündə birləşdirən işçi qrupu yaradılmalı və müxtəlif təşkilatların iştirakını tələb edən mürəkkəb elmi - texniki layihələrin reallaşması üçün mükəmməl kadr potensialı formalaşır; bütün maraqlı tərəflərin (biznes, elm, dövlət, vətəndaş cəmiyyəti) iştirakı əsasında tədqiqatların və işləmələrin aparılması üçün əlavə maliyyə resursları cəlb edilməlidir.

### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

ATM tərəfindən Strateji İnkişaf Planının struktur bölmələri üzrə icrası, monitorinqi və qiymətləndirilməsi mexanizmini özündə ehtiva edən hər hansı sənəd təqdim edilmədiyindən, habelə son bir il ərzində SİP üzrə fəaliyyətin təşkili mexanizmlərinə dair hər hansı prosedur müşahidə edilmədiyindən konkret rəy vermək mümkün olmadı. Universitetin fəaliyyətinin təşkili SİP ilə əlaqəli olduğundan cari iş bölgüsü ümumi prosedurlar əsasında mövcud olsa da ayrıca struktur bölmələri üzrə həyata keçirilməmişdir.

## *1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi*

### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

LDU-nun SİP-nin ”Planın reallaşma mərhələləri, mexanizmi və inteqrativ nəticələr” adlı 8-ci bölməsində illər üzrə həyata keçiriləcək işlərin planı göstərilmişdir. SİP-dən irəli gələn illik fəaliyyət planı mövcud deyil. Hesabatlar təqdim olunmadı. SİP üzrə illik fəaliyyət planının hazırlanması fəaliyyətin səmərəliliyini artırmış olardı.

Ümumilikdə, SİP-də müəyyən edilmiş fəaliyyətlər istiqamətində işlərin intensivləşdirilməsinə ehtiyac vardır.

### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

LDU üzrə illik fəaliyyət planı olmadığı üçün SİP-in icrası üzrə strukturların hesabatlılığı yoxdur və müzakirəsi aparılmır. Sahə baxışı zamanı bu barədə sənəd təqdim olunmamışdır.

### 1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

LDU-da SİP-də planın icrasını təmin etmək üçün xüsusi komissiyanın yaradılması nəzərdə tutulmuşdur. Sahə baxışı zamanı komissiyanın yaradılması haqqında əmr və monitorinqin aparılmasını təsdiq edən sənəd təqdim olunmamışdır.

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

LDU-nun SİP-nə əsasən planda nəzərdə tutulan proqram xarakterli tədbirlərinin həyata keçirilməsinin qiymətləndirilməsi və ona nəzarət Universitet Elmi Şurası tərəfindən aparılır. Sahə baxışı zamanı SİP-in icrasının dövrü monitorinqinin aparılmasına və nəticələrinin müzakirəsinə dair hər hansı hesabat təqdim olunmamışdır.

**1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti**

ATM-də SİP-in icrası üzrə monitorinqin aparılmasına dair hər hansı prosedur və ya sənədə rast gəlinmədiyindən, habelə maraqlı tərəflərin dəqiq təsnifatı (və ya təyinatı) aparılmadığından müvafiq məsələnin qiymətləndirilməsi mümkün deyil.

## 2. KEYFİYYƏT TƏMİNATI

### *2.1 Keyfiyyət təminatı siyasəti*

**2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı**

LDU-nun dayanıqlı Keyfiyyət Təminatı siyasətini əks etdirən "Lənkəran Dövlət Universitetin Keyfiyyət Təminatı siyasəti" adlı sənəd Elmi Şuranın 26 dekabr 2022-ci il tarixli iclasının qərarı ilə (protokol № 4) təsdiq olunmuşdur. ATM-nin Keyfiyyət Təminatı Siyasəti sənədi Universitetin 2022-2030-cu illər üçün Strateji İnkişaf Planının müddəaları nəzərə alınaraq hazırlanmışdır (Elmi Şuranın müvafiq iclasının protokolundan çıxarış təqdim olunmuşdur).

Universitetin Keyfiyyət Təminatı Siyasəti sənədində bütün maraqlı tərəflərin cəlb olunması nəzərdə tutulsa da, daxili keyfiyyət təminatı sistemində onların hamısının bu prossesdə iştirakı təmin olunmamışdır. Belə ki, 24 dekabr 2022-ci il və 06 yanvar 2023-cü il tarixlərində Keyfiyyət təminatı şöbəsində keçirilən iclaslarda ancaq Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor və elmi katibin iştirakı ilə siyasət sənədinin müzakirəsi aparılmış, sənədin hazırlanma mərhələsində isə digər maraqlı tərəflərin fikir və yanaşmaları nəzərə alınmamışdır.

**2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti**

Sənədlə tanışlıq zamanı onun sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edildiyi müəyyənləşdirilmişdir. ATM-in Özünütəhlil Hesabatında göstərildiyi kimi, Keyfiyyət Təminatı Siyasəti sənədi Universitet daxilində müxtəlif fakültə, şöbə və mərkəzlərdə idarəetmə funksiyalarını yerinə yetirərkən qərarların qəbulu, məsləhətləşmə, təsdiq və monitorinq proseslərini aydın izah edir, təhsilalanların ehtiyaclarına uyğun olaraq hazırlanmış standart təhsil proqramının keyfiyyətli icrasını təmin etmək üçün təhsil fəaliyyətlərində iştirak edən müxtəlif struktur bölmələr arasında əlaqə, əməkdaşlıq və koordinasiyanın necə həyata keçiriləcəyini dəqiq əks etdirir.

**2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi**

ATM-in əməkdaşları ilə müsahibələr zamanı məlum olmuşdur ki, bütün struktur bölmələrinə Keyfiyyət Təminatı Siyasətinin göndərilməsinə baxmayaraq, bəzi əməkdaşlar (məsələn, tyutorlar) bu sənədin mövcudluğu və onun müddəaları barədə məlumatlı deyil.

**2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)**

ATM-in Özünütəhlil Hesabatında göstərildiyi kimi Keyfiyyət təminatı siyasəti Universitetin Strateji İnkişaf Planının hədəflərinə uyğun olmaqla, keyfiyyətin təmin olunmasına yönəldilən bir sənəd kimi tərtib olunmağa istiqamətlənmişdir.

Keyfiyyət Təminatı Siyasəti sənədi bütün tələb olunan məlumatları (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəricilərini) əhatə edir. Belə ki, sənəd 9 istiqamətdə - fəaliyyətlərin təşkili və idarəetmədə keyfiyyət, keyfiyyətli təhsil təminatı, resursların idarə olunması, təhsil və tədqiqatlara dəstək, keyfiyyət mədəniyyəti, keyfiyyət indikatorları, ictimaiyyətin məlumatlandırılması və s. məsələləri əhatə etmişdir.

***2.2 Daxili keyfiyyət təminatı mexanizmləri***

**2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)**

ATM-in Özünütəhlil Hesabatında qeyd olunmasa da, sahəyə baxış zamanı müəyyənləşdirilmişdir ki, hal-hazırda ATM-də keyfiyyət təminatı Keyfiyyət Təminatı şöbəsi və Keyfiyyət Təminatı Komissiyası vasitəsilə həyata keçirilir. Özünütəhlil Hesabatında yalnız 05 yanvar 2023-cü il tarixində 4/03 saylı əmrə əsasən yaradılmış KT Komissiyası qeyd olunmuşdur.

Bundan öncəki dövrdə Keyfiyyət Təminatı 05 yanvar 2022-ci il 1/03 saylı əmrə əsasən yeni ştat cədvəlində təsdiq olunmuş Tədrisin təşkili və keyfiyyətə nəzarət şöbəsi vasitəsilə həyata keçirilmişdir. Elmi Şuranın 26 dekabr 2022-ci il tarixli 04 saylı iclas protokolundan çıxarışa və 1/01 saylı 05 yanvar 2023-cü il tarixli əmrə əsasən yeni ştat cədvəli təsdiq olunaraq Keyfiyyət təminatı şöbəsi yaradılmışdır. Şöbənin yaradılması barədə rektorun müvafiq Əmri mövcud deyildir.

Şöbənin və Komissiyanın müvafiq olaraq 05 yanvar 2023-cü il tarixli və 01 mart 2023-cü il tarixli Əsasnamələri var, lakin təsdiqlənmiş struktur və iş bölgüsü (vəzifə təlimatları) mövcud deyildir.

Mütəmadi olaraq şöbə və Komissiya tərəfindən imtahan nəticələrinin, qrup jurnallarının monitorinqi, pedaqoji, elmi-pedaqoji və istehsalat təcrübələri və s. məsələləri haqqında görüşlər keçirilərək hesabatlar hazırlanır və rəhbərliyə təqdim edilir.

**2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması**

ATM-in Keyfiyyət Təminatı üzrə Komissiyası rektorun 4/03 sayı Əmri ilə 05 yanvar 2023-cü il tarixində yaradılmışdır. Komissiyanın tərkibinə tədrisin təşkili və təlim texnologiyaları üzrə

prorektor, elmi katib, Keyfiyyət təminatı şöbəsinin müdiri, Tədrisin təşkili və təlim texnologiyaların tətbiqi şöbəsinin müdiri, fakültə dekanları, Tədrisin təşkili, qeydiyyat və qiymətləndirmə bölməsinin rəhbəri daxil edilmişdir. Digər maraqlı tərəflər üzv qismində Komissiyanın tərkibinə salınmamışdır.

### 2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

Keyfiyyət təminatı şöbəsinin 2022-2023-cü tədris ili üçün təqdim olunmuş iş planı Strateji İnkişaf Planının hədəflərinə əsasən uyğun tərtib olunmuşdur. Belə ki, iş planında görüləcək işlər Strateji İnkişaf Planının aşağıdakı strateji məqsədlərinə nail olunmasına istiqamətlənmişdir:

1. Kadr potensialının, idarəetmə sisteminin modernləşdirilməsi və inkişafı;
2. Kadr hazırlığı sisteminin transformasiyası;
3. Sosial və vətəndaş məsuliyyətinin formalaşması üçün optimal şəraitin yaradılması;
4. Tədrisin keyfiyyətini artırmaq məqsədi ilə hər bir ixtisas üzrə maddi-texniki bazanın möhkəmləndirilməsi;
5. Universitetdaxili keyfiyyətin təmin edilməsi və ona nəzarət işinin təşkil edilməsi məqsədi ilə işlək mexanizmin yaradılması.

### 2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

Akkreditasiya Komissiyasına Tədrisin təşkili və keyfiyyətə nəzarət şöbəsinin 07 fevral 2022-ci il tarixli iclasının 01/2022 saylı protokolu, şöbənin 26 dekabr 2022-ci il tarixli hesabatı, Keyfiyyət Təminatı şöbəsinin 10 fevral 2023-cü il tarixli iclasının 1 saylı protokolu təqdim olunmuşdur.

Sənədlərlə tanışlıq zamanı müəyyənləşdirilmişdir ki, daxili keyfiyyət təminatı sistemi üzrə 12 sentyabr 2022-ci il və 05 yanvar 2023-cü il tarixlərində təsdiq edilmiş müvafiq olaraq İş və fəaliyyət planlarının icra mexanizmləri tam işlənməmişdir. Belə ki, şöbənin fəaliyyətinin hesabatı təsdiq olunmuş İş Planına uyğun təqdim olunmamışdır.

Akkreditasiya Komissiyasına təqdim olunan Lənkəran Dövlət Universitetinin 2022-2030-cu illər üzrə Strateji İnkişaf Planından irəli gələn Fəaliyyət Planında icra mexanizmləri kifayət qədər aydın və hərtərəfli əks olunsa da onların monitorinq mexanizmi tam aydın deyildir.

### 2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması

Akkreditasya Komissiyasına təqdim olunan 2022-2030-cu illər üzrə Strateji İnkişaf Planından irəli gələn Fəaliyyət Planında “İcra müddəti”, “İcraçılar”, “İcraya nəzarət”, “Görülmüş işlər/Gözlənilən nəticələr” əksini tapmışdır. Lakin bu Fəaliyyət Planının 8 illik deyil, hər il üçün tərtib olunması məqsədəuyğun hesab olunur..

Keyfiyyət Təminatı şöbəsinin 2022-2023-cü tədris ili üçün olan İş Planında da hər bir proses üzrə tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlər "İcraçı" sütununda əks olunmuşdur.

**2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti**

ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş Keyfiyyət təminatı şöbəsinin 2022-2023-cü tədris ili üçün olan İş Planı prorektorlar, Universitetin müxtəlif struktur bölmələri, fakültələr, kafedralar və təhsilalanları əhatə edir.

2022-2030-cu illər üzrə Strateji İnkişaf Planından irəli gələn Fəaliyyət Planı da öz növbəsində Universitetin bütün struktur bölmələrini əhatə edir.

**2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması**

ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması təmin olunmamışdır. Belə ki, Universitetin veb-saytında şöbənin ayrıca səhifəsi mövcud deyildir və keyfiyyət təminatı sisteminə aid heç bir normativ sənədlər yerləşdirilməmişdir. Belə olduğu halda Universitetin keyfiyyət mədəniyyətinin aşılanması və bu istiqamətdə görülən işlər kifayət qədər ictimailəşmir.

**2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi**

ATM-in Özünütəhlil Hesabatına əsasən daxili keyfiyyət təminatı sistemində aşağıda qeyd olunan sahələr üzrə təhlil, monitoriq və qiymətləndirmə aparılır:

- Tələbələrin inkişafı və müvəffəqiyyəti;
- Məzunların məşğulluğu;
- Proqramların qiymətləndirilməsi;
- Tədqiqatın keyfiyyəti;
- Nəşrlərin keyfiyyəti;
- Xidmətlərin keyfiyyəti;
- Resurslardan səmərəli istifadə;
- Tələbə məmnuniyyəti;
- İşçi məmnuniyyəti.

Daxili keyfiyyət təminatı sistemi üzrə müəyyən təhlil və qiymətləndirmələr (tədris prosesi, nizam-intizam qaydaları və s.) şöbənin iclaslarında müzakirə olunmuş və aidiyyatı protokollar Komissiyaya təqdim olunmuşdur. Lakin Akkreditasiya Komissiyasına Özünütəhlildə qeyd olunan digər təhlil və qiymətləndirmə prosedurlarını əhatə edən təsdiqedici sənədlər (məsələn,

tələbə, işçi heyəti, məzun məmnuniyyəti, xidmətlərin keyfiyyəti və s. qiymətləndirmələr) təqdim edilməmişdir.

### 2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

ATM-in Özünütəhlil Hesabatına istinadən qeyd edə bilərik ki, Universitetdə daxili keyfiyyət təminatı sistemi yeni qurulur. Tədrisin təşkili və keyfiyyətə nəzarət şöbəsi TKTA-nın 16.02.2022-ci il tarixli 00-02-103/TKTA saylı müraciəti ilə bağlı Lənkəran Dövlət Universitetində son akkreditasiya qiymətləndirilməsi zamanı (2016-cı il yanvar) Akkreditasiya Komissiyası tərəfindən hazırlanmış Yekun Hesabatda göstərilən tövsiyələrin icrası və çatışmazlıqların aradan qaldırılması ilə əlaqədar görülmüş işlər barədə hesabatı TKTA-ya təqdim etmişdir.

Eyni zamanda ATM-in rəhbərliyinə keyfiyyət təminatı istiqamətində mütəmadi olaraq müxtəlif hesabatlar verilmişdir (Tədrisin təşkili və keyfiyyətə nəzarət şöbəsinin 07 fevral 2022-ci il tarixli iclasının 01/2022 saylı protokolu, şöbənin 26 dekabr 2022-ci il tarixli hesabatı, Keyfiyyət Təminatı şöbəsinin 10 fevral 2023-cü il tarixli iclasının 1 saylı protokolu).

### 2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15 aprel 2015-ci il tarixli 34 saylı əmri ilə yaradılmış Akkreditasiya Komissiyası Lənkəran Dövlət Universitetində akkreditasiya apararaq Yekun Hesabat hazırlamışdır. Bu hesabatla tanışlıq onu göstərdi ki, göstərilən 15 istiqamət üzrə tövsiyə və göstərişlərin icra vəziyyəti qənaətbəxşdir.

Ötən akkreditasiyanın tədris sahəsinə aid tövsiyələri istiqamətində LDU-da bir cox işlər həyata keçirilib. Belə ki, tədris sənədləri normativ qaydalara uyğun hazırlanıb, sənədlər strukturlarda mövcuddur. Fakültə və kafedraların Əsasnamələri təsdiq olunub. Lakin bir neçə tövsiyə üzrə işlərdə catışmazlıqlar var. Belə ki, təhsil proqramlarının 2020-ci ildə yenilənməsinə baxmayaraq hələ də yenilənməmiş fənn proqramları mövcuddur. Bəzi ixtisaslarda bir müəllimə bölünən dərs yükündə fənlərin sayı çoxluq təşkil edir.

Son akkreditasiya zamanı LDU-ya bildirilən tövsiyələrdən elmi-tədqiqata aid (11-ci bənd) hissə üzrə bir sıra işlər həyata keçirilib. Belə ki, Elmi-tədqiqat işlərinin 5 illik (2022-2026) planı təsdiq edilərək əmrləşdirilmişdir. Eyni zamanda 2022-ci ildə elmi-tədqiqat işlərinin səmərəliliyini artırmaq məqsədilə Universitetin elmi jurnalları yenilənmiş və tədqiqat işlərinin nəticələrinin bir qismi həmin jurnallarda dərc olunmuşdur. Universitetin Elmi Xəbərlər jurnalının Humanitar elmləri seriyası Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi dövri elmi nəşrlərin siyahısına, eyni zamanda E-Library (РИНЦ) beynəlxalq indeksləmə sisteminə- https://elibrary.ru/title_about_new.asp?id=77367 və İNDEKS COPERNİCUS beynəlxalq bazaya daxil edilmişdir: https://journals.indexcopernicus.com/search/details?id=93738&lang=pl. Riyaziyyat və Təbiyyət elmləri seriyası isə E-Library (РИНЦ) beynəlxalq indeksləmə sisteminə- https://elibrary.ru/title_about_new.asp?id=77367 daxildir. Hesabat dövründə Universitet əməkdaşlarının Web of Science bazasına daxil olan jurnallarda 69 məqaləsi dərc etdirilmişdir.

**2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti**

Keyfiyyət təminatı şöbəsi tərəfindən yalnız təhsilalanlar arasında 2018-ci ildə elektron, 2022-ci ildə isə kağız daşıyıcıda dərslərin tədrisi ilə bağlı anonim sorğular keçirilmişdir. Lakin sorğuların nəticələri tam təhlil olunmamış və Elmi Şurada müzakirə olunmamışdır. Digər maraqlı tərəflər arasında isə sorğular keçirilməmişdir.

***2.3 Keyfiyyət təminatı mədəniyyəti***

**2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması**

ATM-in Özünütəhlil Hesabatında qeyd olunmuşdur ki, müvafiq struktur bölmə rəhbərlərinin birgə fəaliyyətləri nəticəsində təlim-tədris və tədqiqat fəaliyyətləri arasında əməkdaşlıq və koordinasiya dəstəklənir və gücləndirilir. Bunun üçün mütəmadi iclaslar, görüşlər və birgə fəaliyyətlər həyata keçirilir.

Sahə baxışı zamanı müəyyən olunmuşdur ki, Universitetin rəhbərliyi və Keyfiyyət təminatı şöbəsi tərəfindən həyata keçirilən məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin qurulmasının təməli uğurlu qoyulmuş, lakin bəzi struktur bölmələri tərəfindən bu koordinasiyanın daha da gücləndirilməsinə ehtiyac vardır.

Keyfiyyət təminatı istiqamətində olan kommunikasiya sistemi əsasən korporativ elektron poçt ünvanı vasitəsilə həyata keçirilir.

**2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması**

Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması məqsədilə Keyfiyyət Təminatı üzrə komissiya yaradılmışdır. Komissiyanın 01 mart 2023-cü ildə təsdiq olunmuş Əsasnaməsinə uyğun olaraq Komissiya müxtəlif fakültələri təmsil edən bir qrup əməkdaşdan ibarətdir. Komissiya keyfiyyət siyasəti əsasında hazırlanmış fəaliyyət planının icrasına nəzarət edir, digər struktur bölmələrin fəaliyyətinin keyfiyyət baxımından qiymətləndirilməsi metodologiyasını, meyarlarını müəyyənləşdirir və müəyyən olunmuş metodologiya və meyarlar əsasında qiymətləndirməni müzakirə edir və hesabatlar hazırlayır. Eyni zamanda Komissiya strukturlararası kommunikasiyanın səmərəliliyini qiymətləndirir və təkliflər verir.

**2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər**

ATM-in idarəetmə strukturu ilə görüşlər nəticəsində belə qənaətə gəlindi ki, müəyyən olunmuş prioritetlərə uyğun fəaliyyət göstərmək və keyfiyyətin yüksəldilməsi üçün lazım olan resurslar (insan resursları, infrastruktur, səlahiyyətlərin verilməsi və s.) Universitet rəhbərliyi tərəfindən təmin olunur. Təqdim olunan sənədlərdən və keçirilən müsahibələrdən məlum olur ki, keyfiyyət təminatı siyasəti rəhbərlik tərəfindən təşkil olunan bütün tədbirlərdə başlıca məsələ olaraq qalır. Keyfiyyət təminatı şöbəsi tərəfindən mütəmadi verilən təkliflər rəhbərlik tərəfindən qəbul olunaraq həyata keçirilir.

#### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

Universitetin əməkdaşları (dekan, kafedra müdirləri, professor-müəllim heyəti və s.) ilə müsahibələr zamanı müəyyələşdirilmişdir ki, onlar keyfiyyət təminatı siyasəti və Universitetdə keyfiyyət mədəniyyəti anlayışının aşılanması barədə məlumatlı olsalar da, siyasət və mədəniyyət üzrə yanaşmaların bölüşməsi istiqamətində daha konkret tədbirlər görmələri zəruridir. Beləliklə, keyfiyyətin təmin olunmasında Universitetdə strukturlararası fəaliyyətin koordinasiyası zəifdir. Keyfiyyət təminatı mədəniyyətinin aşılanması və bu istiqamətdə maraqlı tərəflərin məlumatlandırılması və əks-əlaqənin təmin edilməsi üçün Universitetin veb-saytında şöbənin və komissiyanın fəaliyyəti kifayət qədər işıqlandırılmamışdır.

## 3. TƏLİM VƏ TƏDRİS

### *3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

#### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

LDU-da tələbə qəbulu üzrə sifarişlərin işlənib hazırlanması və təsdiqi addım-addım prosedur “Yol xəritəsi” vasitəsilə aydın şəkildə müəyyən edilmişdir. Həm universitet, həm də şöbələr səviyyəsində təhlillər aparılaraq Elm və Təhsil Nazirliyinə proqnoz məktubu göndərilir və ümumilikdə bu proses sentyabr-noyabr aylarını əhatə edir. ATM-də kadr hazırlığı aparılan bütün ixtisaslar üzrə təhsil proqramları əsasında hazırlanmış təhsilalanların fasiləsiz təhsil almasını, lazımi biliklərə yiyələnməsini, dünyagörüşünü və şəxsiyyət kimi formalaşmasını təmin edən tədris planları, işçi tədris qrafikləri və digər tədris sənədləri mövcuddur. Müsahibələr zamanı müəyyən olundu ki, tələbə qəbulu üzrə sifarişlərin hazırlanmasında Universitetin maddi texniki bazası, infrastruktur, auditoriya fondu, laboratoriya, təcrübə sahələri və s. nəzərə alınır. Lakin region universiteti olması ilə əlaqədar olaraq bəzi ixtisaslar üzrə kadr çatışmazlığı müşahidə olunur.

#### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

LDU üzrə bakalavriatura səviyyəsində 40, magistratura səviyyəsində 27 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir.

***Cədvəl 1. İxtisasların siyahısı***

(bakalavriatura üzrə)

| | | |
|---|---|---|
| 1 | 050101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi |
| 2 | 050103 | Coğrafiya müəllimliyi |
| 3 | 050105 | Fizika müəllimliyi |
| 4 | 050107 | İbtidai sinif müəllimliyi |
| 5 | 050110 | Kimya və biologiya müəllimliyi |
| 6 | 050112 | Məktəbəqədər təhsil |
| 7 | 050113 | Musiqi müəllimliyi |
| 8 | 050114 | Riyaziyyat müəllimliyi |
| 9 | 050115 | Riyaziyyat və informatika müəllimliyi |
| 10 | 050116 | Tarix müəllimliyi |
| 11 | 050117 | Tarix və coğrafiya müəllimliyi |
| 12 | 050118 | Təhsildə sosial-psixoloji xidmət |
| 13 | 050119 | Təsviri incəsənət müəllimliyi |
| 14 | 050120 | Texnologiya müəllimliyi |
| 15 | 050121 | Xarici dil müəllimliyi (ingilis dili üzrə) |
| 16 | 050215 | Tərcümə (ingilis dili üzrə) |
| 17 | 050310 | Muzey, arxiv işi və abidələrin qorunması |
| 18 | 050401 | Beynəlxalq ticarət və logistika |
| 19 | 050402 | Biznesin idarə edilməsi |
| 20 | 050404 | Dövlət və bələdiyyə idarəetməsi |
| 21 | 050405 | İqtisadiyyat |
| 22 | 050406 | Maliyyə |
| 23 | 050407 | Marketinq |
| 24 | 050408 | Menecment |
| 25 | 050409 | Mühasibat |
| 26 | 050504 | Ekologiya |
| 27 | 050602 | Aqromühəndislik |

| | | |
|---|---|---|
| 28 | 050616 | İnformasiya texnologiyaları |
| 29 | 050620 | Kompüter mühəndisliyi |
| 30 | 050635 | Qida mühəndisliyi |
| 31 | 050701 | Aqronomluq |
| 32 | 050702 | Bağçılıq və tərəvəzçilik |
| 33 | 050704 | Baytarlıq təbabəti |
| 34 | 050705 | Bitki mühafizəsi |
| 35 | 050706 | Meşəçilik |
| 36 | 050707 | Şərabçılıq |
| 37 | 050709 | Torpaqşünaslıq və aqrokimya |
| 38 | 050711 | Zoomühəndislik |
| 39 | 050807 | Sosial iş |
| 40 | 050810 | Turizm işinin təşkili |

(magistratura üzrə)

| | | |
|---|---|---|
| 1. | 060101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi<br>- Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası |
| 0. | 060103 | Xarici dil müəllimliyi (ingilis dili üzrə)<br>- İngilis dilinin tədrisi metodikası və metodologiyası |
| 0. | 060105 | Riyaziyyat müəllimliyi<br>- Riyaziyyatın tədrisi metodikası və metodologiyası |
| 0. | 060107 | Texnologiya müəllimliyi<br>- Texnologiya fənninin tədrisi metodikası və metodologiyası |
| 0. | 060109 | Biologiya müəllimliyi<br>- Biologiya fənninin tədrisi metodikası və metodologiyası |
| 0. | 060110 | Kimya müəllimliyi<br>- Kimya fənninin tədrisi metodikası və metodologiyası |
| 0. | 060111 | Tarix müəllimliyi<br>- Tarix fənninin tədrisi metodikası və metodologiyası |
| 0. | 060112 | Coğrafiya müəllimliyi<br>- Coğrafiya fənninin tədrisi metodikası və metodologiyası |
| 0. | 060113 | İnformatika müəllimliyi<br>- İnformatika fənninin tədrisi metodikası və metodologiyası |
| 0. | 060115 | İbtidai sinif müəllimliyi<br>- İbtidai sinifdə tədrisin metodika və metodologiyası |
| 0. | 060117 | Məktəbəqədər təlim və tərbiyə<br>- Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası |
| 0. | 060119 | Pedaqogika<br>- Təhsildə qiymətləndirmə və monitorinq |

| | | |
|---|---|---|
| 0. | 060301 | Muzeyşünaslıq, arxiv və abidələrin qorunması<br>- Muzeyşünaslıq |
| 0. | 060402 | Mühasibat uçotu və audit<br>- İstehsal sferasında mühasibat uçotu və audit |
| 0. | 060403 | Maliyyə<br>- Maliyyə menecmenti |
| 0. | 060404 | İqtisadiyyat<br>İqtisadiyyatın tənzimlənməsi |
| 0. | 060408 | Marketinq<br>- Marketinq (sahələr üzrə) |
| 0. | 060409 | Biznesin idarə edilməsi<br>- Biznesin təşkili və idarə edilməsi |
| 0. | 060409 | MBA proqramı üzrə Biznesin idarə edilməsi<br>- Biznesin təşkili və idarə edilməsi (aqrobiznes)<br>- Biznesin təşkili və idarə edilməsi (ərzaq sahəsi üzrə) |
| 0. | 060510 | Ekologiya<br>- Ətraf mühitin mühafizə metodları və bərpası |
| 0. | 060631 | Kompüter mühəndisliyi<br>- Kompüter mühəndisliyi |
| 0. | 060632 | İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi<br>- İnformasiya texnologiyaları və telekommunikasiya sistemləri |
| 0. | 060642 | Qida məhsulları mühəndisliyi<br>- Qida təhlükəsizliyi |
| 0. | 060701 | Torpaqşünaslıq və aqrokimya<br>- Aqrokimya |
| 0. | 060702 | Aqronomluq<br>- Meyvəçilik |
| | 060704 | Baytarlıq<br>- Baytar-sanitar ekspertizası |
| 0. | 060708 | Meşəçilik<br>- Meşə quruluşu |
| 0. | 060803 | Turizm və otelçilik<br>- Turizm və sosial-mədəni servis xidməti |

İllər üzrə tələbə qəbulu sifarişlərini təhlil edərkən qəbul planının və faktiki qəbulun ildən ilə artan dinamikası müşahidə olunur.







***Qrafik 1: Tədris illəri üzrə qəbul planı və dinamikası***

Təhlil zamanı faktiki qəbulun qəbul planına olan faiz nisbətinin bakalavriatura səviyyəsində azalan, magistratura səviyyəsində artan dinamikası müşahidə olunur.







### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

ATM-in Özünütəhlil Hesabatına əsasən ixtisaslar üzrə təcrübələrin təşkili zamanı LDU ilə regionda yerləşən aparıcı dövlət və özəl müəssisələri arasında müqavilələr bağlanır. Həmçinin əhalinin regional məşğulluq mərkəzləri və kadr agentlikləri ilə qarşılıqlı əlaqələr yaradılır. Bundan əlavə hər tədris ilinin sonunda “Məzun yarmarkası və açıq qapı günü” təşkil olunur və bu tədbirdə müəssisələrin nümayəndələri dəvət olunurlar. Beləliklə, müəssisələr ilə əlaqələrin qurulması və işəgötürənlərlə sıx təmasların yaradılması əmək bazarında olan tələbatı müəyyən etməyə imkan verir. Əldə olunan nəticələr tələbə qəbulu zamanı nəzərə alınır. Lakin tələbə qəbulunu əks etdirən cədvəlin təhlili və rəhbərliklə müsahibə zamanı məlum oldu ki, əmək bazarının rəyinin alınması LDU üçün çətindir. Bəzi hallarda qarşı tərəfdən gələn təkliflər işin səmərəliliyinə təsir etmir. Belə ki, 2021/2022-ci ildə bir neçə ixtisasda (qida mühəndisliyi, coğrafiya müəllimliyi, beynəlxalq ticarət və logistika, dövlət və bələdiyyə idarəetməsi, menecment) qəbul faizi 10 faizdən aşağı təşkil edir. Tələbə qəbulu sifarişlərinin əmək bazarının tələblərinə uyğun olaraq optimal müəyyən edilməsi üçün maraqlı tərəflərlə görüşlər aparılsa da, rəsmiləşdirilmiş protokollar təqdim olunmamışdır. Əmək bazarının

tələblərinin öyrənilməsi üçün işəgötürənlərlə əlaqələrin genişləndirilməsi istiqamətində işləri gücləndirmək tövsiyyə olunur.

### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti

ATM-in müvafiq ixtisaslarına qəbul olmuş tələbələrin əvvəlki təhsili tanınır və əvvəlki təhsilində fənlər üzrə qazandıqları kreditlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20.05.2019-cu il tarixli 230 nömrəli "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi" Qaydalarının 5.1. bəndinə uyğun olaraq qəbul olunduqları ixtisasın təhsil proqramına uyğun nəzərə alınır. Hər tədris ilində həmin tələbələrin əvvəlki təhsilini təsdiq edən sənədlərinə əsasən fənlər üzrə qazandıqları kreditlərinin təhsil proqramına uyğun olaraq qəbul edilməsi barədə Lənkəran Dövlət Universiteti üzrə müvafiq əmrlər verilir. Yerində təhlil nəticəsində aydınlaşdırıldı ki, tələbə kreditlərin tanınması fənnin saatı, fənnin adı, kreditlərin miqdarına əsasən həyata keçirilir və əmrləşdirilir. Tələbələrin əvvəlki kreditlərinin tanınması zamanı fənnin təlim nəticəsinin də əsas götürülməsi məqsədəuyğun olardı.

## *3.2 Təhsil proqramları*

### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

LDU-da ali təhsil pilləsinin hər üç səviyyəsi (bakalavr, magistratura və doktorantura) üzrə kadr hazırlığı aparılır. Bakalavirat, magistratura və doktorantura səviyyələri üzrə kadr hazırlığı həyata keçirilən ixtisaslar (ixtisaslaşmalar) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.02.2019-cu il tarixli 45 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.06.2011-ci il tarixli 95 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.03.2012-ci il tarixli 65 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na uyğundur. Universitetdə bakalavriat səviyyəsində 40 ixtisas, magistratura səviyyəsində 28 ixtisas, doktorantura səviyyəsində 10 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir.

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

ATM-də kadr hazırlığı aparılan bakalavriat, magistratura və doktorantura (dissertantura) üzrə bütün ixtisaslar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 saylı Qərarına əsasən "Ali təhsil pilləsinin dövlət standartı və proqramına" uyğun həyata

keçirilir. İxtisasların təhsil proqramları bir qayda olaraq Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunur. Burada ümumi və ixtisas fənləri, onların məzmunu və kreditləri müəyyən olunur. Təhsil proqramlarında kreditlərin bir qismi ali təhsil müəsissəsi tərəfindən müəyyən olunan fənlərə ayrılır. Həmin fənlər LDU tərəfindən müəyyən olunarkən professor-müəllim heyətinin təcrübəsi, yerli və beynəlxalq iş imkanları, eləcə də, işəgötürənlərin təklif və tövsiyələri əsas götürülərək əmək bazarının və cəmiyyətin tələbləri nəzərə alınır. Müsahibələr zamanı müəyyən olundu ki, bu istiqamətdə işi LDU professor-müəllim heyətinin təcrübəsinə əsaslanaraq həyata keçirir. Məsələn, müəllim hazırlığı aparan ixtisaslarda orta məktəb dərslikləri təhlil olunaraq tədrisinə ehtiyac duyulan fənnlər ATM tərəfindən müəyyən olunan fənn blokuna salınır. Hər il təşkil olunan “Məzun yarmarkası” zamanı işəgötürənlərlə fikir mübadiləsi aparılır və onların təklifləri nəzərə alınır.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

LDU-nun ixtisaslar üzrə tədris planları Elm və Təhsil Nazirliyi tərəfindən 2020-ci ildə təsdiq olunmuş bakalavriat səviyyəsində ixtisaslar üzrə təhsil proqramlarının və 2012-ci ildə təsdiq olunmuş magistratura səviyyəsinin ixtisas üzrə təhsil proqramının tələblərinə uyğun hazırlanmışdır. İxtisaslar üzrə tədris planları məzunun kompitensiyaları, ixtisasın çərçivəsi, fənlər üzrə təlim metodları, təlim nəticələri, tələbənin təcrübə keçmə, işədüzəlmə və təhsilini artırma imkanları nəzərə alınaraq hazırlanmışdır. LDU-da tədris olunan ixtisaslar peşə və kvalifikasiya standartlarına uyğundur.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli, 311 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”-nə uyğun olaraq LDU-da ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu əsasən təmin edilmiş və “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda təsbit olunmuş təhsil pillələri və səviyyələrinə uyğun müəyyənləşdirilmişdir.

Təhsil proqramları Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğundur.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

LDU-nun ayrı-ayrı ixtisaslar üzrə hazırlanmış tədris planları Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş təhsil proqramlarının təlim nəticələrinə və məzmun standartlarına uyğundur. Bəzi fənn proqramları 2020-ci ildən əvvəlki illəri əhatə edir. Sillabuslar təlim nəticələrinə uyğundur. Lakin fənn sillabuslarında təlim nəticələri aydın göstərilməmişdir. Təlim nəticələri “fənn üzrə tələblər və tapşırıqlar” adı altında verilmişdir. Köhnə fənn proqramlarının yenilənməsinə ehtiyac var. Fənn proqramlarında və sillabuslarda təlim nəticələrinin təkmilləşdirilməsi işin səmərəliliyini artırmış olar.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

Təhsil proqramları üzrə ixtisasların tədris planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə əsasən Avropa Kredit Transfer Sisteminin (AKTS) prinsiplərinə uyğun olaraq hazırlanmışdır. Tədris planlarında bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Bu saatların 40%-ni auditoriya, 60%-ni isə auditoriyadankənar saatlar təşkil edir. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Həftəlik dərs yükü 20-24 saat təşkil edir.

Təhsil proqramları üzrə dərs saatlarının bölgüsü Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğundur.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

LDU-da bakalavriat və magistratura səviyyəsində tədris fənləri Elmi Şuranın 14 sentyabr 2020-ci il tarixli qərarı ilə təsdiq olunmuş kadr hazırlığı həyata keçirilən ixtisasların tədris planlarında öz əksini tapmışdır. Tədris planlarında nəzərdə tutulan ümumi və ixtisas fənləri təhsil proqramlarına uyğundur. Fənlərin təlim nəticələri (fənn üzrə tələb və tapşırıqlar adı altında) sillabuslarda qeyd olunmuşdur.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

Təhsil proqramları üzrə ixtisasların tədris planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinin və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş təhsil proqramlarının tələblərinə əsasən hazırlanmışdır. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Həftəlik auditoriya saatının həcmi 20-22 saat müəyyən edilmişdir. Həftəlik auditoriya və auditoriyadankənar saatların miqdarı təhsil proqramlarına uyğundur.

### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

LDU-da dekan, kafedra müdirləri, müəllimlər və tələbələrlə müsahibə zamanı təlim nəticəsi barədə soruşduqda əksəriyyətin bu barədə daha az məlumatlı olduğu müşahidə olundu. Ayrı-ayrı ixtisasların və hər bir ixtisasda tədris olunan fənlərin təlim nəticələri ictimaiyyət üçün əlçatan deyil. Təhsil proqramları və ya tədris planları, sillabuslar Universitetin rəsmi internet səhifəsində yerləşdirilərsə əlçatanlığı təmin etmək daha asan olardı.

### *3.3 Tədrisin təşkili*

#### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

Təhsil proqramları üzrə ixtisasların tədris planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə əsasən Avropa Kredit Transfer Sisteminin (AKTS) prinsiplərinə uyğun olaraq hazırlanmışdır. Tədris planlarında semestrlər üzrə 30 kredit tələbi təmin olunmuş, fənlərin prerekvizitliyi prinsipi gözlənilmişdir. LDU-nun Elmi Şurasının 14 sentyabr 2020-ci il tarixli qərarı ilə təsdiq olunmuşdur.

#### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafiki mövcuddur. Tədris qrafikləri dekan tərəfindən hazırlanır və imzalanır.

#### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

LDU-nun Elmi Şurasının 14 sentyabr 2020-ci il tarixli qərarına əsasən təsdiq olunmuş ixtisaslar üzrə tədris planlarında məcburi və seçmə fənnlərin bölgüsü təhsil standartlarına uyğundur. Tədris planlarında 30 kredit ümumi fənlərə, 120 kredit ixtisas fənlərinə, 60 kredit isə seçmə fənlərə ayrılmışdır.

#### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

LDU-nun Elmi Şurasının 14 sentyabr 2020-ci il tarixli qərarına əsasən təsdiq olunmuş ixtisaslar üzrə tədris planlarında ümumi və ixtisas fənləri arasında balans gözlənilmişdir. Tədris planları təhlil olunarkən təhsil standartlarının tələblərinin gözlənildiyi müşahidə olunmuşdur.

#### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

#### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

Fənn sillabuslarına baxış zamanı müəyyən olundu ki, fənnlər üzrə təlim nəticələri bəzi fənn sillabuslarında "fənn üzrə tələblər və tapşırıqlar" adı altında verilmişdir, bəzi sillabuslarda ümumiyyətlə göstərilməmişdir. Yalnız bir neçə sillabusda təlim nəticəsi adı altında dolğun yazıldığı müşahidə olunmuşdur. Sahə baxışı zamanı müəyyənləşdirildi ki, təlim nəticələrinin əlaqələndirilməsi və qiymətləndirilməsi tədris olunan fənlərin təhsil standartlarının tələblərinə

uyğunluğunun yoxlanılması "açıq dərs"lərin təşkili formasında aparılır. Təlim nəticələrinin müəyyən olunması, əlaqələndirilməsi, qiymətləndirilməsi istiqamətində Universitet əməkdaşlarına təlimlərin keçirilməsi fəaliyyətin səmərəliliyinə müsbət təsir göstərir.

### 3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

ATM-də sahə baxışı zamanı tədris planlarını təhlil edərkən müəyyən olundu ki, semestr ərzində fənlərin sayı altıdan çox deyil və həftəlik dərs yükü 20-22 saatdır. Bu da Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq olunmuş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın tələblərinə uyğundur və tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verir.

### 3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planı mövcuddur. Tələbələrlə müsahibə zamanı müəyyən olundu ki, tələbələrin əksəriyyəti bu barədə az məlumatlıdırlar və ya məlumatsızdırlar. Fərdi planlar tyutorlar tərəfindən hazırlanır və nüsxəsi tələbələrdə yoxdur. Fərdi tədris planlarının hazırlanmasına tələbələrin daha yaxından cəlb olunması və bir nüsxəsinin tələbəyə verilməsi məqsədəuyğun hesab edilir.

### 3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti

LDU-da ixtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı mövcuddur. İllik işçi tədris planları Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor tərəfindən təsdiq olunmuşdur.

### 3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti

Kafedralara baxış zamanı müəyyən olundu ki, müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə

tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planı mövcuddur.

### 3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

LDU-da kadr hazırlığı aparılan tədris planlarına baxış keçirərkən Forma 1-lərdə ixtisasın istiqamətinə uyğun olaraq fənlərin mühazirə, məşğələ və laboratoriya dərslərinə bölündüyü müşahidə edilmişdir. Tələbələrlə görüş və infrastruktura baxış zamanı müəyyən olundu ki, dərslər həm ənənəvi, həm də müasir təlim metodlarından istifadə etməklə təşkil olunur. Lakin sahə baxışı zamanı müasir avdanlıqlarla (proyektor, kompüter, ağıllı lövhə və s.) təchiz olunmuş auditoriyaların sayının azlığı müşahidə olunmuşdur.

### 3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti

LDU-da tələbələrə akademik məsləhət vermək məqsədilə hər fakültədə akademik məsləhətçilər fəaliyyət göstərir. Tyutorların əsas vəzifələrini təhsilalanlar və yeni qəbul olunan tələbələrlə görüşlərin keçirilməsi və kredit sistemi ilə tədrisin təşkili, biliyin qiymətləndirilməsi təşkil edir. LDU-da tyutor vəzifəsinə namizədlərə xüsusi təlimlər təşkil olunur və təlimlərdən uğurla keçənlər bu vəzifəyə təyin olunurlar.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

LDU-da müəllimin rəhbərliyi altında tələbələrinin sərbəst işinin hazırlanması, sərbəst işə verilən ballar və davamiyyətə verilən ballar Elmi Şuranın 29.01.2019-cu il tarixli qərarı ilə ləğv olunmuşdur (4/16 saylı 01 fevral 2019-cu il tarixli əmr). Cari qiymətləndirmədə 20 bal seminar(məşğələ) dərslərinin nəticələrinə, 30 bal kollokviumların nəticələrinə görə müəyyən olunur. Müəllimlərin rəhbərliyi altında tələbələrin sərbəst işinin yerinə yetirilməsinin bərpa olunması tələbələrin gələcəkdə müstəqil tədqiqat aparmaq bacarıqlarının inkişafına müsbət təsir edə bilər.

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

LDU-da təcrübələr “Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında” Əsasnamənin tələblərinə uyğun təşkil olunur. Müəssisələrlə bağlanmış müqavilələr bağlanılır. Bu zaman müvafiq ixtisaslara uyğun olaraq ATM-in müəllim-professor heyətindən və təcrübə müəssisəsindən təcrübə rəhbərləri təyin edilir ki, onlar da təcrübə öncəsi tələbələrlə təlimati görüşlər keçirir, təcrübənin gedişatına nəzarət edirlər. LDU-nun Elmi şurasının 01 iyun 2020-ci il tarixli iclasının (protokol № 8) qərarı ilə təcrübələrin təşkili ilə bağlı qaydalar təsdiq olunmuşdur.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

LDU-da müəllimlərin stajkeçməsi həyata keçirilmir. Müəllimlər müxtəlif təlimlərdə iştirak edirlər. Lakin bu sistematik xarakter daşımır. Müəllimlərin bilik, bacarıqlarının artırılması istiqamətində mütəmadi olaraq təlimlərə cəlb olunması tədrisin keyfiyyətinin daha da artırılmasına təsir göstərə bilər.

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

LDU-da kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi kadr hazırlığı həyata keçirilən ixtisasların təhsil proqramlarında məcburiyyət olmadığından həyata keçirilmir.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

LDU-da buraxılış işi nəzərdə tutulmamışdır. Magistr dissertasiyalarının hazırlanması və müdafiəsinin təşkili “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”nın, “Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşdırılmış Elmi Şuralar haqqında” Əsasnamənin tələbləri gözlənilməklə həyata keçirilir. Magistr dissertasiyaları onlayn resurslarda hər kəs üçün əlçatan olan antiplagiat proqramlarından keçirilir. Lakin LDU üçün müqavilə əsasında antiplagiat proqramı alınıb, tətbiq olunması məqsədəuyğun olardı.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

LDU-da hər semestrin sonunda 5 həftədən ibarət imtahan sessiyası təşkil olunur. İmtahan sessiyası “Kredit sistemi ilə təhsil alan tələbələrin fənnlər üzrə imtahanları” və ”Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında” Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1059 və 1060 saylı əmrləri, həmçinin “Ali təhsil müəsissələrinin bakalavriat və magistratura səviyyələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın tələblərinə uyğun təşkil olunur. Qeyd olunan qaydalar əsasında imtahan sessiyalarının təşkili haqqında Universitetin rektoru tərəfindən əmr imzalanır. LDU-nun daxili “İmtahan qaydaları” mövcuddur. İmtahanlar yazılı, bəzi spesifik fənnlərdə şifahi şəkildə təşkil olunur. İmtahan sessiyasında tələbələrin yazılı cavablarının kodlaşdırılması və yekun imtahan cədvəllərinin sistemə yerləşdirilməsi üçün Universitet əməkdaşlarından ibarət qruplar yaradılır. İmtahan otaqlarına nəzarətçi-koordinatorlar cəlb olunur. İmtahan sessiyasında tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək, yarana biləcək neqativ halları aradan qaldırmaq məqsədilə “İmtahan Qərargah” yaradılır. Sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıq və şikayətlərin mövcud qaydada araşdırılması üçün apellyasiya komissiyası yaradılır. Onu da qeyd etmək lazımdır ki, növbəti imtahan sessiyasında tələbələr əvvəldən qeydiyyatdan keçərək imtahan vaxtlarını özləri müəyyən edəcəklər.

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

LDU-da yay tətili müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın tələblərinə uyğun 6 həftədən ibarət yay məktəbi təşkil olunur. Akademik təqvimə uyğun olaraq yaz semestri başa çatdıqdan sonra 6 (altı) həftəlik yay semestri (nəzəri təlim və imtahanlar) nəzərdə tutulur. Yay semestrinin təşkili haqqında müvafiq əmr verilir (əmrlər təqdim olundu) və əmrdə yay semestrinə cavabdeh şəxslər təyin olunur. Yay semestrinə müəllimlər könüllü surətdə cəlb olunurlar. Bu zaman müəllimin fəaliyyətinin ödəniş məbləği saathesabı qaydada həyata keçirilir.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

LDU-da tədris illəri üzrə kredit borcu olan tələbələrin bakalavriatura və magistratura səviyyələrində təhlili göstərir ki, dinamika pandemiya ilini çıxmaq şərtilə artan istiqamətdədir.






*Qrafik 2: Kredit borcu olan tələbələrin sayının təhlili*

**3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası**

Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikasının təhlili göstərir ki, pandemiya ilini çıxmaq şərtilə dinamika artan istiqamətdədir.




*Qrafik 3: Kredit borcu yaranan fənlərin təhlili*

### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

LDU-da tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi istiqamətində monitorinq yalnız müəllimlərin qiymətləndirilməsi istiqamətində açıq dərslərin təşkil olunması ilə və kafedra müdirlərinin dərslərdə təsadüfi iştirakı ilə həyata keçirilir. Keyfiyyət təminatı şöbəsi tərəfindən təşkil olunmuş sorğunun təhlili tam aparılmamışdır. Sorğular mütəmadi xarakter daşımır.

## *3.4 Tədris metodları və üsulları*

### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

LDU-nun Özünütəhlil Hesabatında qeyd olunur ki, mühazirələrdə mütəmadi olaraq texniki və multimedia vasitələrindən istifadə olunmaqla tədris materialları cədvəllər, slaydlar və s. vasitəsilə təqdim edilir. Fakültələr üzrə sahə baxışı zamanı çox az faizdə tərdis otaqlarının proyektorla təmin edildiyi və dərslərdə innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadənin, öyrənmənin maraq və motivasiya yönümlü təşkili əsasən təmin olunduğu müşahidə edilmişdir.

### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

LDU-ya sahə səfəri çərçivəsində dərslərdə iştirak zamanı tədris metodlarında tələbəyönümlü, problemyönümlü, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyətinin qismən təmin oldunduğu müşahidə edilmişdir. Tələbələrlə görüş zamanı dərslərin daha çox nəzəri istiqamətdə keçirildiyi və onlar tərəfindən praktiki dərslərin daha çox keçirilməsi ilə bağlı istəklər bildirilmişdir.

### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

LDU-da tədris metodlarının bütün təhsil formaları üzrə tətbiqi əsasən təmin edilir.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

LDU-da müəllimlər tərəfindən tədris səviyyəllərindən asılı olaraq tədrisdə uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi həyata keçirilir, kafedralar tərəfindən mütəmadi yoxlama məqsədli açıq dərslərdə iştirak edilir və proses nəzarətdə saxlanılır. Lakin fakültələr üzrə sahə baxışı zamanı müəyyən edilmişdir ki, çox az faizdə tərdis otaqları proyektorla təmin edilmiş və dərslərdə innovativ, yaradıcı və interaktiv metod və

texnologiyalardan istifadənin qismən təmin olunduğu müşahidə edilmişdir. Kafedralarda magistratura və doktorantura səviyyələrində dissertasiya mövzularının seçimi mövzuların elmi-praktiki xüsusiyyətlərinə uyğun olaraq aparılır. Tələbənin fərdi xüsusiyyəti nəzərə alınması istiqamətində inkluziv təhsilə yönəlik II saylı tədris korpusunun birinci mərtəbəsində auditoriya (burada kitablar, brayl əlifbası və s lazımi avadanlıqlar var) mövcuddur.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

ATM-də tədris otaqları tədris prossesində aktiv öyrənməni inkişaf etdirəcək lazımi avadanlıqlarla (proyektorlar, kompüterlər) qismən təchiz olunmuşdur. Kafedra əməkdaşları ilə yerində söhbət zamanı bildirildi ki, aktiv öyrənməni təşviq edən texnoloji imkanları, yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni inkişaf etdirmək üçün kafedranın müəllimlərinin bu istiqamətli təlimlərə mütamadi cəlb edilməsi nəzərdə tutulmuşdur.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

LDU-da tərdis metod və üsullarının monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi istiqamətində Keyfiyyət təminatı şöbəsi tərəfindən 2021-2022-ci tədris ili ərzində kafedralar üzrə monitorinq aparılıb. Eyni zamanda şöbə tərəfindən kafedraların açıq dərslərində də 2021-2022-ci tədris ili ərzində monitorinqlər aparılmış, professor-müəllim heyətinin tətbiq etdiyi tədris metod və üsulları konkret meyarlar üzrə təhlil edilib və müvafiq ballarla qiymətləndirilmişdir. Cari tədris ilində aparılan monitorinqin nəticələri Elmi və Tədris Metodiki Şuranın 27 fevral 2023-cü il tarixli (protokol № 2) iclasında müzakirə edilərək müvafiq qərarlar qəbul edilmişdir.

## *3.5 Təlim və tədris resursları*

### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

LDU-da pandemiya dövründə onlayn tədrisin təşkili MS Teams proqramı üzərindən aparılmışdır. Universitetdə 2016-cı ildən Elektron Universitet

(https://e.lsu.edu.az/php/login.php) sistemi tətbiq edilir. Elektron Universitetdə funksional bölmələr aşağıdakılardır:

- Tələbənin şəxsi kabineti
- Müəllimlərin şəxsi kabineti
- Elektron imtahan cədvəli
- İmtahan cədvəli və nəticələr
- Help Desk(tələbələr üçün)
- Tələbə üzrə yekun nəticələr (dekanlıqlar üçün)
- Dekanlıqlar üçün (semestr üzrə imtahan sessiyasının hesabatlılığı)
- Qəbul
- Qəbul (SMS)

Tələbələr sistemə daxil olaraq şəxsi kabinetlərindən imtahan nəticələrini (kollokvium, imtahan qiymətləri) əldə edə bilirlər. 2022/2023-cü tədris ilinin yaz semestrindən başlayaraq tələbələr şəxsi kabinetlərindən final imtahanlarının tarixini sərbəst seçə bilirlər. Davamiyyət müəllimlər tərəfindən kağız jurnallarda aparılır və ayda bir dəfə (ayın sonu) olmaqla tyutorlar tərəfindən tələbənin elektron kabinetinə davamiyyət və kollokvium qiymətləri daxil edilir. Müəllimlər öz şəxsi elektron kabinetlərinə yalnız imtahan suallarını yerləşdirə bilir, qiymətləndirmə göstəricilərini daxil edə bilmirlər. Sistemin həm tələbə, həm də müəllimlər üçün daha çox funksiyalı istifadəsi üçün təkmilləşdirilməsi tövsiyyə edilir.

### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

LDU-da müsir təlim prossesinin təşkili üçün 7 ağıllı interaktiv lövhə, 17 ədəd proyektor, 45 ədəd çap avadanlığı və lokal şəbəkənin normal funksionallığını təmin etmək üçün şəbəkə avadanlığından istifadə olunur. Həmin avadanlıqdan əsasən dil dərslərinin tədrisində, informatika, fizika, kimya, biologiya, qida təhlükəsizliyi üzrə tədris laboratoriyalarında və müxtəlif fənn kabinetlərində geniş istifadə olunur. Ümumi nəticə olaraq tədris təşkil olunan 121 auditoriyadan 14 %- i proyektorla, 6 %-i ağıllı lövhə ilə təmin edilmişdir. Tədrisin keyfiyətinin effektivliyini artırmaq üçün auditoriyalarda proyektor, kompüter, ağıllı lövhələrlə təchizatın artırılması tövsiyyə edilir.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

ATM-də sahə baxışı çərçivəsində müəyyən olunmuşdur ki, LDU-da tədris laboratoriyaları və auditoriyalarında internetə çıxışı olan kompüterlərin sayı 121-dir. 7

kompüter laboratoriyası mövcuddur. Tələbə sayını nəzərə alaraq ATM üzrə kompüterlərin sayının artırılması tövsiyə olunur. Kompüterlərin internetə çıxışı qismən təmin edilmişdir.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

LDU-da ümümi auditoriya fondunun sahəsi 4496,08 kv.m. təşkil edir. Bakalavriat səviyyəsi, əyani təhsilalma forması üzrə dərslər 2 növbədə keçirilir. Auditoriya fondunun tələbə sayına nisbəti 4496,08 kv.m. / 5295 (tələbə) kimidir və bir tələbəyə 0, 85 kv m. sahə düşür.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

Son 5 il üzrə akademik və inzibati heyətin fəaliyyətini təmin edən otaq fondu 1555,79 kv.m-dən 1912,69 kv.m-ə qədər artırılmışdır.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

Tədris illəri üzrə LDU-da tələbə və akademik heyətin sayının artması ilə kitabxanadakı elektron və bilavasitə xidmət imkanları da artırılmışdır. Universitetin kitabxanasında demək olar ki, bütün ixtisaslar üzrə mövcud 562 ədəd kitab elektron kitabxana səhifəsində yerləşdirilmişdir. Bundan əlavə Universitet əməkdaşlıq çərçivəsində UNEC-in beynəlxalq bazalara çıxışından birgə istifadə edə bilir.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

Hazırda LDU Kitabxanasının kitab fondu 55856 nüsxə təşkil edir. Kitabxana fonduna daxil olan son altı ildə nəşr edilmiş (çap şəklində) dərslik və dərs vəsaitlərinin ümumi sayı 536 olmuşdur. 2020-ci ildə Universitetin kitabxana fondundan 1131 kitab silinmişdir. Qrafik 4-dən göründüyü kimi son beş ildə çap şəklində fonda daxil olan vəsaitlərin sayı 2019, 2020, 2021-ci illərdə artmış, 2022-ci ildə azalma müşahidə edilmişdir. Sahə baxışı zamanı müzakirələrdə azalmanın səbəbi elektron vəsaitlərə üstünlük verilməsi ilə əlaqələndirilmişdir.




*Qrafik 4: Kitabxana fonduna daxil olan dərslik və dərs vəsaitinin dinamikası*

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

LDU-da hazırda kitabxana fondunda rus dilində 10811, ingilis dili 1150, alman dili 56, fransız dili 73, ərəb dili 54, fars dili 49, türk dili 60, digər dillərdə isə 12 nüsxə ədəbiyyat mövcuddur. Özünütəhlil Hesabatında statistikaya əsasən son beş il üzrə qismən artım dinamikası müşahidə olunur. Kitab fondunun zənginləşdirilməsi tövsiyə edilir. Tədris dillərinə (azərbaycan, rus, ingilis türk və s.) uyğun kitab fondunun artım dinamikası qrafiki aşağıda verilmişdir. Qrafikdən də göründüyü kimi illər üzrə qismən artım müşahidə edilir.




*Qrafik 5: Kitab fondunun illər üzrə dinamikası*

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

LDU-da kitabxanaya yerində baxış zamanı beş il ərzində 112 nüsxə kitab alındığı bildirilmişdir. 12 nömrəli maliyyə təminatı cədvəlində son beş ildə kitabxanaya maliyyə ayrılmadığı qeyd edilmişdir. Özünütəhlildə LDU-da dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün hər il təsdiq olunan illik smetada 25000 manat məbləğində xərclərin ayrılması nəzərədə tutulması qeyd edilir. Kitabxana fondunun zənginləşdirilməsi tövsiyə edilir.

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

LDU-da yeni ixtisasların açılması və hər tədris ilində tələbə kontingentinin sayının artması rəqəmsal və ixtisas laboratoriyalarının yaradılması və bu laboratoriyaların yeni avadanlıqlarla təchiz olunması zərurətini yaradır. LDU-da ixtisas yönümlü tədris laboratoriyaları bazası zəngindir. 2018-ci ildə “Qida təhlükəsizliyi”, “Baytarlıq cərrahiyyəsi” və “Torpaqşünaslıq” kimi laboratoriyalar yaradılmış və həmin laboratoriyalar BioBase firmasının müasir avadanlıqları ilə təchiz olunmuşdur. 2017-ci ildən PASCO rəqəmsal avadanlıqları ilə təmin edilmiş virtual “Biologiya tədris laboratoriyası” və “Kimya tədris laboratoriyası” yaradılmışdır. 2019-cu ildə “NARGİS” fondunun və “SAMSUNG” firmasının dəstəyi ilə fakültədə Samsung planşetləri (11 ədəd), “ağıllı lövhə”, televizor və 3D formatlı telefonları (2 ədəd) ilə təmin olunmuş virtual laboratoriya yaradılmışdır. “İnformatika” laboratoriyası 2020-ci ildən ABŞ-ın USAİD fondunun hesabına müasir standartlara cavab verən son model kompüterlərlə (17 ədəd) və “ağıllı lövhələr”lə təchiz olunmuşdur. Tələbələrlə görüş zamanı səsləndirilən fikirlərə əsasən, onların laboratoriyalardan daha yaxından istifadəsi, praktik işlərə, müstəqil fəaliyyətə daha cox cəlb olunması tövsiyə olunur.

### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

LDU-da sağlamlıq imkanları məhdud şəxslər üçün 1 saylı tədris korpusunun pilləkənində pandus, lift mövcuddur. 2 saylı tədris korpusunun birinci mərtəbəsində sağlamlıq imkanları məhdud olan tələbələrə tədris üçün auditoriya (kitablar, brayl əlifbası və s lazımi avadanlıqlar) mövcuddur.

### 3.5.16 Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

LDU-da tələbələrin auditoriyadan kənar asudə vaxtlarını səmərəli keçirmək üçün tələbə klubları fəaliyyət göstərir. 1 saylı binada İdman zalı, İdman klubu otağı, 3 saylı korpusda süni örtüklü futbol meydançası mövcuddur. Tələbələrlə yerində görüş zamanı fəaliyyət göstərən klublarla bağlı məlumatlandırmanın zəif olduğu müşahidə olunmuşdur və bu istiqamətdə TEC, THT və TGT ilə ortaq işlərin görülməsi tövsiyə edilir.

### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

LDU-da psixoloji məsləhət xidməti mövcud deyil, yaradılması tövsiyyə olunur.

## *3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

LDU-da tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi zamanı “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə”nin tələblərinə Elmi Şuranın qərarı ilə müəyyən dəyişikliklər olunmuşdur. Belə ki, LDU-nun 29.01.2019-cu il tarixli Elmi Şurasının iclasının qərarına əsasən cari qiymətləndirmə zamanı dərslərə davamiyyətə və sərbəst işə ayrılan saatlar ləğv olunmuş, cari qiymətləndirmə zamanı 20 bal seminar (məşğələ), 30 bal kollokviumların nəticələrinə görə müəyyən olunmuşdur. Bu barədə ATM-in rektoru 01 fevral 2019-cu il tarixli əmr imzalamışdır. Aralıq qiymətləndirilmə rektorun müvafiq əmri qüvvəyə mindikdən sonra təşkil olunur. LDU-nun daxili “İmtahan qaydaları” mövcuddur və Komissiyaya bu Qaydaların bəndələri haqqında məlumat verilmişdir.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

3.6.1 bəndində qeyd olunduğu kimi LDU-nun Elmi Şurasının qərarı ilə cari qiymətləndirmə zamanı “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə”nin tələblərinə müəyyən dəyişikliklər olunmuşdur. Aralıq qiymətləndirmə zamanı balların hesablanması Əsasnamənin tələblərinə uyğundur. Aralıq qiymətləndirmə zamanı obyektivliyi və şəffaflığı təmin etmək məqsədilə “Operativ Qərargah” və Apellyasiya Komissiyası yaradılır. Tələbələr şikayət və təklifləri tyutorlar vasitəsilə dekana bildirə və rektorun elektron poçt ünvanına yaza bilirlər. Tələbələrlə görüşlər zamanı şəffaflığa şübhə yaradacaq halın mövcudluğu aşkarlanmadı.

### 3.6.3 Qiymətləndirmənin müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

LDU-da qiymətləndirmə biliyin qiymətləndirilməsinin çoxballı sistemi əsasında yazılı, bəzi spesifik və qabiliyyət tələb edən fənlərdə (əsas musiqi aləti, xor sinfi, drijorluq, tərcümə, proqramlaşdırma dilləri və s.) və sağlamlıq imkanları məhdud tələbələrin qiymətləndirilməsi şifahi formada təşkil olunur. Tələbə 50 bal imtahana qədər, 50 bal isə imtahan zamanı toplaya bilər. İmtahan zamanı 17 və daha çox bal toplayan tələbə müvəffəqiyyət qazanmış olur. Qiymətləndirmə meyarları sillabuslarda öz əksini tapır və tələbələrə təqdim olunur. Aralıq qiymətləndirmə zamanı tələbələr imtahan vaxtını əvvəldən qeydiyyatdan keçərək özləri

müəyyən edirlər. İmtahan zamanı imtahan biletini elektron bazadan götürərək çap edirlər. 3.6.1 bəndində də qeyd olunduğu kimi cari qiymətləndirmədə davamiyyətə və sərbəst işə verilən ballar ləğv olunmuşdur.

***Cədvəl 2. Hesabat dövrü imtahan sessiyalarının nəticələri***

**(bakalavriat səviyyəsi üzrə)**

| İllər | Semestrlər | Tələbə sayı (nəfər) | İmtahanda iştirak edənlər | | İmtahanları müvəffəqiyyətlə verənlər (nəfər) | | | | Müvəffəqiyyət göstəricisi | Keyfiyyət göstəricisi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | nəfər | faiz | cəmi | Əla | Əla, çox yaxşı və yaxşı | Qarışıq | | |
| 2017/2018 | Payız | 2762 | 2717 | 98,4% | 2135 | 7 | 377 | 1751 | 77,3% | 13,9% |
| | Yaz | 2226 | 2199 | 98,8% | 1634 | 8 | 347 | 1279 | 73,4% | 15,9% |
| 2018/2019 | Payız | 3184 | 3145 | 98,8% | 2335 | 17 | 460 | 1858 | 73,3% | 15,0% |
| | Yaz | 2569 | 2528 | 98,4% | 1810 | 18 | 373 | 1419 | 70,5% | 15,2% |
| 2019/2020 | Payız | 3711 | 3632 | 97,9% | 2583 | 13 | 495 | 2075 | 69,6% | 13,7% |
| | Yaz | 3021 | 2905 | 96,2% | 2855 | 29 | 732 | 2094 | 94,5% | 25,2% |
| 2020/2021 | Payız | 4180 | 4139 | 99,0% | 3892 | 13 | 925 | 2954 | 93,1% | 22,4% |
| | Yaz | 3387 | 3387 | 100,0% | 2754 | 3 | 754 | 1997 | 81,3% | 22,4% |
| 2021/2022 | Payız | 4619 | 4436 | 96,0% | 3195 | 8 | 595 | 2592 | 69,2% | 13,1% |
| | Yaz | 3702 | 3524 | 95,2% | 2418 | 6 | 505 | 1907 | 65,3% | 13,8% |

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşdırılmasına ehtiyac vardır. Bunun üçün interaktiv təlim metodlarına əsaslanan tədrisin təşkili daha da təkmilləşdirilməlidir. LDU-nun laboratoriya bazası zəngindir. Tələbələrin mütəmadi laboratoriyalardan istifadəyə, praktik işlərə, müstəqil fəaliyyətə daha cox cəlb olunması tövsiyə olunur.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

LDU-da qiymətləndirmə yazılı və şifahi formada həyata keçirilir. Yeni tətbiq olunan qaydalara əsasən (LDU-nun Elmi Şurasının 05 aprel 2023-cü il tarixli iclasının qərarı, protokol № 6) imtahanların vaxtının təyin olunmasında tələbələrə seçim hüququ verilib və tələbələr onlayn qaydada bu seçimdən istifadə edərək imtahan gününü və saatını müəyyən edirlər. Həmçinin tələbələr növbəti semestrlərdən etibarən imtahan biletlərini elektron bazadan götürmək imkanına malik olacaqlar.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

LDU-da sağlamlıq imkanları məhdud tələbələrin qiymətləndirilməsi şifahi formada aparılır. Bu qrupa daxil olan tələbə sayının azlığı (LDU-da sağlamlıq imkanları məhdud iki tələbə təhsil alır) ATM-də İnkluziv Təhsil Mərkəzinin yaradılmasına əsas vermir. Lakin gələcəkdə bu istiqamətdə işlərin görülməsi tövsiyə olunur.

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

Tələbənin biliyinin qiymətləndirilməsi (cari və aralıq) üçün keçirilən imtahanlar əsasən yazılı həyata keçirilir. LDU-da fənlərin spesifikası nəzərə alınaraq bir sıra fənlərdə (əsas musiqi aləti, xor sinfi, drijorluq, tərcümə, proqramlaşdırma dilləri və s.) qiymətləndirmə şifahi formada təşkil olunur. (LDU rektorunun 17 may 2023 cü il tarixli, 4/50 saylı əmri)

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

LDU-da Yekun Dövlət Qiymətləndirilmə bakalavriat səviyyəsində dövlət imtahanlarının, magistratura səviyyəsində magistr dissertasiyalarının müdafiəsinin təşkili formasında həyata keçirilir. Yekun Dövlət Qiymətləndirmə "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında, "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənmiş qaydalar əsasında təşkil olunur. Bu istiqamətdə Komissiyaya Elm və Təhsil Nazirliyinin, LDU-nun rektorunun müvafiq əmrləri təqdim olunmuşdur.

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

ATM-də bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması hər semestrin sonunda imtahan sessiyasının nəticələrinə dair tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektorun Elmi Şurada hesabatı formasında həyata keçirilir. Hesabat və müvafiq təkliflər müzakirə olunaraq qərar qəbul olunur. Sahə baxışı zamanı Elmi şuranın protokolundan çıxarış təqdim olunmuşdur (LDU, 28 fevral 2023 protokol №5).

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

Tələbələr və tyutorlarla görüş zamanı müəyyən olundu ki, təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri LDU-ya qəbul olan tələbələrlə məlumatlandırıcı görüş zamanı izah olunur. Tələbələrlə tyutorlar arasında mütəmadi kommunikasiya mövcuddur. Təhsil səviyyəsinin bitirilməsi qaydalarının əlçatanlığını təmin etmək məqsədi ilə LDU-nun rəsmi internet səhifəsində yerləşdirilməsi tövsiyə olunur.

#### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

LDU-da təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya normativ təhsil müddətində təhsilini başa vura bilməyən şəxslərə müvafiq arayışın verilməsi qanunvericiliyin tələblərinə uyğundur. Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsini Təhsil sənədləri ilə iş şöbəsi həyata keçirir.

### *3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

#### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

LDU-da rektorun 2 sentyabr 2019-cu il tarixli 1/68 nömrəli əmri ilə işə qəbul üçün beş üzvdən ibarət "Müsahibə komissiyası" yaradılmışdır. Özünütəhlil Hesabatında qeyd edilir ki, yüksəliş və digər vəzifəyə təyinat mexanizmi Azərbaycan Respublikasının Təhsil Nazirinin 7 avqust 1996-cı il, 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə" ilə tənzimlənir, Universitetin saytında, dövrü mətbuatda və kütləvi informasiya vasitələrində elan verilir. Lakin sahə baxışı zamanı Universitetin (http://lsu.edu.az/) rəsmi internet saytında vakant yerlərə qəbul ilə bağlı məlumata rast gəlinməmişdir.

#### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

#### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsi, interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqi məqsədilə Universitetin tərəfdaş olduğu qurumlar, universitetlər və onların koordinatorluq etdiyi layihələr çərçivəsində müxtəlif təlimlərə cəlb edilməsi ilə bağlı qeydlər vardır. Dərslərdə iştirak zamanı müəllimlərin interaktiv və aktiv tədris metodlarından qismən istifadəsi müşahidə olunmuşdur. Akademik heyətlə görüşdə də müzakirələr zamanı texnoloji səriştələrin yüksəldilməsi ilə bağlı təlimlərə ehtiyac olduğu bildirildi. Keyfiyyət təminatı şöbəsinin fakültə və

kafedralarla birgə akademik heyətin bu istiqamətdə bacarıqlarının inkişafı üçün sistematik təlimlər keçirməsi məqsədəuyğundur.

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

LDU-da akademik heyətin ixtisasartırma və digər təlim kurslarında iştirakı qismən təmin edilmişdir. Akademik heyətin öz sahələri üzrə bilik və bacarıqlarının artırılması istiqamətində ixtisasartırma və təlimlərdə mütəmadi iştirakı və cəlb olunması tədrisin keyfiyyətinin yüksəldilməsinə şərait yaradacaqdır.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

LDU-nun Özünütəhlil Hesabatında bu indikator üzrə tədbirlər nəzərdə tutulduğu, lakin pandemiyanın baş verməsi nəticəsində həmin tədbirlərin icrasını həyata keçirmək mümkün olmadığı qeyd edilmişdir. Lakin ATM-ə sahə baxışı çərçivəsində akademik heyətlə görüş zamanı professor-müəllim heyətinin son beş ildə beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında qismən (Erasmus +, ECAR) iştirakı müəyyən edilmişdir.

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

LDU-da akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarını monitorinq etmək üçün Universitet üzrə yaradılmış komissiya və kafedra müdirlərinin iştirakı ilə mütəmadi açıq dərslərdə iştirak edilir, açıq dərslərin nəticəsi kafedra daxili iclasda müzakirə edilərək protokollaşdırılır. Protokol nüsxələri barədə Komissiya üzvləri məlumatlandırılmışdır.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

LDU-da professor-müəllim heyətinin dərs yükünün bölgüsü “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Təhsil Nazirinin 04.02.2011-ci il tarixli 194 saylı əmri nəzərə alınmaqla aparılır, normativlərə uyğundur və şəffaflıq təmin edilir.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

Lənkəran Dövlət Universitetində fakültələr üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti aşağıdakı kimidir:

1. Təbiyyat - 45/979
2. Aqrar və mühəndislik - 52/1218
3. Filologiya və ibtidai təhsil - 46/984
4. Tarix-coğrafiya və incəsənət - 56/901
5. İqtisadiyyat və idarəetmə - 32/1213

Statistikaya əsasən nisbət 1/20, 1/24, 1/21, 1/18, 1/37 kimidir. Professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti indikatorda tələb olunan nisbətə qismən uyğundur.

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

LDU-da tədrisə cəlb olunan 231 professor-müəllim heyətindən 171 (74%) nəfərin əsas iş yeri ATM-dir. Bu indikator üzrə göstəricilər təmin edilmişdir.

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

LDU-ya sahə baxışı çərçivəsində müəyyən ixtisaslarda (əsasən Mühəndislik, Baytarlıq təbabəti) kənardan professor-müəllim heyətinin cəlbi zəruriliyi müəyyən edilmişdir. LDU-da bu indikator üzrə göstəricilərin yaxşılaşdırılması üçün kənardan (əsasən Türkiyə) həm yerli, həm də əcnəbi mütəxəssislərin tədris prossesinə cəlbi mütəmadi xarakter daşıyır.

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

LDU-da hal-hazırda differensiallaşdırılmış əməkhaqqı sistemi mövcud deyil. Sahə səfəri çərçivəsində Universitet rəhbərliyi ilə müsahibə zamanı bildirildi ki, bu istiqamət üzrə hazırda mexanizim işlənilmişdir və növbəti tədris ilində tətbiqi nəzərdə tutulur.

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

LDU-da hazırda xarici ölkələrin nüfuzlu təhsil müəssisələrindən məzun olmuş üç müəllim (biologiya, iqtisadiyyat, coğrafiya istiqaməti üzrə) fəaliyyət göstərir. Bu istiqamət üzrə işlərin səmərəli təşkil edilməsi tövsiyyə edilir.

## *3.8 Tələbəyönümlü tədris*

### 3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

LDU-da tələbələrlə müsahibə zamanı məlum oldu ki, tələbələr fərdi tədris planının (FTP) işlənməsində qismən iştirak edirlər. Bəzilərinin isə bundan xəbəri yoxdur. Tələbələrin fərdi tədris planlarının işlənməsində iştirakının təmin olunması və FTP tərtib edilərkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında” qanunun (https://e-qanun.az/framework/27030) tələblərinə uyğun olaraq FTP-nin bir nüsxəsinin təhsilalanlara təqdim edilməsi tövsiyə olunur.

### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

LDU-da tələbələrin ixtisas üzrə təklif olunan seçmə fənlərin seçilməsində sərbəstliyi təmin olunmuşdur. Seçim zamanı tələbələr onlara təqdim olunan xüsusi blanklarda fənni seçir və təsdiq edirlər. Seçmə fənlərin seçimində təklif olunan fənlərin tədris semestri başlamazdan əvvəl müəllimlər tərəfindən təqdimatının keçirilməsi məqsədəuyğun olardı.

### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

LDU-da təhsilverənlər və akademik məsləhətçilərin tələbələr tərəfindən seçim sərbəstliyi mövcud deyil. Təhsilverənlərin və akademik məsləhətçilərin təhsilalanlar tərəfindən seçim sərbəstliyinin Bolonya prinsipinə uyğun olaraq təmin olunması tövsiyə edilir.

### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

LDU-da məzunlar arasında sorğu keçirilməmişdir. Hesabat dövründə tələbələrlə iki dəfə sorğu keçirilmişdir. Sorğuların keçirilməsi intensiv xarakter daşımır. Sorğuların təhlili tam aparılmamışdır.

Tələbə və məzunlarla sorğuların keçirilməsi, nəticələrinin təhlili istiqamətində işləri daha da təkmilləşdirmək məqsədəuyğun olardı.

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektorla müsahibə zamanı müəyyən olunmuşdur ki, LDU-da tələbələrin təklifləri əsasında imtahan saatı artırılmış, kollokviumların sayı azaldılmışdır. Bu haqda Elmi şuranın müvafiq qərarı mövcuddur. İnkişaf dinamikası haqqında hər hansı sənəd mövcud deyil.

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

LDU-da tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti əsasən qənaətbəxşdir. Tələbələr rəy və təkliflərini əsasən tyutor, dekan vasitəsilə ötürürlər. Rektorla görüş zamanı bildirildi ki, tələbələrin rektorun şəxsi elektron poşt ünvanına da rəy və təkliflərini bildirmək imkanı var. Bundan əlavə rektorun şifahi məlumatına əsasən bildirmək olar ki, rəhbər şəxs həftənin müxtəlif günləri, müxtəlif saylı tədris binalarında tələbələrlə görüşür və təhsilalanların təkliflərinin operativ baxılması və icrasına göstərişlər verir.

Bütün bunları nəzərə alaraq tələbə rəylərinin alınması istiqamətində işlərin gücləndirilməsi üçün sorğuların mütəmadi keçirilməsi məqsədəuyğun olardı.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

Təhsilalanların müxtəlif növ müraciətlərini nəzərdən keçirmək üçün Universitetin fakültə tyutorları tərəfindən onlayn qruplar yaradılmışdır. Orada tələbələrin şikayət və təklifləri qeydə alınır və dekan müavini, dekana ötürülür.

Tələbələrin şəxsi kabinetində dekanlığa elektron müraciət formasının açılması və ya Universitetin saytında şikayət və təklif bölməsinin yaradılması məqsədəuyğundur.

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

LDU-da Tədrisin təşkili və təlim exnologiyaları mərkəzi daxilində tyutor fəaliyyəti mövcuddur. Tələbələrin kredit sistemi ilə bağlı maarifləndirilməsi, onlara akademik məsləhətlərin verilməsi üçün hər fakültə üzrə ayrı-ayrı tyutorlar xidmət göstərirlər. Universitetdə ümumilikdə 4 dəfə tyutor kursu təşkil olunmuş və bu kursun keçirilməsi ilə bağlı mütəxəssislər dəvət olunmuşdur. Tyutor kursunda müsahibədə uğur qazanmış namizədlər iştirak etmişlər.
Kursun sonunda imtahanlar təşkil olunmuş və müvəffəq bal toplayan namizədlər Universitetdə tyutor vəzifəsində çalışmağa başlamışlar. Tyutorlar tələbələrin tədris olunacaq fənlərinin seçimində, tələbələrin akademik borclarını ləğv etməsində və digər akademik problemlərinin həllində onlara yaxından köməklik göstərirlər. Tyutorluq kursu LDU-nun rektorunun 10 iyul 2017-ci il tarixli 3/67 saylı əmri əsasında təşkil olunmuşdur. Bundan əlavə tyutor hazırlığı kursuna seçimlərin aparılması üçün komissiya fəaliyyət göstərir (LDU, 06 iyul 2022-ci il tarixli 4/64 saylı əmr). Elmi Şuranın 12 iyul 2016 -cı il tarixli iclasının qərarı ilə təsdiq olunmuş “Tyutor hazırlığı təlimi” barədə qaydaları təsdiq olunmuşdur.

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında kommunikasiya mobil telefon, WhatsApp proqramı və elektron poçt ünvanı vasitəsilə həyata keçirilir.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

LDU-da sağlamlıq imkanları məhdud şəxslər üçün 1 və 2 saylı tədris korpusunun pilləkənlərində panduslar, 2 saylı tədris korpusunda sağlamlıq imkanları məhdud tələbələr

üçün lift mövcuddur. 2 saylı tədris korpusunun birinci mərtəbəsində sağlamlıq imkanları məhdud olan tələbələrə dərslərin tədris olunması üçün auditoriya mövcuddur.

#### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

LDU-nun Elmi Şurasının 11 may 2023-cü il tarixli iclasının qərarına (protokol №7) əsasən ATM-də təhsil alan şəhid ailələri üzvləri illik təhsil haqqı xərclərindən və müharibə iştirakçıları akademik borca görə 2020/2021, 2021/2022, 2022/2023-cü tədris illərində yaranan təhsil haqqı borclarından azad olunmuşlar.

#### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

LDU-nun Həmkarlar İttifaqı Komitəsinin 06 mart 2023-cü il tarixli iclasının qərarına əsasən 2 tələbə Təhsil İşçiləri Həmkarlar İttifaqı Komitəsinin təsis etdiyi “Adlı təqaüd”ə layiq görülmüşdür.

Təhsilalanların motivasiyasının artırılması istiqamətində Universitetin daxili imkanları hesabına tanınmış şəxslərin adına “Adlı təqaüd” təsis edilməsi məqsədəuyğun hesab edilə bilər.

### *3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

#### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

#### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

LDU-da təhsil proqramlarının monitorinqi üzrə strategiya sənədi və fəaliyyət planı mövcud deyil. Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektorun təqdim etdiyi arayışa əsasən təhsil standartlarına uyğun hazırlanmış tədris planları əsasında tədris olunan fənlərin monitorinqi keçirilir. Bu istiqamətdə komissiyanın yaradılması haqda Elmi Şuranın qərarı mövcuddur (LDU, 28 fevral 2023, protokol №5). Monitorinq sillabusların kompetensiyalara uyğun hazırlanmasının yoxlanılması, fənlərin kompetensiyalara uyğun tədris olunmasının yoxlanılması formasında təşkil olunur. Eyni zamanda “açıq dərs”lər formasında müəllimlərin dərsləri dinlənilir və qiymətləndirilir.

#### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

#### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

Təhsil proqramlarının monitorinqi Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektorun sillabusların kompetensiyalara uyğun hazırlanmasının yoxlanılmasının nəticələri, fənnlərin kompetensiyalara uyğun tədris olunmasının yoxlanılmasının nəticələri, açıq dərslərin

nəticələri, imtahan sessiyalarının nəticələri barədə Elmi Şurada hesabatı formasında təqdim olunur. Hesabat barədə Komissiyaya məlumat verilmiş və təqdim olunmuşdur.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

LDU-da bakalavriat və magistratura səviyyələrində tədris planları Elmi Şuranın 05 sentyabr 2019-cu il tarixli (protokol №1) iclasının qərarı ilə yenilənmişdir. Yeni təhsil proqramlarının hazırlanması ilə əlaqədar AR Elm və Təhsil Nazirinin 2020-ci il 11 mart tarixli, F-172 nömrəli əmri ilə təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi üçün 14 sentyabr 2020-ci il tarixli (protokol №2) iclasının qərarı ilə yeni tədris planları təsdiq olunmuşdur.

## *3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında da qeyd oldunduğu kimi LDU-da Karyera mərkəzi ayrıca deyil, Tədrisin təşkili və təlim texnologiyalarının tətbiqi şöbəsinin daxilində “Təcrübə, potensial inkişaf və karyera bölməsi” kimi fəaliyyət göstərir.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

ATM-də ayrıca Karyera mərkəzinin olmaması səbəbindən tələbələrə mütəmadi olaraq karyera məsləhətlərinin verilməsi ilə bağlı hesabatlar mövcud deyildir. Tələbələrin karyera ilə bağlı müraciətləri (şifahi, onlayn) fərdi və qrup şəklində cavablandırılır. Sahə baxışı zamanı müvafiq struktur bölmə ilə görüş və müzakirələr əsasında karyera ilə bağlı məsləhətlərin daha səmərəli göstərilməsi üçün fəaliyyətlərin gücləndirilməsi istiqamətində işlərin aparılması nəzərdə tutulduğu bildirilmişdir.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

LDU-da hər il mütəmadi olaraq məzun yarmarkaları təşkil edilir. Regionda yerləşməsinə, əmək bazarı nümayəndələrinin zəif marağına baxmayaraq təşkil edilən yarmarkalara işəgötürənlərin və məzunların cəlb edilməsi təmin edilir. Dövlət Məşğulluq Agentliyi və müvafiq dövlət qurumları ilə yaxın əməkdaşlıq edilir. Həmçinin mövcud ixtisaslar üzrə tələbələrin pedaqoji və istehsalat təcrübələri təşkil edilir və müvafiq təcrübə sənədləri kafedralarda saxlanılır.

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

LDU-da Tədrisin təşkili və təlim texnologiyalarının tətbiqi şöbəsinin “Təcrübə, potensial inkişaf və karyera bölməsi”ndə “Tələbə məmnuniyyət sorğusu” anketi mövcuddur. Lakin sahə baxışı zamanı müzakirələr əsasında bildiririlmişdir ki, hesabat dövründə keçirilmiş

məmnuniyyət sorğularının kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilməsinin aparılması üçün toplanmış məlumat bazası təqdim edilmədiyindən müvafiq dinamikanın izlənilməsi mümkün olmamışdır.

#### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

LDU-da hal-hazırda Tədrisin təşkili və təlim texnologiyalarının tətbiqi şöbəsinin "Təcrübə, potensial inkişaf və karyera bölməsi" Universiteti 2016-2022-ci illər ərzində bitirmiş məzunların məlumat bazasını toplamaqdadır. Bununla bağlı müvafiq olaraq Universitet tərəfindən Dövlət Məşğulluq Agentliyinə 10.05.2023-cü il tarixli 2/134 nömrəli məktub ünvanlanmış və Universiteti 2017-2022-ci illər ərzində bitirmiş məzunların cari məşğulluq vəziyyətinin araşdırılması və müvafiq məlumatların Universitetlə paylaşılması istənilmişdir. Cari mövzuya cavab olaraq DMA Universitetə 18.05.2023-cü il tarixli 3-172/2-34418/208 nömrəli məktubla müvafiq məlumatları təqdim etmişdir. Universitetdə keçirilmiş sahə baxışı zamanı müəyyən edilmişdir ki, müvafiq məlumatlar əsasında məzunlarla davamlı əlaqələrin qurulması və universitet-məzun əlaqələrinin inkişaf etdirilməsi istiqamətində fəaliyyət davam etdirilir.

## 4. ELMİ TƏDQİQAT

### 4.1 Elmi-tədqiqat strategiyası

#### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

LDU-da ayrıca olaraq elmi-tədqiqat strategiyası sənədi mövcud deyil. Lakin Universitetin 2030-cu ilə qədər dövrü üçün hazırlanmış SİP-in içərisində elmi-tədqiqat məsələsi öz əksini tapmışdır. Sənəddə yer alan məlumatlara istinadən demək olar ki, 2030-cu ilə qədər LDU-da tədqiqat universiteti modeli formalaşmalıdır.

Bu modeldə elmi tədqiqatlar professor-müəllim heyətinin fəaliyyətinin ayrılmaz tərkib hissəsi deyil, eyni zamanda vahid sosial-iqtisadi sistem kimi Universitetin fundamental əsasını təşkil edir. Tədqiqat universiteti modelində təhsil prosesi fundamental və tətbiqi elmi tədqiqatların, eləcə də innovativ texnologiyaların inteqrasiyası əsasında bilavasitə elmi, maliyyə-iqtisadi və istehsal fəaliyyəti ilə müşahidə edilir. Elm və praktiki fəaliyyətin nəticələrinin bilavasitə tədris prosesinə tətbiqi təhsilalanların elmi-tədqiqat işlərinə cəlb edilməsi, elmin imicinin və populyarlığının yüksəldilməsinə kömək edir.

#### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

SİP-ə görə LDU-nun missiyası–regionun, dövlətin və vətəndaş cəmiyyətinin maraqları naminə tələbələrin, professor-müəllim heyətinin və əməkdaşların peşəkar-şəxsi keyfiyyətlərinin yaxşılaşdırılması və inkişafı üçün əlverişli açıq məkanı formalaşdırmaqdan ibarətdir. Bu missiyanı həyata keçirmək üçün SİP-də aşağıdakı məqsədlər nəzərdə tutulmuşdur:

1. Kadr potensialının idarəetmə sisteminin modernləşdirilməsi və inkişafı;

2. Kadr hazırlığı sisteminin transformasiyası;
3. Universitet imicinin formalaşdırılması və struktur baxımdan marketinq qərarları hesabına maliyyə gəlirlərinin artırılması;
4. Sosial və vətəndaş məsuliyyətinin formalaşması üçün optimal şəraitin yaradılması;
5. Universitetin dayanıqlı inkişafının iqtisadi təminatı.

Elmi-tədqiqat strategiyası hissəsində isə Lənkəran–Astara iqtisadi rayonunun inkişafına töhfə verə bilən elmi tədqiqatlar və innovativ işləmələrin inkişaf etdirilməsi, nəticələrin məhsuldarlığının yüksəldilməsi, regional iqtisadiyyatın ayrı-ayrı sahələrində, təbiətdən rasional istifadə sferasında innovativ və elmtutumlu texnologiyaların işlənib hazırlanması və reallaşdırılması; təhsil-elm-istehsal üçbucağının inteqrasiyasına nail olunması və bu əsasda elmtutumlu texnologiyalardan istifadə imkanlarının genişləndirilməsi, təhsil və elm-texniki sferada təhsilin innovativ tsikliliyinin inkişaf etdirilməsi; elm, texnika və texnologiyanın prioritet sahələrində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, elmi-texniki əməkdaşlıq haqqında müqavilə çərçivəsində fundamental tədqiqatların, həmçinin müxtəlif istiqamətlər üzrə birgə elmi tədqiqatların spektrinin genişləndirilməsi; mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsi üçün Universitetin elmi potensiyalından maksimum istifadə edilməsi kimi məsələlər nəzərdə tutulmuşdur.

### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

LDU-nun SİP-dəki elmi-tədqiqat hissəsində aşağıdakı strateji məqsəd və vəzifələri nəzərdə tutulmuşdur:

Universitetin elmi potensialından mütəxəssis hazırlığının keyfiyyətini yüksəltmək üçün maksimum istifadə edilməsi; Universitetin elmi fəaliyyətinin rəqabətqabiliyyətliliyinin təmin edilməsi; Universitetin elmi fəaliyyətinin respublikanın və Lənkəran - Astara iqtisadi rayonunun innovativ inkişaf amilinə çevrilməsi; mütəxəssis hazırlığının bütün mərhələlərində elmi-tədqiqat işlərinin yerinə yetirilməsi ilə tədris prinsiplərinin reallaşdırılması; beynəlxalq, regional və ölkə səviyyəsində innovativ - elmi proqramlar və layihələrin reallaşmasında aktiv iştirak edilməsi; elm və texnologiyaların prioritet inkişaf istiqamətləri üzrə tətbiq xarakterli elmi tədqiqatların spektrinin genişləndirilməsi; professor-müəllim heyətinin, tələbə və magistrantların, dissertant və doktorantların elmi tədqiqatlara cəlb edilməsi ilə onları tədqiqat işləri aparmağa həvəsləndirən mexanizmin təkmilləşdirilməsi; əksər elmi tədqiqatların nəticələrini əmtəəlik məhsul kimi kommersiyalaşdırılması; intellektual mülkiyyət hüququnun qorunması və informasiya təhlükəsizliyinin təmin edilməsi mexanizminin inkişaf etdirilməsi;

### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

ATM-də elmi-tədqiqat strategiyası sənədi mövcud deyil. SİP-də isə Elmi – tədqiqat və innovasiya fəaliyyətinin prioritet istiqamətləri aşağıdakı kimi qeyd edilib:

Tələbələri konkret peşəkar fəaliyyət kompetensiyalarına uyğun tədqiqat qrupları tərəfindən aparılan və laboratoriyalarda yerinə yetirilən işlərə cəlb etməklə bakalavr və magistr proqramlarının mənimsənilməsi; Universitetdə aparıcı elmi məktəbin yaradılması və inkişaf etdirilməsi; elmi - tədqiqatların maddi - texniki bazasının inkişaf etdirilməsi; beynəlxalq elmi proqramlarda, təcrübələrdə və mütəxəssis mübadiləsində iştirak etməklə xarici ölkələrin qabaqcıl elmi təcrübəsinin mənimsənilməsi; Universitetin professor-müəllim heyəti, tələbələr, magistrantlar və müvafiq struktur bölmələri tərəfindən aparılan tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması ilə əlaqədar fəaliyyətin hərtərəfli müdafiə edilməsi; tələbə və magistrantların təhsil prosesində əldə etdikləri fundamental elmi biliklərin praktiki reallaşması üçün onların tətbiqi xarakterli tədqiqatlarda iştirakının aktivləşdirilməsi və s.

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

LDU-nun elmi-tədqiqat və innovasiya fəaliyyəti aşağıdakı prinsiplərə əsaslanır: Praktikayönümlü tədqiqatların və ekspert - analitik işlərin prioritet inkişafı; aktual elmi tədqiqatların aparılması, hakimiyyət orqanları və biznes subyektlərinin sifarişləri əsasında layihələrin yerinə yetirilməsi istiqamətində elmi-pedoqoji məktəbin formalaşdırılması və inkişafı; tələbə, magistrant, doktorant və dissertantların, eləcə də peşəkar təhsil proqramları ilə təhsil alanların elmi - tədqiqat işlərinə cəlb edilməsi; elm, biznes və təhsilin inteqrasiyası və bu əsasda büdcədənkənar maliyyə mənbələri hesabına yerinə yetirilən ETİ-nin həcminin artırılması. Univesitetin elmi-tədqiqat işlərinin tematikası respublikanın və regionun cari və perspektiv tələbinə istiqamətlənmişdir.

### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

LDU-da professor-müəllim heyətinin heç də hamısı elmi tədqiqatla məşğul olmur. SİP-in elmi-tədqiqat hissəsində 2030-cu ilə qədər professor - müəllim heyətinin 60% - dən çoxunun elmi - tədqiqat işlərində aktiv iştirakının təmin edilməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda müxtəlif maliyyələşmə mənbələri (məsələn, ABŞ-nın Fulbrayt, Almaniya, Turkiyə, Monqolustan və KXR-nın universitetlərinin akademik mübadilə proqramlarında iştirak etmək) hesabına beynəlxalq elmi - tədqiqat işlərinin həcminin artırılması, LDU-nun alimləri tərəfindən Web of Science və Scopus məlumatlar bazasında indeksləşdirilən resenziyalı beynəlxalq jurnallarda hər 100 müəllimə 10 ədəd hesabı ilə nəşrlərin sayının artırılması nəzərdə tutulmuşdur.

### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

ATM-in ÖTH-da bu məsələ mücərrəd fikirlərlə izah olunub. Yerində baxış zamanı sənədin saytda yerləşdirilmədiyi, lakin sənəd haqqında professor-müəllim heyətinin məlumatlı olduğu müəyyən edildi.

Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığının təmin olunması məqsədilə sənədin Universitetin rəsmi internet saytında yerləşdirilməsi tövsiyə olunur

### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında qeyd edilib ki, Universitetin elmi-tədqiqat strategiyasının hazırlanmasında bölgədə fəaliyyət göstərən elmi təşkilatlar, xüsusilə aqrar sektor fəaliyyəti göstərən mərkəzlərin, eləcə də ikili elmi tədqiqat əlaqənin olduğu respublika-beynəlxalq səviyyəli təşkilatlarla maraqlı tərəf qismində fikir mübadiləsi aparılmışdır. Yerində baxış zamanı təsdiqedici sənəd təqdim edilməmişdir.

## *4.2 Tədqiqat resursları*

### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

Hesabat dövründə LDU-nun büdcəsindən elmi tədqiqat üçün vəsait ayrılmamışdır. ÖTH-da qeyd olunduğu kimi LDU-nun maliyyə təminatı əsasən ödənişli əsaslarla təhsil alan tələbələrin təhsil haqqı hesabına formalaşır. Daxil olmuş gəlirlər Universitetin maddi-texniki bazasının, infrastrukturunun güclənməsinə və kadr potensialının inkişafına sərf olunur. Son 5 ildə 3 tədris korpusu, kitabxana, turizm tədris bazası, yataqxana, müəllimlər üçün xidməti evlər və s. tikilib istifadəyə verilməsi və laboratoriyaların alınması Universitetin infrastrukturunun və maddi-texniki bazasının yüksəlməsinə səbəb olmuşdur.

### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Lənkəran Dövlət Universitetində professor-müəllim heyətindən 113 nəfəri hal-hazırda aktiv elmi tədqiqatla məşğul olur. Qeyd etmək lazımdır ki, Elmi işlər üzrə prorektorun bildirdiyinə görə LDU-da ştat və 0.5 ştat işləyən müəllimlərin sayı 231 nəfərdir.

### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

Lənkəran Dövlət Universitetində Tələbə Elmi Cəmiyyəti və hər fakültə üzrə Tələbə Elmi Tədqiqat Mərkəzində (TETD) mütəmadi olaraq elmi tədqiqat işinin aparılması ilə bağlı öyrədici seminarlar keçirilir. Hər ay nəzərdə tutulan seminarlarda müəyyən mövzularda tələbələrə elmi dərəcəli müəllimlər tərəfindən təlimlər təşkil olunur. Bu təlim-seminarların əsas məqsədi tələbələrdə elmi tezislərin hazırlanması və təqdimatı bacarıqlarını formalaşdırmaqdır. Həmçinin Universitet konfransları keçirilir. TEC üzvləri tələbə və gənc alimlər, rəhbərlər isə doktorant və dissertantlardır.

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

Lənkəran Dövlət Universitetinin professor-müəllim heyətinin böyük əksəriyyəti google scholar, Web of Science, Scopus, Research Gate, ORCİD elmi məlumat bazalarından qeydiyyatdan keçmişdir.

### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

Lənkəran Dövlət Universitetində nəticəyönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün diferensial əməkhaqqı sisteminin tətbiq olunması nəzərdə tutulur. Bundan başqa Respublika daxili və Beynəlxalq səviyyəli ikili elmi-tədqiqat əlaqələri həyata keçirilir. Web of Science, Scopus üçün məqalə hazırlayan pedaqoji heyətin tədqiqat aparması üçün maliyyə xərclərini Universitet qarşılayır.

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

Elmi-tədqiqat kommersiyalaşması ilə bağlı olaraq LDU-da layihə tədbirləri hazırlanır. Bunun üçün müəssisələrlə danışıqlar aparılır. Hesabat dövründə heç bir gəlir əldə edilməmişdir.

### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

LDU-nun tədqiqatçılarının tədqiqatlar aparması məqsədilə Respublikanın və xarici ali təhsil və elmi-tədqiqat müəsisələri ilə 2017-2022-ci illərdə 39 müqavilə imzalanmışdır. Bu müqavilələrdən 21-i xarici ölkələrin ali təhsil və elmi-tədqiqat müəsisələri ilə olmuşdur. Bu müqavilələr imkan verir ki, tədqiqatçılar digər elmi müəssisələrlə əməkdaşlıq şəklində tədqiqat aparsınlar.

Sənədlərlə tanışlıq zamanı Rusiyanın, Türkiyənin, Polşanın və s ölkələrin universitetləri ilə müqavilələrin movcud olduğu aşkar edilmişdir.

## *4.3 Elmi-tədqiqat fəaliyyəti*

### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

Lənkəran Dövlət Universitetində elmi-tədqiqat fəaliyyətinin idarə edilməsindən ötrü Elm və tədqiqat işləri şöbəsi fəaliyyət göstərir. Burada Universitetin və ölkənin inkişaf strategiyası nəzərə alınmaqla elmi-tədqiqat fəaliyyətinin illik və 5 illik planları tərtib olunur. Tədqiqatçılar bu plana uyğun olaraq elmi-tədqiqat işlərini aparır və hər ilin sonunda hesabat verirlər. Verilən hesabatlar əsasında Elm və tədqiqat işləri şöbəsində “Universitetin elmi-fəaliyyəti haqqında hesabat”ı hazırlanır və Elm və Təhsil Nazirliyinə təqdim edilir. Qeyd etmək lazımdır ki, şöbənin Əsasnaməsi 2016-cı ildə Elm və beynəlxalq əlaqələr şöbəsi üçün təsdiq edilmişdir. Şöbənin

adında dəyişiklik olduğundan Əsasnamənin də dəyişməsi tövsiyə olunur. Şöbənin illik iş planı mövcuddur. Bundan əlavə hər il üçün kafedraların elmi-tədqiqat planları toplanır və ümumi universitet planı hazırlanır.

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

2017-2022-ci illərdə Universitetdə 9 beynəlxalq (Qeyri-müəyyənliklər şəraitində qərarların qəbul edilməsi problemləri – PDMU-2022 adlı XXXI beynəlxalq konfrans, Şeyx Zahid Gilaninin 800 illik yubileyi münasibəti ilə beynəlxalq simpozium, “Azərbaycan yeni inkişaf mərhələsində- qloballaşma və postpandemiya dövründə ərzaq və qida təhlükəsizliyi; müasir vəziyyət, çağırışlar, perspektivlər”, “Aqrar sektorda innovativ texnologiyaların inkişaf perspektivləri” və s), 12 respublika və 3 Universitet daxili konfrans keçirilmişdir.

Universitetdə professor-müəllim, magistrant və doktorantların iştirakından əlavə Tələbə Elmi Cəmiyyətinin üzvü olan tələbələr üçün də konfranslar təşkil edilir. Konfrans materialları çap edilir.

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

ATM-də keçirilən elmi konfranslara ölkənin digər ali təhsil müəssisələrinin tədqiqatçıları rəsmi şəkildə dəvət olunur və onların konfranslarda iştirakı üçün şərait yaradılır. Yalnız 2022-ci ildə keçirilən beynəlxalq konfranslarda 39 müxtəlif xarici ölkədən tədqiqatçılar məruzələrlə çıxışlar etmişdirlər. Ölkə daxilində isə 36 müəssisənin tədqiqatçıları konfransda iştirak etmişlər.

### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

Tələbələrin elmi-tədqiqat işinin təşkilini əsasən Tələbə Elmi Cəmiyyəti həyata keçirir. Universitetdə Tələbə Elmi Cəmiyyətinin konfransı hər il mütəmadi olaraq təşkil olunur (pandemiya dönəmində bu mümkün olmamışdır). Keçirilən hər konfransın işində yüzlərcə gənc tələbə-tədqiqatçılar iştirak edir və elmi nəşrləri konfrans materiallarında çap olunur. TEC üzvləri yalnız respublika konfranslarında iştirak edirlər.

### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

LDU tərəfindən davamlı olaraq qrant layihələri təqdim edilsə də yalnız 1 beynəlxalq qrant layihəsi qazanmaq mümkün olmuşdur. 2017-ci ildə “əlilliyi olan şəxslərin ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması” layihəsi, eyni zamanda 2020-ci il “AR-nın Təhsil Nazirliyinin “ali və orta ixtisas təhsilinin 2021/2022-ci illər üzrə inkişafı qrantı” çərçivəsində “Çay və sitrus bitkilərinin istehsal texnologiyasının istifadə strukturunun emal və saxlama proseslərinin optimallaşdırılması və onun universitetin elmi və təhsil potensialının artırılmasına təsiri” adlı layihə qrant layihəsi qazanmışdır.

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

LDU tərəfindən patentlərin əldə edilməsi və mövcud potensialın stimullaşdırılması istiqamətində işlər həyata keçirilir. Görülən işlərin intensivləşdirilməsi tövsiyə olunur.

### 4.3.7 İnstitutsional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

Milli və beynəlxalq təşkilatlarla 2017-2022-ci illərdə 39 müqavilə imzalanmışdır. Bu müqavilələrdə birgə tədqiqatların aparılması və bigə proqramların həyata keçirilməsi də xüsusi yer almışdır. Universitet birgə elmi tədqiqatlar aparılması məsələsinə xüsusi önəm verir və növbəti illərdə bu yönümdə fəaliyyəti gücləndirməyi nəzərdə tutur.

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

ATM tərəfindən təqdim olunmuş sənədlərdə hesabat dövrü üzrə 2017-2022-ci illərdə imzalanmış 39 müqavilələrdən 21-i xarici ölkələrin ali təhsil və elmi-tədqiqat müəsisələri ilə olduğu əks olunmuşdur.

### 4.3.9 Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

Lənkəran Dövlət Universitetinin tədqiqatçıları, doktorant və magistrantları davamlı olaraq beynəlxalq elmi konfranslarda iştirak edir və beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan jurnallarda məqalələr nəşr etdirirlər. ÖTH-da 2017-2022-ci illərdə Universitet əməkdaşlarının Web of Science bazasına daxil olan jurnallarda 62 məqalə dərc etdildiyi qeyd olunsa da yerində baxış zamanı 69 məqalənin olduğu müəyyən edilmişdir.

### 4.3.10 Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

LDU-nun professor-müəllim heyəti tərəfindən 2017-2022-ci illərdə 2 dərslik, 41 dərs vəsaiti, 7 monoqrafiya, 109 fənn proqramı nəşr etdirilmişdir.

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

Elmi məqalələrin dərc edilməsindən ötrü Lənkəran Dövlət Universitetinin Elmi xəbərləri jurnalının  Humanitar elmlər seriyası və Riyaziyyat və təbiət elmləri seriyası elmi məqalələrin nəşrini həyata keçirir. Həmçinin 2022-ci ildən Universitetin “Texnika və aqrar elmləri” elmi praktiki jurnalı nəşrə başlamışdır. Lənkəran Dövlət Universitetinin Elmi xəbərləri jurnalının Humanitar elmlər seriyası jurnalında humanitar elmlərin müxtəlif sahələrinə, o cümlədən, dilçilik, ədəbiyyatşünaslıq, tarix, şərqşünaslıq, pedaqogika, sosiologiya və psixologiya sahələrinə aid yüksək keyfiyyətli, yeni nəticələri özündə saxlayan rəydən keçirilmiş məqalələr çap edilir. Jurnalın məqsədi humanitar sahənin öyrənilməsində yeni elmi istiqamətləri təqdim

etmək, tədqiqatçılar arasında elmi məlumat mübadiləsi aparmaq üçün açıq platforma yaratmaqdır. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən elmi nəşrlərin siyahısına, **İNDEX COPERNİCUS** bazasına həmçinin **E-Library (РИНЦ)** indeksləmə sisteminə daxildir.

LDU-nun Elmi xəbərləri jurnalının Riyaziyyat və təbiət elmləri seriyası jurnalı riyaziyyat və təbiət elmlərinin geniş spektrini əhatə edən elmi jurnaldır. Jurnalda riyaziyyat və təbiət elmləri sahəsində orijinal, ciddi rəyləşdirilmiş, nəzəri və tətbiqi əhəmiyyətə malik, yeni nəticələri özündə saxlayan məqalələr çap edilir. Jurnalın məqsədi alim və tədqiqatçılar üçün təbiət elmlərinin müxtəlif sahələrinə aid yeni nəticələri və istiqamətləri müzakirə etmək üçün yeni imkanlar təklif etməkdir. Jurnal **E-Library (РИНЦ)** indeksləmə sisteminə daxildir. Jurnalın hər iki seriyası ildə iki dəfə çap olunur, azərbaycan, ingilis, rus və türk dillərində məqalələr qəbul edilir.

Universitetin "Texnika və aqrar elmləri" elmi praktiki jurnalı müasir istehsalatlarla əlaqəli və texnologiyaların sənayeyə və aqrar sahəyə transferində iştirak etmək imkanı olan elmi və pedaqoji işçilərin, alimlərin, mütəxəssislərin tədqiqat işlərinin materialları nəşr üçün qəbul edir. Jurnal ildə 4 dəfə nəşr edilir. Məqalələr azərbaycan, ingilis, türk və rus dillərində qəbul olunur.

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin ("citation index"-in) artım dinamikası

Universitet əməkdaşları tərəfindən dərc olunmuş elmi əsərlərə istinadetmə indeksinin hər il artması ilə yanaşı, 2017-2022-ci illərdə Lənkəran Dövlət Universitetində çalışan əməkdaşların elmi məqalələrinə ümumilikdə 277 istinad olmuşdur.

***Cədvəl 3. Beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (citation index) dinamikası***

| İllər üzrə | Say |
|---|---|
| 2017 | 37 |
| 2018 | 33 |
| 2019 | 50 |
| 2020 | 42 |
| 2021 | 62 |
| 2022 | 53 |
| Cəmi | 277 |

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

Magistraturada tədris Elm və Təhsil Nazirliyi tərəfindən hər bir ixtisas üçün təsdiq olunmuş Təhsil Proqramına uyğun şəkildə aparılır. Əksər ixtisaslar üzrə magistratura tədris planlarında tədqiqat yönümlü fənnlər nəzərdə tutulmuşdur. Lakin elmi-tədqiqat və elmi pedaqoji təcrübələrin nə vaxt və hansı müddətə keçirilməsi qaranlıq qalır. Həmçinin doktrantura pilləsi üçün tədris planı yoxdur və heç bir fənn tədris olunmur.

Azərbaycan Respublikası NK-nın 1 iyul 2010-cu il tarixli 129 saylı Qərarının 3.27-ci bəndində qeyd edilmişdir ki, “doktorant təhsil müddətində: peşə biliklərinə dərindən yiyələnməli; müstəqil elmi tədqiqat işi aparmaq vərdişləri əldə etməli; elmi tədqiqatlar aparmaq metodologiyasını mənimsəməli; fərdi iş planını tam yerinə yetirməli; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”yə uyğun olaraq imtahanlar verməli; elmi tədqiqatlarının nəticələrini əks etdirən məqalələr dərc etdirməli; elmi tədqiqatlarının nəticələrini aprobasiya etdirməli; elmi tədqiqat işini bitirməlidir.”

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

LDU-da akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün hər rübdə təlimlər və müxtəlif seminarlar təşkil olunur. Keçirilən tədbirlərin foto şəkilləri çəkilir və saytlarda məlumatlar işiqlandırılır.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

2016-2022-ci illərdə 56 nəfər fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul edilmişdir. Bunlardan 43 nəfəri təhsil aldıqları müddətdə ehtiyac olduğu üçün Universitetdə işlə təmin olunmuşdur.

### 4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

Hal-hazırda 14 elmlər doktoru və professor tədris prosesində iştirak edir. Eyni zamanda son illərdə 2 nəfər elmlər doktoru, 2 nəfər isə professor elmi adı almışdır. Eləcə də 2017-2022 illərdə Universitetdə çalışan 19 əməkdaş Respublikanın nüfuzlu universitetlərində müxtəlif sahələr üzrə elmlər doktoru proqramı üzrə məqsədli yerlərə qəbul olunmuşdur. Lakin əksər elmlər doktorları 0.5 ştat işləyir.

### 4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti

Lənkəran Dövlət Universitetində elmi-tədqiqat işi yerinə yetirən 113 əməkdaşdan 68-nin elmi dərəcəsi vardır, 45 nəfər isə elmi dərəcəsi olmayan əməkdaşdır. Son 5 ildə 14 nəfər dissertasiya müdafiə etmişdir.

**4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu**

Lənkəran Dövlət Universitetində Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərancamlarına, eləcə də ölkənin strateji inkişaf planlarına uyğun olaraq Universitetin prioritet istiqamətləri üzrə fəlsəfə doktorluğu və elmlər doktorluğu (məqsədli) proqramları üzrə elmi-təqdiqat işləri aparılır.

**4.3.19 Elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti**

Lənkəran Dövlət Universitetində elmi tədqiqat işi ilə məşğul olan professor-müəllim heyətinin görəcəkləri işlər haqqında illik və 5 illik elmi-tədqiqat işlərinin planı uyğun olaraq hər il və hər 5 ildən bir təsdiq edilir. Universitetin professor-müəllim heyətindən təsdiq olunmuş plana uyğun olaraq hər ilin sonunda gördükləri elmi-tədqiqat işləri haqqında hesabatları alınır və Elm və Təhsil Nazirliyinə təqdim edilir. Əldə olunmuş hesabatlar ümumiləşdirilir və toplu halında çap olunur. Yerində yoxlama zamanı illər üzrə belə hesabatların mövcudluğu aşkar edilmişdir.

**4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili**

Son 5 ildə Lənkəran Dövlət Universitetində 14 doktorant və dissertantın dissertasiya işinin ilkin müzakirəsi keçirilmiş və işlər müvafiq “Müdafiə şuraları”na təqdim edilmişdir. “Müdafiə şuraları”na təqdim edilən işlərdən 8-i Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Kommisiyası tərəfindən təsdiq edilmiş və iddiaçılara müvafiq sənəd təqdim edilmişdir. 6 iş müvafiq prosedurları keçməkdədir.

***4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti***

**4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu**

Lənkəran Dövlət Universitetində Antiplagiat və akademik dürüstlük siyasəti mövcuddur. Lakin Universitetin özününün antiplagiat sistemi olmadığından dissertasiya işləri və məqalələr respublikanın digər ali təhsil müəssisələrində (BDU, UNEC, Bakı Slavyan Universiteti, Pedaqoji Universitet, Dillər Universiteti) hər sənəd üçün ödəniş etməklə yoxlamadan keçirilir.

**4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu**

Bununla bağlı olaraq həm dissertasiya işlərində, həm elmi metodiki işlərdə, həm də məqalə qəbulu proseslərində mövcud qaydalara uyğun şəkildə Universitet müvafiq qanunvericiliklə qabaqlayıcı tədbirlər həyata keçirir. Universitet özündə plagiat sistemi tətbiq

etdikdən sonra sistemlə əlaqədar prosedur qaydaları tətbiq etməyi nəzərdə tutub. Hal-hazırda qaydalar işlənib hazırlanır.

#### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

Lənkəran Dövlət Universitetində elmi-tədqiqat işi ilə məşğul olan bütün professor müəllim heyətinin, doktorantların dissertasiya işlərini tamamilə, magistr dissertasiya işlərinin müəyyən hissəsini əhatə edir. Universitet antiplagiat sisteminin alınması ilə əlaqədar Polşa şirkəti ilə danışıqlar aparır, sistem qurulduqdan sonra bütün işlərin sistemdən keçirilməsi nəzərdə tutulmuşdur.

## 5. İDARƏETMƏ SİSTEMİ

### 5.1 İdarəetmə orqanları

#### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət planlarının mövcudluğu vəziyyəti

LDU-da mövcud qaydalara uyğun olaraq idarəetmə orqanları yaradılmışdır. Belə ki, Ali idarəetmə orqanı kimi LDU Elmi Şurası formalaşdırılmışdır. Şura Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi müvafiq Əsasnamə və LDU-nun Nizamnaməsinə uyğun olaraq yaradılmış və fəaliyyət göstərir. Hər tədris ilinin əvvəlində Elmi şuranın illik iş planı təsdiq olunur. Universitet rektorunun əmri ilə Elmi və tədris-metodiki şura yaradılır və fəaliyyət göstərir. Burada da hər tədris ilinin əvvəlində illik iş planı təsdiq olunur. Həmçinin Tələbə Elmi Cəmiyyətinin müvafiq iş planları hər il təsdiq olunur və fəaliyyət göstərir. Elmi Şurada müxtəlif komissiyalar olsa da onların Əsasnaməsi yoxdur.

#### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

Lənkəran Dövlət Universitetinin Elmi Şurasının tərkibində tələbələrin təmsilçisi olan Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyətinin sədrləri tamhüquqlu üzv kimi təmsil olunurlar. Həmçinin Universitetin obyektiv idarə olunmasını təmin etmək, cəmiyyətə inteqrasiya prosesini həyata keçirmək üçün İctimai Şura fəaliyyət göstərir. Həmin Şuranın tərkibinə maraqlı tərəflər, o cümlədən işəgötürənlər və ictimaiyyətin nümayəndələri daxil edilmişdir.

#### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

Universitetin idarəetmə orqanlarının iclasları, yığıncaqları və tədbirləri təsdiq edilmiş fəaliyyət planına uyğun şəkildə təşkil olunur. Universitet Elmi Şurasının və Universitet Elmi və tədris metodiki şuraların təsdiq olunmuş iş planlarına uyğun olaraq bütün iclasları protokollaşdırılaraq təsdiq olunur.

### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

Universitetin idarəetmə orqanlarında məsələlər açıq şəkildə müzakirə olunur. Burada müzakirələrdə iştirak etmək üçün bütün üzvlərə bərabər şəkildə şərait yaradılır. Qərarların verilməsi qanunvericiliyə uyğun şəkildə həyata keçirilir. Protokollarda qərar qəbulu zamanı səsvermənin nəticələri əks olunur.

### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

Universitetin idarəetmə orqanları tərəfindən qəbul olunmuş qərarların ilk növbədə mövcud qanunvericiliyin tələblərinə uyğunluğu aydınlaşdırılır. Əgər həmin qərar layihəsi qanunvericiliyə uyğundursa qəbul olunur. İdarəetmə orqanları tərəfindən qəbul olunmuş qərarların əlçatanlığını təmin etmək məqsədilə iş sirri olmayan məlumatlar Universitetin rəsmi internet saytında və ya rəsmi sosial media hesablarında yerləşdirilir. Verilmiş qərarların icrasına elmi katib nəzarət edir. Veb saytda və sosial şəbəkə səhifələrində Elmi Şurada müzakirə olunan məsələlər və qərarlar haqqında məlumat yerləşdirilir.

### 5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti

Universitetdə qarşılıqlı əlaqənin təmin olunması məqsədilə idarəetmə oraqanları arasında əlaqə mövcuddur. İdarəetmə orqanlarında qəbul olunmuş qərarlar elektron kommunikasiya vasitələri ilə və kağız daşıyıcılarında digər struktur bölmələrə ötürülməsi əsasən təmin edilir.

### 5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti

Universitetin idarəetmə orqanlarında işlərin optimal idarə olunması üçün müxtəlif səlahiyyət və vəzifə bölgülərinin aparılması nəzərdə tutulmuşdur. Belə ki, Universitetin Elmi Şurasında müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərən komissiyalar mövcuddur. Bu işləri həyata keçirmək üçün Tədris komissiyası, Elm komissiyası, Etika və İntizam komissiyası, Maliyyə və iqtisadiyyat komissiyaları fəaliyyət göstərir. Lakin əvvəldə də qeyd edildiyi kimi komissiyaların Əsasnaməsi yoxdur. Komissiyalar fəaliyyətlərini rektorun əmri əsasında təşkil edirlər.

### 5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti

Universitetdə idarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin təkmilləşdirilməsi üzrə işlər görülməkdədir. Universitetin Elmi Şurasında müvafiq şöbə, fakültə, kafedralarının fəaliyyətini əks etdirən hesabatların dinlənilməsi təmin edilir. Onların fəaliyyəti müzakirə edilir və müvafiq qərarlar qəbul olunur.

**5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

İdarəetmə orqanları öz fəaliyyətlərini LDU-nun Nizamnaməsi və öz Əsasnamələri əsasında qururlar. İdarəetmə orqanlarının fəaliyyətinə dair illik hesabatlar müvafiq şura iclaslarında müzakirə edilərək qəbul olunur, protokollaşdırılır və hesabatlar aidiyyəti üzrə təqdim olunur. Bununla belə İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi istiqamətində ardıcıl və sistemli işlərin görülməsinə ehtiyac vardır.

***5.2 İnsan resurslarının idarə edilməsi***

**5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti**

LDU-nun İnsan Resursları və Kargüzarlıq şöbəsi işə qəbul prosesinin şəffaf və əlçatan olması üçün Unversitetdə 20 noyabr 2017-ci il tarixli 1/164 nömrəli əmrə əsasən “Müsahibə komissiyası” yaradılmış, 2 sentyabr 2019-cu il tarixli 1/68 nömrəli, 2 oktyabr 2022-ci il tarixli 1/165 nömrəli əmrlərlə tərkibi dəyişdirilmişdir.

**5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması**

Lənkəran Dövlət Universitetinin akademik və inzibati heyətinin say həddi onun Strateji İnkişaf Planına uyğun şəkildə tənzimlənir. Universitetin rəqabətədavamlı əməyin ödənilməsi siyasəti mövcuddur.

**5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması**

LDU Elmi Şurasının 03.12.2018-ci il tarixli E9-03 nömrəli qərarı ilə “Lənkəran Dövlət Universitetində professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əmək haqqı sisteminin tətbiqi haqqında Qaydalar” təsdiq edilmişdir. Qaydaların tətbiqi üçün LDU rektorunun 27 fevral 2019-cu il tarixli 27/4 saylı əmri ilə Komissiya formalaşdırılmışdır.

**5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması**

LDU-da əmək funksiyasını yüksək peşəkarlıq səviyyəsində yerinə yetirən, intizam qaydalarına əməl edilməsində fərqlənən əməkdaşların mükafatlandırılması, rəğbətləndirilməsi, təltif edilməsi müvafiq sərəncamlar və əmrlər vasitəsilə aparılır. Təlim-tədris işinin təşkili və aparılmasında, Universitetin tədris korpuslarının genişləndirilməsində və tapşırılan digər işlərin yerinə yetirilməsində peşəkarlığı və intizamı ilə fərqlənən əməkdaşlar müvafiq olaraq Azərbaycan Respublikasının Əmək məcəlləsinin 185-ci maddəsinə əsasən rəğbətləndirilirlər.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

ÖTH-da qeyd edilmişdir ki, Lənkəran Dövlət Universitetinin Elmi Şurasının İntizam Komissiyası tərəfindən mütəmadi olaraq şöbə və struktur bölmələrdə monitorinqlər aparılır. Monitorinqlərin nəticələrinə əsasən işçilərin fəaliyyəti qiymətləndirilir. ATM-ə sahə səfəri çərçivəsində yoxlama zamanı yalnız açıq dərslərin keçirilməsi ilə əlaqədar sənədlər təqdim edilmişdir.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

LDU-nun "Xarici dillər və tərcümə", "Maliyyə idarəetməsi və audit", "Tarix və onun tədrisi metodikası" kafedralarının müəllimlərinin Rumuniya və Türkiyə Cümhuriyyətində, "Baytarlıq və Aqrar elmlər" kafedrasının müəllimləri Gürcüstan Respublikasında təcrübə mübadiləsində iştirak etmişlər.

"Texnologiya və texniki fənlər" kafedrasının baş müəllimi Rusiya Federasiyasının Tomsk şəhərində "Texnoanalitik elm istehsalat mərkəzi"ndə təcrübə keçmişdir. Maliyyə və mühasibat şöbəsinin müdiri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən Təhsil Nazirliyinin və tabe təşkilatlarının müvafiq əməkdaşlarına "Dövlət Satınalmaların təşkili" mövzusunda təlimdə iştirak etmişdir.

LDU "Pedaqogika, psixologiya və incəsənət fənləri", "Tarix və onun tədrisi metodikası", "İbtidai təhsil və məktəbəqədər təlim" kafedralarının müəllimləri Bakı şəhəri Regional İnkişaf İctimai Birliyində keçirilən "Gender yönümlü pedaqogika" adlı təlimdə iştirak etmişlər.

LDU-nun Elm və innovasiya məsələləri üzrə prorektoru Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2022-ci il yol xəritəsi" adlı təlimdə iştirak etmişdir.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

LDU-da bayram günləri ilə əlaqədar əməkdaşlar üçün müxtəlif konsert proqramları və əyləncəli nömrələri də əhatə edən maraqlı tədbirlər təşkil olunur, işçilər rəhbərlik tərəfindən pul mükafatı ilə təltif olunurlar. Eyni zamanda fərqlənən və Universitetin ictimai işlərində fəal iştirak edən işçilər "Fəxri Fərman" və ya "Təşəkkürnamə" ilə təltif olunurlar.

Ehtiyacı olan əməkdaşlar yay məzuniyyəti dövründə sanatoriya və istirahət evlərinə göndərişlə təmin olunur, hər tədris ilinin sonunda Universitetin bütün işçi kollektivi Universitetin vəsaiti hesabına istirahət zonalarının birində bir günlük kollektiv gəzintiyə aparılır. Tədris ili ərzində bir neçə dəfə Universitetin işçiləri və tələbələri üçün Lənkəran Dövlət Dram Teatrında Universitetin vəsaiti hesabına tamaşalar təşkil olunur.

Universitetin 30 illik Yubileyi ilə əlaqədar Universitet əməkdaşlarından 2 nəfər "Əməkdar müəllim", 3 nəfər "Tərəqqi" medalı ilə, 11 nəfər "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə, 10 nəfər Lənkəran şəhər İcra Hakimiyyəti başçısının "Fəxri Fərmanı" ilə, 24 nəfər isə Lənkəran Dövlət Universitetinin rektorunun "Fəxri Fərmanı" ilə təltif olunmuşlar.

**5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti**

Qeyri-akademik heyətə (inzibati, texniki və köməkçi işçilər) aid müraciətçilərin işə qəbulu prosesi Müsahibə Komissiyasının qiymətləndirilməsi ilə aparılır. Əmək qanunvericiliyinə, LDU-Əsasnaməsinə, təlimat və qaydalara, rektorun əmrlərinə müvafiq olaraq işçilərin qəbulu, rəsmiləşdirilməsi həyata keçirilir.

**5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti**

ÖTH-da qeyd olunduğu kimi Lənkəran Dövlət Universitetində qeyri-akademik heyətin fəaliyyəti daxil olan şöbə və struktur bölmələrdə Elmi Şuranın intizam komissiyası tərəfindən mütəmadi olaraq monitorinqlər aparılır.

**5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti**

LDU-nun İnsan Resursları və Kargüzalıq şöbəsi Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarını, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərar və Sərəncamlarını, Azərbaycan Respublikasının Əmək məcəlləsini, Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimatı, Azərbaycan Respublikasının müvafiq qanunlarını və normativ-hüquqi aktlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Əsasnaməsini, Nazirliyin Kollegiyasının qərarlarını, Azərbaycan Respublikası Təhsil Nazirinin əmr və sərəncamlarını, Universitetin Nizamnaməsini və onun fəaliyyətini tənzimləyən digər normativ-hüquqi aktları, habelə şöbənin Əsasnaməsini rəhbər tutaraq rektorun əmrlərinə müvafiq olaraq işçilərin işə qəbulu, başqa vəzifəyə keçirilməsi və işdən azad edilməsinin rəsmiləşdirilməsi prosesini həyata keçirir.

***5.3 Maliyyə resurslarının idarə edilməsi***

**5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu**

ATM-in maliyyə resursları mənbələri onun Nizamnaməsinə uyğundur. ADPU-nun gəlirləri əsasən ödənişli əsaslarla təhsil alan tələbələrin təhsil haqqlarından formalaşır. LDU-nun maliyyələşməsinin əsasını dövlət büdcəsi vəsaiti, ödənişli təhsildən gələn gəlirlər və büdcədənkənar daxilolmalar formalaşdırır. Maliyyə mənbələrinin təyinatı üzrə aparılmış planlamadakı müddəalar Universitetin inkişaf istiqaməti və perspektivləri nöqteyi-nəzərindən Nizamnaməyə uyğundur.

**5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi**

Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşması aparılmış və illər üzrə təqdim olunmuş illik smetalarda əksini tapmışdır. Maliyyə resursları qısamüddətli dövr üçün

planlaşdırılır. Hər il üçün yeni xərc maddələri üzrə smeta tərtib edilir və Nazirliyə təqdim olunur. Xərc maddələri üzrə məbləğlər əvvəlki illərlə müqayisə olunur, xərclər proqnozlaşdırılır. Cari il üçün hər hansı xərc maddəsi üzrə əlavə vəsaitə ehtiyac olarsa, çatışmayan məbləğ üçün dürüstləşmə verilir. Maliyyə resursları LDU-nun Nizamnaməsinə uyğun olaraq Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş xərclər smetasına əsasən təyinatı üzrə istifadə olunur.

### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

Maliyyə resursları planlaşdırılarkən Strateji İnkişaf Planına (SİP) olan uyğunluq nəzərə alınır. SİP-də göstərildiyi kimi, LDU əməkdaşlarının maddi rifahının yaxşılaşdırılması məqsədilə səriştə və nəticə əsaslı differensiallaşdırılmış rəqabətqabiliyyətli əməkhaqqı və müxtəlif stimullaşdırıcı paketlər sisteminin yaradılması üçün növbəti tədris ilindən müəyyən işlər planlaşdırılır. Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə iş SİP-ə qismən uyğundur. Lakin burada da monitorinqlə əlaqəli natamamlıq nəzərə çarpır.

### 5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti

Əlavə maliyyə resursları əldə etmək imkanları ATM-də azdır. Bu əsasən yataqxana və kiçik həcmli qrantlarladır. Bu isə Universitet üçün az məbləğ göstəricisidir.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

ATM-də əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsinin müəyyənləşməsini təmin edəcək hər hansı bir mexanizm, yaxud monitorinq nəticəsi mövcud deyildir. LDU-nun Elmi Şurasının 8 iyul 2022-ci il tarixli iclasının qərarı ilə Elmi Şuranın nəzdində "Maliyyə və iqtisadiyyat" komissiyası yaradılmışdır. 5 nəfərdən ibarət olan Komissiyanın Elmi Şurada hesabatları dinlənilmişdir.

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarından istifadə ATM-in Nizamnaməsinə uyğundur. Universitetin inkişaf istiqaməti üzrə, stimullaşdırıcı tədbirlər çərçivəsində və qəbul olunmuş qərarlara əsasən bölgüsü planlaşdırılır və həyata keçirilir.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması LDU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilir. Nizamnaməyə əsasən ATM-in illik xərclər smetası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla rektor tərəfindən təsdiq edilir. Nizamnamənin tələblərinə əsasən maliyyə resurslarından təyinatı üzrə səmərəli istifadənin təmin edilməsi ATM-in əsas vəzifələrindən biri olaraq müəyyən edilmişdir.

Verifikasiya zamanı təqdim olunan maliyyə sənədlərində büdcə-gəlir və xərc smetalarında qeyd olunan istiqamətlər üzrə bu prinsiplərin qorunduğu aydın olmuşdur.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

ATM-də maliyyə resurslarından təyinatı üzrə istifadəyə cari nəzarəti LDU-nun rektoru və baş mühasibi həyata keçirir. Həmçinin Elmi Şura nəzdində müvafiq komissiya da prosesdə iştirak edir.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

ATM-də malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə prosedur “Satınalma Proseduru” və “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

LDU-da “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparılır. ATM-ə sahə səfəri zamanı müvafiq istiqamətdə tərtib olunmuş hesabatlar və təhlil arayışlarına baxış keçirilmişdir.

### 5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

LDU-da maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunduğunu və aidiyyəti orqanlarla işin qurulmasının qənaətbəxş vəziyyətdə olduğu müşahidə edilmişdir.

### 5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

LDU-nun Nizamnaməsinə əsasən Universitet “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə dövlət təhsil müəssisəsi kimi müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatları tərtib və  təqdim edilir. Sahə səfəri zamanı aydın olmuşdur ki, maliyyə hesabatlarının dərc olunması həyata keçirilmir.

### 5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu

LDU-da Daxili audit bölməsi yoxdur. Həmçinin ATM-də maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə müvafiq dövrdə daxili audit aparılmamışdır.

### 5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

LDU-da maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar audit aparılmamışdır və bu səbəbdən də nəzarət tədbirləri görülməmişdir.

### 5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin LDU–da nəzərdə tutulduğu bildirildi. Lakin bu istiqamətdə daxili və kənar auditin, hesabatlılıq və bunlara əsaslanan geniş təhlillərin aparılmasına, şəffaflığı, dürüstlüyü təmin edən mexanizmlərin qurulmasına ehtiyac var və ona əsaslanmış təkmilləşdirilmələr tövsiyə olunur.

## *5.4 İnformasiya idarəetmə sistemi*

### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

LDU-da 2016-cı ildən icrasına start verilmiş “Elektron Universitet” informasiya idarəetmə sistemi mövcuddur. Sistemə baxış zamanı Universitetdə dərs deyən professor-müəllim heyətinin, təhsil alan tələbələrin və tədris olunan fənlərin ORACLE bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri yaradılmış və hal-hazırda aidiyyəti üzrə istifadəyə təqdim edilir. Tələbələrin tədris fəaliyyətinə dair bir sıra proseslər onların şəxsi kabinetlərində öz əksini tapır.

Hazırda sistemin daha da genişləndirilməsi məqsədilə elektron sənəd dövriyyəsi, əməkhaqlarının hesablanması sistemi səlahiyyətlərinin daha təkmil qaydada müəyyənləşdirilməsi və müvafiq modulların hazırlanması istiqamətində işlər aparılır. Bundan əlavə elmi jurnallara göndərilən məqalə və tezislərin qəbulu, qeydiyyatı və cavablandırılması (https://technoagrarian.lsu.edu.az/index.php) (https://lsu.edu.az/new/Elmi-jurnallar.php), elektron kitabxana, kataloq sistemi (https://lsu.edu.az/new/LSU-Library/) və s. imkanlar tələbə və əməkdaşların xidmətindədir.

LDU-da mövcud olan İnformasiya idarəetmə sisteminə sahə baxışı zamanı Komissiyaya rektor tərəfindən verilmiş “Elektron jurnal” layihəsinin tətbiqi qaydalarının müəyyənləşdirilməsi və tətbiqi ilə bağlı müvafiq olaraq 21 aprel 2017-ci ildə 4/44 və 26 fevral 2019-cu ildə 4/25 nömrəli əmrlər təqdim edilmişdir. Əmrlərin məzmununda icrası nəzərdə tutulan layihənin ilkin reqlamenti öz əksini tapsa da, layihənin icrası ilə bağlı müvafiq əsasları ehtiva edən təsdiqedici sənədlər (hesabatlar) Komissiyaya təqdim edilməmişdir.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

ATM-ə sahə səfəri çərçivəsində hal-hazırda LDU-da istifadədə olan Elektron Universitet (https://e.lsu.edu.az) sisteminə baxış keçirilmişdir. Sistemdə aşağıdakı idarəetmə funksiyalarının mövcudluğu müəyyənləşdirilmişdir:

- Tələbələrin şəxsi kabineti
- Müəllimlərin şəxsi kabineti
- Elektron imtahan cədvəli
- İmtahan cədvəli və nəticələr
- Helpdesk (tələbələr üçün)
- Tələbələr üzrə yekun nəticələr (dekanlıqlar üçün)
- Dekanlıqlar üçün
- Qəbul
- Qəbul (SMS)

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

“Elektron Universitet”-də idarəetmə orqanları üzrə səlahiyyət bölgüsü təkmil şəkildə aparılmamışdır. Belə ki, dekanlıqlar, kafedralar, maliyyə və mühasibatlıq şöbəsi, müəllimlər üçün müvafiq səlahiyyətlər mövcud olsa da, digər idarəedici orqanların fəaliyyət istiqamətlərinə dair modullar işlənib istifadəyə təqdim edilməmişdir, yalnız sistemə baxış imkanı təyin edilmişdir. LDU-da sahə baxışı zamanı verilən məlumata görə hazırda bu istiqamətdə işlər aparılır. “Elektron Universitet”ə baxış zamanı həm də müəyyənləşdirilmişdir ki, tədris prosesində tələbələrin əldə etdiyi təlim nəticələri müəllimlər tərəfindən deyil, tyutorlar tərəfindən sistemə əlavə edilir.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

İİS-də təlim və tədris prosesində fəaliyyətlər olaraq təhsilalanların davamiyyəti, təlim nəticələrinin qiymətləndirilməsi, imtahan cədvəli, imtahan nəticələri və s. modullar mövcud olsa da, bu istiqamətdə fəaliyyət göstərən digər struktur bölmələr (Təhsil sənədləri ilə iş şöbəsi, Keyfiyyət təminatı şöbəsi, Tədrisin təşkili və təlim texnologiyalarının tətbiqi şöbəsi) üçün müvafiq idarəetmə səlahiyyətləri təyin edilməmişdir. Sahə baxışı zamanı təhsilalanların tədris hərəkətliliyinin izlənilməsinə və tədris prosesinin səmərəli təşkilinə dair bir sıra funksiyaların işlənilməsinə ehtiyac olduğu müəyyənləşdirilmişdir. LDU-da bu istiqamətdə İİS-in hazırda ibtidai layihələndirmə səviyyəsində olduğunu nəzərə alaraq, Komissiya ilkin əsas prioritetlər olaraq İİS-də:

-Ali təhsilin bütün səviyyələri üzrə (bakalavriat, magistratura, doktorantura) İİS-in layihələndirilməsində müvafiq qaydada qanunvericiliyin tələblərinin İİS-ə simulyasiyasının nəzərdə tutulması;

-Hazırda tədris proseslərinin miqyas etibarı ilə əsas hissəsinin İİS-də aparılması İnformasiya-kommunikasiya və Kitabxana Mərkəzi tərəfindən aidiyyəti struktur bölmələrdən daxil edilmiş kağız daşıyıcılardan, sənədlərdən sistemə məlumatların daxil edilməsi ilə tənzimlənir və bu o qədər də səmərəli hesab edilmir. İİS-in növbəti layihələndirmə işlərinin planlaşdırılmasında fəaliyyətlərin həyata keçirilməsinə məsul struktur bölmələrə müvafiq admin panellərin təyin edilərək işlərin paylanmış qaydada aidiyyəti üzrə sistemdə aparılmasının təmin edilməsi;

-Transfer, xaric olma, bərpa statuslu tələbələrin hərəkətliliyinin izlənilməsi üçün reyestr bazasının formalaşması;

- ikili diplom və mübadilə proqramları üzrə təlim-tədris prosesinin tam rəqəmsallaşdırılması;

-tədris prosesində təhsilalanların status dəyişikliyinin (bərpa, xaric olma, mübadilə, qrup dəyişikliyi və s.) müvafiq qaydada (daxili və ya xarici əmrlərlə) əsaslandırılması üçün bölmənin hazırlanması;

-Fənn əvəzlənməsi prosesinin tam rəqəmsallaşdırılması üçün modulun hazırlanması;

-Subbakalavrların müvəffəqiyyət bölməsinin xüsusi olaraq işlənilməsi (fənn əvəzlənmələrini nəzərə alaraq);

- Fənn şifrələrinin sistemə daxil edilməsi və fənlər üzrə proseslərin fənn adına deyil fənn şifrələrinə əsasən tənzimlənməsi;

-Tədris planlarının, işçi tədris planları, fərdi tədris planlarının tam rəqəmsallaşdırılması;

-Tədris yükləri tapşırıqlarının fakültələrdən kafedralara göndərişinin həyata keçirilməsi;

-Transkript və arayış sisteminin hazırlanması kimi işlərin aparılmasını tövsiyə edir.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

Tələbələrin şəxsi kabinetlərində tədris hərəkətliliyi ilə bağlı bir sıra məlumatlara (fənlər haqqında məlumat (saat, kredit), dərs cədvəli, davamiyyət, təlim nəticələri, kollokvium və imtahanların tarixi ilə bağlı elanlar və s.) əlçatanlığı mövcuddur. Sistem adminləri tərəfindən daxil edilmiş müxtəlif sorğular vasitəsilə dövrlər üzrə tələbələrin sistemdən istifadə səviyyəsinin statistikasını əldə etmək mümkündür.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

İnformasiya idarəetmə sisteminin tətbiqi təhsilalanların tədris fəaliyyəti ilə bağlı həm rektor, həm tədris hissəsi, həm də fakültə dekanlıqları tərəfindən daim olaraq izlənilir və nəzarətdə saxlanılır. Eyni zamanda Maliyyə və mühasibatlıq hissəsi sistemin tələbə ödənişlərinin idarəolunması modulu vasitəsilə tələbələrin təhsil haqqlarının ödənilməsi vəziyyətini öyrənir, təhlil və idarə edir. Hər semestrin sonunda sistemdə toplanmış məlumatlardan istifadə etməklə həm kafedralara, həm fakültə dekanlıqlarına, həm tədris hissəsinə, həm də rektor və Elmi Şuraya müvafiq diaqram və histoqramlarla təchiz olunmuş statistik hesabatlar təqdim edilir.

Bundan başqa sahə baxışında Komissiyaya məlumat verildi ki, LDU-da sənəd dövriyyəsinin elektronlaşdırılması məqsədilə də sistem işlənib hazırlanmış və tətbiq olunma ərəfəsindədir.

### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

LDU-da istifadə olunan İnformasiya idarəetmə sistemlərinin digər qurumlara inteqrasiya məsələlərinə baxılmaqdadır. İnformasiya-kommunikasiya və Kitabxana Mərkəzindən verilən məlumata görə Hazırda Elm və Təhsil Nazirliyinin ATİS (www.atis.edu.az) və DİM-in Tələbə-məzun sistemi ilə inteqrasiyanın təmin edilməsi məqsədi ilə hazırlıq işləri aparılır.

### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

Bazada saxlanılan məlumatların tamlığının təmin edilməsi üçün proqram təminatı səviyyəsində verilənlər əlaqələndirilmiş, ardıcıl düzəliş və silinmə prinsipləri təmin edilmişdir. Əlavə olaraq, verilənlərin mühafizə edilməsi üçün Universitetin server otağında avadanlıq quraşdırılmış, server otağına giriş məhdudlaşdırılmışdır. Məlumatlar və verilənlər gündəlik arxivləşdirilir, veb üzərindən olan məlumatların isə təhlükəsizliyi və mühafizəsi hostinq şirkəti (İNRANS) tərəfindən həyata keçirilir. Müvafiq təsdiqedici sənədlər yerində baxış üçün təqdim edilmişdir.

## *5.5 İctimaiyyətlə əlaqələr*

### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

Lənkəran Dövlət Universitetinin rəsmi internet səhifəsi mövcuddur və https://lsu.edu.az/ domeni ilə fəaliyyət göstərməkdədir. Sayta daxilolma sayı aprel ayı üzrə 34 ölkədən 11266 olmuşdur. Sayt multilinqvaldır. Sosial şəbəkə hesablarına keçidlər təmin edilib. Navbar aktivdir. Saytın informativliyi təmin edilir. Məlumatlar yenilənir. Universitet haqqında ümumi fikir, ilkin təəssürat formalaşdırılması aləti kimi qənaətbəxşdir. Saytla bağlı hər hansı bir SEO həyata

keçirilməyib. Google Ads alətlərindən istifadəyə dair hər hansı məlumata rast gəlinmədi. Axtarışda saytın önə çəkilməsi üçün müvafiq tədbirlər gələcəkdə nəzərdə tutulub. e-universitet modulu mövcuddur. Modulda “Tələbənin şəxsi kabineti”, “Müəllimin şəxsi kabineti”, “Elektron imtahan cədvəli”, “İmtahan cədvəli və nəticələr”, “Help desk (tələbələr üçün)”, “Tələbə üzrə yekun nəticələr (dekanlıq üçün)”, “Dekanlıqlar üçün”, “Qəbul” və “Qəbul sms” funksional bölmələri yer alıb. Modulda tam aktiv funksional istifadədə olan hissə “Tələbənin şəxsi kabineti” bölməsidir. Bölmədə tələbə semestr ərzində qeydiyyatdan keçdiyi fənnləri görə bilir, imtahan tarixlərini seçə bilir və imtahandan aldığı qiymətləri görə və izləyə bilir. Digər funksional bölmələrin perspektivdə aktivləşdirilməsi nəzərdə tutulub. Əlavə olaraq sayta “Məzun” modulunun əlavə olunması üzərində iş aparılır. Yerində baxış zamanı modulun beta versiyası nümayiş etdirildi. Yaxın zamanda sayta tam inteqrasiyasının tamamlanması hədəflənir. Beləliklə, saytda LDU-nu bitirmiş və uğur qazanmış məzunlar haqqında geniş məlumatlar öz əksini tapacaq. Saytın blog hissəsi aktiv idarə olunur. Universitet üzrə bütün struktur bölmələrin vəziyyətini, Universitetin tədris, elmi, inzibati təsərrüfat, beynəlxalq, insan resursları, kitabxana, elmi konfrans, seminar və simpoziumlar, gündəlik xəbərlər və s. sahələr üzrə ictimaiyyəti maraqlandıracaq məsələlər press-relizlər, foto-video materiallar və s kimi kontentlə təmin edilir və vaxtaşırı paylaşımlar həyata keçirilir. Vebsayt LDU üçün önəmli PR aləti olduğundan, saytla bağlı SEO fəaliyyətlərinin həyata keçirilməsi, google ads tətbiqi saytın daha böyük və məqsədli auditoriyaya çıxışının təmin edilməsi üçün çox faydalı ola bilər.

### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

LDU aşağıdakı sosial media alətlərindən istifadə etməkdədir:
https://www.youtube.com/@lnkrandovltuniversiteti1304 571 istifadəçi 7 video. Youtube kanalı Universitetin ümumi fəaliyyəti haqqında informativ kontentə malikdir. İstifadəçi sayı azdır. Universitetin inkişafı və tələbə həyatının təşviqi istiqamətində fəaliyyətin genişləndirilməsi persptektivdə nəzərdə tutulub.
https://www.facebook.com/lsu.edu.az?mibextid=ZbWKwL 5500 istifadəçi. Facebook kanalı PR məqsədli fəaliyyətə köklənib. 2016-cı ildən aktivdir. Facebook ads alətlərindən, ödənişli offensiv marketinq strategiyasından istifadə olunmur. Kontent baxımından zəngindir. Paylaşımlardan görünür ki, ilkin redaktə filtrindən keçirilir.
https://instagram.com/lsueduaz?igshid=MmJiY2I4NDBkZg== 1300 ə yaxın istifadəçi 238 post. İnstagram aktiv istifadədədir. İzləyicilərin ən böyük aktivliyi Instagram platforması üzərindən müşahidə olunur. Universitet həyatını və maraqlarını, LDU özəlliklərini ehtiva edən paylaşımlar müşahidə edilir.

Sosial media hesablarının inkişaf etdirilməsi, Universitetin fəaliyyətinin marketinqi və PR-ı üçün məqsədli və sistematik fəaliyyətin təşkili istiqamətində layihə hazırlanıb və təsdiq üçün rəhbərliyə təqdim edilib.

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

Lənkəran Dövlət Universitetinin Mətbuat xidmətinin 2022-2023-cü tədris ili üzrə iş planı mövcuddur. 35 tədbirdən ibarət iş planında Universitet fəaliyyətinin işıqlandırılması geniş spektrdə nəzərdə tutulmuşdur, lakin cari plan üzrə fəaliyyətin monitorinqi və hesabatlılığın təmin edilməsinə dair hər hansı sənədə və ya rəsmi prosedura rast gəlinməmişdir. Əlavə olaraq qeyd etmək lazımdır ki, müvafiq struktur bölmədə "LSU Media Group" adlı layihə üzərində iş aparılır. Layihənin məqsədi tədris, təlim-tərbiyə ilə yanaşı, elektron dünyada da Universitetin işinin təşkili və tanıdılması, multimedia imkanlarının vahid platformada birləşdirilməsi, sosial şəbəkə hesablarının paralel formada idarə olunmasıdır.

#### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanının verməsi vəziyyəti

LDU-nun rəsmi sosial şəbəkələrinə daxil olan müraciətlərin hər biri müvafiq qaydada araşdırılaraq cavablandırılır. Kütləvi informasiya vasitələrindən Universitetlə bağlı daxil olan sorğular aidiyyəti strukturlara yönləndirilərək cavablandırılması təmin olunur. Lakin təsdiqedici sənədlər Komissiyaya təqdim olunmamışdır.

#### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

ATM-də sahə səfəri çərçivəsində məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti üzrə yazılı sürətdə sübutlar ilə tanış olmaq mümkün olmamışdır.

## 6. İNFRASTRUKTUR

### *6.1 Tədris infrastrukturu*

#### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

Komissiyanın ATM-ə sahə səfəri zamanı müşahidə edilmişdir ki, LDU-da tədris binalarının və tədris otaqlarının vəziyyəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 23 aprel tarixli 87 nömrəli və 2012-ci il 3 avqust tarixli 171 nömrəli qərarları ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin maddi-texniki bazası və təhsil infrastrukturu normativləri" və "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" dövlət standartlarının tələblərinə əsasən cavab verir.

#### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

LDU-da əsas (inzibati) binanın yaxınlığında 2 mərtəbəli Elmi kitabxana mərkəzi fəaliyyət göstərir. Sahə baxışı zamanı təqdim edilən hesabat sənədlərindən aydın olur ki:
1. Lənkəran Dövlət Universiteti Elmi kitabxanasının kitab fondu 2023 – cü il yanvarın 1-ə olan məlumata əsasən 55856 nüsxə təşkil edir

2. Kitabxana fonduna daxil olan son beş ildə nəşr edilmiş (çap şəklində) dərslik və dərs vəsaitlərinin sayı 591 nüsxə olmuşdur
3. Dərslik və dərs vəsaitləri -3840
4. Çap şəklində olan kitabların sayı - 55856
5. Bədii ədəbiyyat – 18067
6. Elmi ədəbiyyat – 11528 bunlardan monoqrafiya - 1162
Rus dilində - 10811
İngilis dilində - 1150
Alman dili – 56
Fransız dili – 73
Ərəb dili – 54
Fars dili – 49
Türk dili – 60
Müxtəlif dillərdə -12 nüsxə
7. Akademik heyət – 8 əməkdaş
8. Təhsil alanlar –yoxdur
9. Oxu zalında oxucular üçün ayrılmış yerlərin sayı – 150 (Onlardan Elmi kitabxana üzrə kompüterlərlə təchiz olunmuş (Elektron kataloqdan və elektron kitabxanadan istifadə məqsədli) 100 yerlik, 1 saylı tədris binası üzrə 10 yerlik, 2 saylı tədris binası üzrə 20 yerlik və 3 saylı tədris binası üzrə 20 yerlik oxu zalı ayrılmışdır).
Həmçinin kitabxanada 300 yerlik akt zalı mövcuddur.

***Cədvəl 4. Kitabxana fonduna daxil olan kitabların artım dinamikası***

| Daxil olan kitablar | Fond | Daxil olan dərsliklər | Dərsliklərin ümumi sayı |
|---|---|---|---|
| 2017-ci ildə - 2077 nüsxə | 54227 | 93 | 3297 |
| 2018 – ci ildə - 493 nüsxə | 54720 | 26 | 3323 |
| 2019-cu ildə - 1026 nüsxə | 55746 | 185 | 3508 |
| 2020-ci ildə - 292 nüsxə | 54907(silinən kitablar 1131) | 128 | 3636 |
| 2021-ci ildə - 599 nüsxə | 55506 | 149 | 3785 |
| 2022 ci ildə - 350 nüsxə | 55856 | 55 | 3840 |

Cədvəldən də məlum olduğu kimi ümumi kitab fondu və illər üzrə fondda dərsliklərin ümümi sayında artım dinamikası müşahidə edilir.

**Cari tədris ili üzrə nisbi göstəricilər**

Kitab verilişini fondun həcminə bölməklə - 0,12
Fondun həcmini oxucuların sayına bölməklə - 39,25
Kitab verilişini oxucuların sayına bölməklə - 4,76
Kitabxanaya gələnlərin sayını oxucuların sayına bölməklə - 3,5

Ümumilikdə sahə baxışı zamanı qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, LDU-da kitabxananın vəziyyəti qənaətbəxşdir.

### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

LDU-da 1 saylı tədris binasında Aqrar və Mühəndislik fakültəsinin fondunda 15 yerlik Baytarlıq – cərrahiyyəsi laboratoriyası mövcuddur. Eyni zamanda Universitetin nəzdində 1 saylı tədris binasının 1-ci mərtəbəsində 16 yerlik Baytarlıq laboratoriyası, 15 yerlik Qida təhlükəsizliyi laboratoriyası, 24 yerlik Qida məhsullarının texnologiyası laboratoriyası mövcuddur. Baytarlıq – cərrahiyyəsi və Qida məhsullarının texnologiyası laboratoriyaları həm tədris, həm də elmi tədqiqat laboratoriyası kimi fəaliyyət göstərir. Sahə baxışı zamanı müəyyən olunmuşdur ki, bu laboratoriyalarda avadanlıqlar işlək vəziyyətdədir. Hər 4 laboratoriyada da kompüter və internetə çıxış vardır. 1 saylı tədris binasının II mərtəbəsində 24 yerlik Botanika laboratoriyası yerləşir. Burada tədris-təcrübə sahəsində əkilən bitkilərin toxumları saxlanılır. Laboratoriyada 5 mikroskop var.

Eyni binanın 3-cü mərtəbəsində isə 25 yerlik İnformatika – tədris laboratoriyası və 24 yerlik Baytarlıq və 30 yerlik Meşəçilik kabinetləri yerləşir. İnformatika – tədris laboratoriyasında 10 kompüter var və bu kompüterlərin internetə çıxışı yoxdur. 1 saylı tədris binasının 4-cü mərtəbəsində isə 30 yer və 17 kompüter olan İnformatika laboratoriyası vardır.

LDU-nun 2 saylı tədris binasının 5-ci mərtəbəsində 25 yerlik kompüter otağı vardır. Burada 16 kompüter dəsti var. Lakin proyektor mövcud deyil.

LDU-nun 3 saylı tədris binasının I mərtəbəsində Təbiyyat fakültəsinin fondunda 30 yerlik Kimya laboratoriyası yerləşir. Laboratoriyada ASCO proqramı, virtual proyektor mövcud deyil. Laboratoriya üçün 2 kompüter ayrılıb. Həmçinin I mərtəbədə Virtual laboratoriya mövcuddur ki, burada ekologiya dərsi keçirilir. Bundan başqa 1 kompüter təyin edilmiş Biologiya laboratoriyası vardır. Bu tədris binasının II mərtəbəsində 20 yerlik, 17 kompüterli, proyektorlu USAİD laboratoriyası yerləşir. Binanın III mərtəbəsində 50 yerlik Fizika laboratoriyası mövcuddur.

Sahə baxışı zamanı müəyyən edilmişdir ki, LDU-da tədris laboratoriyalarının şəraiti, təchizatı çox yaxşı təmin edilmiş, kadr hazırlığına müvafiq olaraq laboratoriyaların təyinatı üzrə istifadəsi optimal təşkil edilir.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

ATM-ə sahə baxışı zamanı Komissiyaya verilən məlumata görə hazırda LDU-da istehsalat-təcrübə bazası mövcud deyildir.

### 6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

LDU-da Covid-19 pandemiyası dövründə MS Teams proqram təminatı vasitəsilə tədris prosesinin təşkili distant olaraq aparılmışdır. Mövcud infrastruktur imkanları distant təhsilin təşkili üçün uyğundur.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

Hazırda LDU-nun balansında 7 minik 1 yük maşını var. Onlardan 2 minik maşını son istismar müddətini bitirdiyi üçün hərraca verilmişdir. Eyni zamanda Universitetin tədris binaları üzrə ictimai nəqliyyat fəaliyyət göstərir.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

LDU-nun tələbələri üçün hər bir tədris binasında yerləşən kitabxanalar, elmi kitabxana, laboratoriyalar, tədris-təcrübə bazalarından və s. infrastrukturundan istifadə etmələri üçün şərait yaradılmışdır. Bundan əlavə olaraq onlayn mühitdə tələbəni öz tədris hərəkətini izləməsi üçün E-Universitet Elektron təhsil sistemi tələbələrə təqdim olunmuşdur. Burada tələbələr bu bazaların əsasında elektron kitabxana, elektron kataloq, elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemlərini istifadə edə bilirlər.

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

LDU-da sağlamlıq imkanları məhdud şəxslər üçün I və II tədris korpusunun pilləkənlərində panduslar mövcuddur. 2 saylı tədris korpusunda sağlamlıq imkanları məhdud tələbələr üçün lift, eyni zamanda bu korpusun birinci mərtəbəsində sağlamlıq imkanları məhdud olan tələbələrə tədris üçün müxtəlif kitablarla, brayl əlifbası və s. lazımi avadanlıqlarla təchiz olunmuş auditoriya var.

III tədris binasında sağlamlıq imkanları məhdud təhsilalanlar üçün infrastruktur şəraitin təmin edilməsi tövsiyə edilir.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

LDU-da 1 ,2 və 3 saylı tədris binalarında uyğun olaraq 160, 100 və 40 yerlik yeməkxana mövcuddur. Bundan əlavə 2 saylı binanın ərazisində 35-40 yerlik “cafeshop” mövcuddur. Lakin sahə baxışı zamanı məlum olmuşdur ki, yeməkxanalar zəruri avadanlıqlarla təchiz olunsa da, hazırda yeməkxanalar və “cafeshop” fəaliyyət göstərmir. Səbəbləri ehtiva edən müvafiq sənədlər Komissiyaya təqdim olunmuşdur.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

Lənkəran Dövlət Universitetində 3 saylı tədris binasının ərazisində qız tələbələr üçün nəzərdə tutulmuş 5 mərtəbəli, ümumilikdə 52 otaq olmaqla 156 nəfərlik müasir tələblərə uyğun yataqxana mövcuddur. Sahə baxışı zamanı müəyyən edilmişdir ki, tələbələr yataqxanada 1

otaqda 3 nəfər olmaqla bütün lazımi şəraitlə təmin olunublar. Eyni zamanda yataqxana sanitar qovşaqlarla təmin olunmuşdur. Bundan əlavə hər mərtəbədə 12 yerlik yeməkxana mövcuddur. 2 saylı tədris binasının ərazisində hazırda oğlan tələbələr üçün təqribən 300 nəfərin yerləşəcəyi müasir tipli yataqxananın da təmiri yekunlaşmaq üzrədir. Növbəti tədris ilindən yataqxananın istifadəyə verilməsi planlaşdırılır. Eyni zamanda LDU-nun 4 saylı binasında (Müəllimlər evi adlanan) 2 mərtəbəli müəllimlərin istifadəsinə verilmiş yataqxana da mövcuddur. Müəllimlər evində hər mərtəbəsində 2 və ya 3 otaqlı olmaqla 6 ev, ümumilikdə isə 12 ev yerləşir.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

LDU-da hazırda tibb xidməti mövcud deyil, tibb məntəqəsinin yaradılması ilə bağlı 17 iyun 2016-cı ildə Universitet rəhbərliyi tərəfindən Lənkəran Rayon Mərkəzi Xəstəxanasına məktub ünvanlanmışdır. Buna baxmayaraq bu istiqamətdə hər hansı müsbət nəticə əldə olunmamışdır. Məktub Komissiyaya təqdim edilmişdir.

### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

LDU-da 2016-cı ildən Elektron Universitet (https://e.lsu.edu.az/php/login.php) layihəsinin yaradılmasına start verilmişdir və hazırda tətbiq edilməkdədir. Layihə çərçivəsində Universitetdə dərs deyən professor-müəllim heyətinin, tədris olunan fənlərin, təhsil alan tələbələrin ORACLE bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri yaradılmışdır. Tələbənin tədris fəaliyyəti və imtahan prosesinin təşkilinə dair məlumatlar onların şəxsi kabinetində öz əksini tapır. Özünütəhlil Hesabatında hazırda sistemin daha da genişləndirilməsi məqsədilə elektron sənəd dövriyyəsi (lokal şəbəkədə), əmək haqlarının hesablanması sistemi (lokal şəbəkədə), tələbə ödənişlərinə nəzarət modullarının tələbə və əməkdaşların xidmətində olduğu qeyd olunsa da, həmin modulların interfeysinə baxış keçirə bilinməmiş, belə ki, modulların son layihələndirilmə mərhələsində olduğu LDU-dan bildirilmişdir.

### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması vəziyyəti

Sahə baxışı zamanı məlum olmuşdur ki, bu istiqamətdə monitorinqlər aparılmır, təsdiqedici sənədlər təqdim edilməmişdir.

## *6.2 Elmi-tədqiqat infrastrukturu*

### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

LDU-da Elm və tədqiqat şöbəsi fəaliyyət göstərir. Heyət və tələbə sayı baxımından kiçik Universitet olduğundan mərkəzin yaradılması mümkün olmayıb. Lakin Universitetdən verilən məlumata əsasən demək olar ki, gələcəkdə belə bir mərkəzin yaradılması nəzərdə tutulmuşdur.

### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

Lənkəran Dövlət Universitetində adları aşağıda qeyd olunan laboratoriyalar mövcuddur:

— Qida təhlükəsizliyi və ekologiyası laboratoriyası;

--- Qida məhsullarının texnologiyası;

— Baytarlıq cərrahiyəsi laboratoriyası;

— Baytarlıq laboratoriyası.

Həmin laboratoriyalar BioBase firmasının müasir avadanlıqları ilə təhciz olunaraq (PZR aparatı, Homogenizator, Çalxalayıcı, Floresent, Sentifuqa, Avtoklav və s) Universitetin tələbə-müəllim heyətinin istifadəsinə verilmişdir.

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

### *7.1 Beynəlmiləlləşmə siyasəti*

#### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

ATM-in beynəlmiləlləşmə siyasətini əks etdirən ayrıca sənəd mövcud deyildir. Bu siyasəti əhatə edən istiqamətlər 2022-2030-cu illər üçün Lənkəran Dövlət Universitetinin Strateji İnkişaf Planının “Beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi” adlı 4-cü bəndində əksini tapmışdır.

#### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

ATM-də olan mübadilə proqramları necə təşviq olunacağı barədə məlumat SİP-in “Beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi” adlı 4-cü bəndində Məqsəd 2 “Universitetdaxili beynəlmilləşdirmə” hissəsində əksini tapmışdır.

Eyni zamanda bu proses tələbə və professor-müəllim heyəti ilə görüşlər təşkil olunaraq, fakütələrdə elanlar lövhəsində, veb-saytın elanlar hissəsində, Universitetin sosial şəbəkələrində məlumat yerləşdirilərək həyata keçirilir.

#### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların təşviq olunma vəziyyəti

ATM-də əcnəbi tələbələrin necə təşviq olunacağı barədə məlumat SİP-in “Beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi” adlı 4-cü bəndində “Beynəlxalq təhsil üzrə əməkdaşlıq” bölümünün Məqsəd 2 “Universitetdaxili beynəlmilləşdirmə” hissəsində əksini tapmışdır. Hesab edilir ki, bu məlumatın Məqsəd 1: Universitetdən kənar-xarici beynəlmiləlləşdirmə hissəsində qeyd edilməsi məqsədəuyğun olardı.

Eyni zamanda əcnəbi tələbələrin təşviq olunması Uluslararası topluluq, Kampus Qlobal, Aran Academy, Yoshedef, İstanbulstudy agentliklərlə əməkdaşlıq və Beynəlxalq Təhsil sərgilərində iştirak edilərək həyata keçirilir.

ATM-ə sahə baxışı çərçivəsində Komissiyaya müvafiq verifikasiya sənədləri təqdim olunmuşdur.

### 7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

ATM-də beynəlxalq akademik heyət barədə məlumat SİP-in "Beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi" adlı 4-cü bəndində 4.1."Beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi" hissəsində əksini tapmışdır.

Eyni zamanda əcnəbi professor-müəllim heyətinin ATM-ə cəlb olunub tədris aparması barədə əmr və müqavilələr Akkredetasiya Komissiyasına təqdim olunmuşdur.

### 7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

Beynəlxalq tədqiqatçılara münasibətdə məlumat SİP-in 4.1."Beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi" hissəsində əksini tapmışdır.

Beynəlxalq tədqiqatçılar Universitetdə təşkil olunan konfranslara dəvət olunur, dissertant və doktorantlara dissertasiya işlərinə elmi rəhbərlər kimi təyin olunur, Universitet əməkdaşları ilə müştərək tədqiqatlar aparılaraq yerli və xarici elmmetrik jurnallarda məqalələr dərc olunur.

### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Bu istiqamətdə məlumatlar SİP-in Məqsəd 1. "Universitetdən kənar- xarici beynəlmiləlləşdirmə" hissəsində öz əksini tapmışdır.

Hal-hazırda Universitet KÜNİB, Xəzəryanı Universitetlər Asoosiasiyası, Rusiya-Azərbaycan Ali Təhsil müəssisələri Assosiasiyası, Avrasiya Universitetlər Birliyinə üzvdür.
https://www.kunib.com/?id=10&lang=tr#NavContentHeader
https://www.sdu.edu.az/userfiles/media/pdf/asossation_members_az.pdf
https://www.sdu.edu.az/az/aouocs

### 7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

İkili diplom barədə məlumat SİP-in 4.3. Beynəlxalq əlaqələrin infrastrukturunun təkmilləşdirilməsi hissəsində öz əksini tapmışdır. Hesab edirik ki, məlumat düzgün bölmədə yerləşdirilməyib. Hal-hazıda ATM-də ancaq UNEC ilə ikili diplom Proqramı haqqında 13.03.2019-cu ildə imzalanmış müqavilə qüvvədədir (müqavilə Komissiyaya təqdim olunmuşdur). Eyni zamanda Akkreditasiya Komissiyasına Kafkas (Kars) Universiteti və Macarıstan Kapoşvar ilə ikili diplom proqramlarının təsis edilməsi haqqında Əməkdaşlıq Müqavilələri də təqdim olunmuşdur. Lakin bu əməkdaşlıqlar hələ ki, danışıqlar prosesindədir.

### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

Qeyd etdiyimiz kimi, ATM-in beynəlmiləlləşmə siyasətini əks etdirən istiqamətlər Lənkəran Dövlət Universitetinin Strateji İnkişaf Planının "Beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi" adlı 4-cü bəndində əksini tapmışdır. Bu sənəd 2022-2030-cu illəri əhatə edir.

Eyni zamanda Akkreditasiya Komissiyasına Beynəlxalq Əməkdaşlıq şöbəsinin 2018, 2019, 2020, 2021, 2022 və 2023-cü illər üçün İş planı təqdim olunmuşdur. Lakin sənəddə tamamilə

eyni istiqamətlər və fəaliyyət növləri əks olunmuş və illər üzrə yenilənməsi müşahidə olunmamışdır.

## *7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu*

### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud olması vəziyyəti

Hal-hazırda ATM-də Beynəlxalq əməkdaşlıq şöbəsi fəaliyyət göstərir (Elmi Şuranın 26 dekabr 2017-ci il tarixli 04 saylı genişləndirilmiş iclasının protokolundan Elm və beynəlxalq əlaqələr şöbəsinin bölünməsi haqqında çıxarış təqdim olunsa da, şöbənin yaradılması barədə əmr verilməmişdir).

Şöbənin fəaliyyəti Elmi Şuranın 12 iyul 2016-cı il tarixli iclasında (protokol №9) təsdiq olunmuş Elm və Beynəlxaq əlaqələr şöbəsinin Əsasnaməsi ilə tənzimlənir (şöbənin ayrıca Əsasnaməsi yoxdur) və illik hesabatlar mövcuddur.

Beynəlxaq əməkdaşlıq şöbəsinin təsdiq olunmuş struktur cədvəli mövcuddur (Beynəlxalq əməkdaşlıq şöbəsinin 2022-2023-cü illər üçün ştat cədvəli təqdim olunmuşdur). Akkreditasiya Komissiyasına təqdim olunan İş planın 5 il üçün (2018-2022-ci illər) tamamilə eyni olduğu müəyyənləşdirilmişdir.

### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

Akkreditasiya Komissiyasına Beynəlxalq əməkdaşlıq şöbəsinin 2022-2023-cü illər üçün ştat cədvəli təqdim olunmuşdur, lakin əməkdaşlar arasında vəzifə və səlahiyyət bölgüsünün necə həyata keçirildiyi barədə heç bir verifikasiya sənədi mövcud deyildir. Bu baxımdan şöbənin təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyətini qiymətləndirmək mümkün olmamışdır.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizmi tədris işləri üzrə prorektor-dekan-fakültə nümayəndələri vasitəsilə həyata keçirilir.

ATM-ə sahə səfəri zamanı Komissiyaya mexanizmin möcudluğu barədə sənədlər təqdim edilməmiş, şifahi olaraq məlumat verilmişdir.

### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

ATM-dən təqdim olunan məlumatlara əsasən son 7 ildə əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti aşağıdakı kimidir:




***Qrafik 6: Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi***

Qrafikdən də göründüyü ki, proses postpandemiya dövründə sürətlənməyə başlayıb və artan dinamika ilə davam edir. Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi barədə əmrlər Komissiyaya təqdim olunmuşdur.

**7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti**

Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinqi şöbənin illik hesabatları əsasında həyata keçirilir (2018-2022-ci ilin hesabatları Komissiyaya təqdim olunmuşdur). Lakin müsahibə zamanı məlum olmuşdur ki, Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinqi məqsədilə sorğular keçirilməmişdir.

**7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti**

Lənkəran Dövlət Universiteti yuxarıda qeyd olunan Universitetlərlə ikili diplom proqramları və proqramlar üçün əməkdaşlıq müqavilələri bağlamışdır. Hazırda Universitetin tələbə kontingentində ikili diplom proqramları çərçivəsində təhsilalan olmadığından, başqa sözlə, təhsilalanın tədris hərəkətliliyindən irəli gələn sənədlər formalaşmadığından hesabat dövrü ərzində bu istiqamətdə təlim və tədris prosesinin təşkili və tənzimlənməsinin AKTTS-in və yerli qanunvericiliyin-Azərbaycan Respublikası Nazirlər Kabinetinin uyğun olaraq 2010-cu il 24 iyun tarixli “Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında 117 nömrəli, 2013-cü il 24 dekabr tarixli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında 348 nömrəli qərarlarının və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli “Ali təhsil

müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar"ın təsdiq edilməsi barədə 5/2 nömrəli qərarının tələblərinə uyğun olaraq həyata keçirilməsi vəziyyəti sahə baxışı zamanı təyin edilməmişdir.

Hazırda Lənkəran Dövlət Universiteti ilə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ilə ikili diplomların təsis edilməsi üzrə danışıqlar aparılır.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

ATM-dən təqdim olunan məlumatlara əsasən son 7 ildə akademik heyətin mübadilə dinamikası vəziyyəti aşağıdakı kimidir.




***Qrafik 7: Akademik heyətin mübadilə dinamikası***

ATM dinamikada kəskin azalmanın baş vermə səbəbini pandemiya ilə əlaqələndirsə də, postpandemiya dövründə də geriləmənin olduğu müşahidə edilir. Akademik heyətin mübadiləsi barədə əmrlər Komissiyaya təqdim olunmuşdur.

### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

ATM-in bütün əməkdaşları akademik və inzibati heyətin mübadiləsi prosesi barədə elanlar lövhəsi, veb-sayt (https://lsu.edu.az/new/AddLister/index.php ), sosial şəbəkələrdə yerləşdirilərək və info-day təşkil olunaraq məlumatlandırılır.

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

LDU tərəfindən mübadilə proqramları üzrə professor müəllim və inzibati heyətin, təhsilalanların son 7 ildə iştirakı barədə arayışlar təqdim olunmuşdur və onların dinamikası qrafik 7-də öz əksini tapmışdır.




***Qrafik 8: Mübadilə proqramlarında iştirak edən təhsilalanların sayı***

Qrafikdən göründüyü kimi, təhsilalanların mübadilə proqramlarında aktiv iştirakı 2017-ci ildən sonra başlamış, pandemiya dövründə tamamilə dayandırılmış və 2021-2022-ci tədris ilindən sonra daha intensiv şəkildə davam etdirilmişdir.




***Qrafik 9: Mübadilə proqramlarında iştirak edən inzibati heyətin say dinamikası***

### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

Universitet QS World University Rankings və Webometrics sistemində təmsil olunmuşdur. Lakin reytinq nəticəsi barədə məlumat Akkreditasiya Komissiyasına təqdim olunmamışdır.

### *7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

ATM-dən təqdim olunan 01 iyun 2023-cü il tarixli 2/200 saylı arayışa əsasən Beynəlmiləlləşmə siyasətinin icrasına ayrılan və xərclənən maliyyə resurslarının vəziyyəti aşağıdakı kimidir:




***Qrafik 10: Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılma vəziyyəti***

Qrafikdən göründüyü kimi, 2017-2018-ci illər ərzində beynəlmiləlləşmə siyasətinin icrasına ayrılan və xərclənən maliyyə resursları artsa da, ondan sonrakı illərdə azalma müşahidə olunmuşdur. Pandemiya dövründə beynəlmiləlləşmə siyasətinin icrasına ümümuyyətlə maliyyə resursları ayrılmamışdır. Növbəti 2022-ci ildə isə 20000 manat ayrılmış və onun 50%-nə qədər məbləği aidiyyatı istiqamətlərə xərclənmişdir.

### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

Komissiyaya təqdim olunan Beynəlxalq əməkdaşlıq şöbəsinin 2022-2023-cü illər üçün ştat cədvəlinə əsasən şöbədə 6 ştat vahidi mövcuddur. Onlar 1 ştat vahidi müdir (vakant), 1 ştat vahidi müdir müavini, 2 ştat vahidi layihələr üzrə mütəxəssis, 1 ştat vahidi tələbə-müəllim mübadiləsi üzrə mütəxəssis və 1 ştat vahidi kargüzar vəzifələrindən ibarətdir.

### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Sahə baxışı zamanı məlum olmuşdur ki, Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun vəziyyəti və mövcudluğu qənaətbəxşdir.

Universitetin balansında olan təmirsiz bina bərpa edilərək (35 yerlik ümumi sahəsi 600 kv.m. olan iki mərtəbəli) SeaSide Otel-ə çevrilmişdir.

2019-cu ildə şəhərin mərkəzində yerləşən istifadəyə yararsız 5 mərtəbəli keçmiş yataqxana binası sökülmüş, yerində 3 saylı tədris korpusu və müasir tipli 160 nəfərlik yataqxana

binası istifadəyə verilmişdir (ümumi sahəsi 4350 kv.m. olan bir növbədə min tələbə qəbul edə bilən). Binanın həyətyanı sahəsində suni ot örtüklü idman meydançası yaradılmışdır.

Universitetin 2 saylı tədris korpusunun ərazisində 2018-ci ildə sahəsi 297 kv.m. olan 100 nəfərlik tələbə yeməkxanası tikilib istifadəyə verilmişdir.

2021-ci ildə Universitetin Elmi kitabxana kompleksi əsaslı təmir olunmuşdur. Burada müasir tələblərə cavab verən 100 nəfərlik oxu zalı, 300 nəfərlik konfrans zalı, Elektron kitabxanaya giriş üçün rahat şərait yaradılmışdır. Eyni zamanda kitabxana fondunun zənginləşdirilməsi istiqamətində işlər görülmüşdür.

Eyni zamanda sahəyə baxış zamanı müəyyənləşdirilmişdir ki, Beynəlxalq əməkdaşlıq şöbəsində 4 (1 nəfər analıq məzuniyyətindədir) əməkdaşın ixtiyarına 4 kompüter, 1 noutbuk, 4 printer verilmişdir. Şöbənin otaqları 33.5 kv.m. təşkil edir.

### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

Beynəlxalq əməkdaşlıq şöbəsindən bildirildi ki, mütəmadi olaraq beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi həyata keçirilir, lakin bunu sübüt e dən sənədlər Akkreditasiya Komissiyasına təqdim olunmadı.

## *7.4 Beynəlmiləlləşmə performansı*

### 7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

2018-2022-ci illərdə şöbənin illik hesabatları rəhbərliyə təqdim olunsa da, bu hesabatlarda beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikası təhlil olunmamış və onun nəzarət mexanizmi ümumiyyətlə mövcud deyildir.

### 7.4.2 Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyac əsaslı təkmilləşdirmə fəaliyyətləri əsasən professor-müəllim heyəti və tələbələrin xarici dil biliklərinin təkmilləşdirilməsindən ibarət olmuşdur. Bu məqsədlə 4 oktyabr 2021-ci ildə ATM və Amerika Birləşmiş Ştatlarının Səfirliyi arasında Amerika Güşəsinin təsis edilməsinə dair Anlaşma Memorandumu imzalanmışdır. Bu anlaşma çərçivəsində ATM-də natiq proqramları, ingilis dili təlimləri, qış və yay ingilis dili məktəbləri, ingilis dilində regional debat yarışmaları və s.bu kimi tədbirlər həyata keçirilir.

**Komissiyanın istiqamətlər üzrə təhlili**

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | 1. 2022-2030-cu illər üçün SİP-in mövcudluğu<br>2. SİP-in strateji məqsədlərin prioritet istiqamətlərinə uyğunluğu<br>3. SİP üzrə fəaliyyətin qiymətləndirməyə yönələn gözlənilən nəticələr kəmiyyət və keyfiyyət göstəricilərinin aydın və ölçüləbilən olması<br>4. Ətraflı GZİT təhlilinin aparılması |
| **Zəif tərəflər** | 1. SİP-in müvafiq icrası, izlənilməsi və hesabatlılığı təmin edəcək müvafiq büdcə, işçi qrupunun ayrılmasına dair hər hansı bir sənədin mövcud olmaması<br>2. SİP hazırlanan zaman əvvəlki illərin planlarının icra vəziyyətinin nəzərə alınmaması<br>3. SİP-də maraqlı tərəflərin kifayət qədər əhatə olunmaması<br>4. SIP-in icrasını təmin etmək məqsədilə illik tədbirlər planının olmaması |
| **İmkanlar** | 1. SİP-in fəaliyyət planın icrasına nəzarət |
| **Təhdidlər** | 1. Dəyişkən xarici mühit<br>2. SİP-in reallaşdırılmasına lazım olan kadr və maliyyə resurslarının çatışmazlığı |
| **Komissiyanın tövsiyəsi** | 1. SİP-in tərtib olunmasında maraqlı tərəflərin cəlb olunması<br>2. SİP-in struktur bölmələri üzrə paylanması və hər altı ay icra vəziyyətinin yoxlanması<br>3. SİP-in icrasını təmin etmək məqsədilə tədbirlər planının hazırlanması<br>4. SİP-in icrasının dövri monitorinqinin aparılması və nəticələrinin təhlil olunması |

| 2. Keyfiyyət təminatı | |
|---|---|
| **Güclü tərəflər** | 1. Rəhbərliyin keyfiyyət təminatı (KT) istiqamətində birmənalı dəstəyi<br>2. Keyfiyyət təminatı şöbəsinin ayrıca struktur bölməsi kimi mövcudluğu<br>3. Keyfiyyət Təminatı şöbəsinin əməkdaşların çalışma əzmi<br>4. Şöbədə sənədləşmə prosesinin yaxşı təşkil olunması<br>5. Məzunların işlə təmin olunmasında artım dinamikası<br>6. Rəhbər-tələbə ünsiyyətinin əlçatanlığı |
| **Zəif tərəflər** | 1. Region Unversiteti olması<br>2. Bəzi ixtisaslarda (aqrar, iqtisadiyyat və s.) elmi dərəcəli kadr çatışmazlığının keyfiyyətə təsiri<br>3. Maraqlı tərəflərin KT Komissiyasına cəlb olunmaması<br>4. Strukturlararası koordinasiyanın zəif olması<br>5. Tələbələr arasında təşkil olunan sorğuların təhlil olunmaması |
| **İmkanlar** | 1. Tələbə sayının artım dinamikası<br>2. Elmmetrik məqalələrin sayının artması<br>3. ATM nümayəndələrinin TKTA tərəfindən təşkil olunan təlimlərdə iştirak edərək Universitetdə yeniliklərin tətbiq olunması |
| **Təhdidlər** | 1. Professor-müəlim heyəti arasında kadr çatışmazlığı<br>2. Tələbələr arasında sorğuların təhlilinin aparılmamasının tələbəyönümlü tədrisin təşkilinə təsiri<br>3. Maraqlı tərəflərin təmsil olunmadığı KT Komissiyasının fəaliyyətinin obyektivlik dərəcəsi<br>4. Strukturlararası koordinasiyanın zəif təşkil edilməsindən irəli gələn operativlik problemləri |
| **Komissiyanın tövsiyəsi** | 1. Keyfiyyət Təminatı Şöbəsinin əməkdaşlarının daha çox beynəlxalq tədbirlərdə iştirakının təmin olunması<br>2. Strateji Plana əsasən tərtib olunan 2023-2030-cu illər üçün Fəaliyyət Planının hər il üçün hazırlanması |

| | |
|---|---|
| | 3. Universitetin veb-saytında KT şöbəsinin ayrıca bölməsinin yaradılması və bütün normativ sənədlərin əlçatanlığının təmin olunması<br>4. Bütün maraqlı tərəflərin tədris prosesinə cəlb olunması<br>5. Maraqlı tərəflərin mütəmadi olaraq məmnunluq sorğularının aparılaraq nəticələrinin təhlil olunması<br>6. Kompetensiya əsaslı tədris prosesinin təşkilinin monitorinqi |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Tədris sənədlərinin (tədris planları, müəllimin işçi planı, tələbələrin fərdi planları, sillabuslar və s) mövcudluğu<br>2. Təhsil proqramlarının AKTTS-in prinsiplərinə uyğunluğu<br>3. Təcrübələrin təşkili vəziyyəti<br>4. Tyutor xidmətinin təmin olunması üçün təlimlərin təşkili<br>5. Müəllim-tələbə münasibətlərinin demokratikliyi |
| **Zəif tərəflər** | 1. Əmək bazarının öyrənilməsi və işəgötürənlərlə əlaqələrin zəifliyi<br>2. Bəzi ixtisaslarda müəllim heyəti üzərində tədris yükünün artıqlığı<br>3. Kadr potensialının gücləndirilməsi istiqamətindəki fəaliyyət (Xaricdə təhsil üzrə Dövlət proqramı ilə əməkdaşlıq)<br>4. Sillabuslarda təlim nəticələrinin qeyri müəyyənliyi (texniki baxımdan)<br>5. Bəzi fənn proqramlarının köhnə olması<br>6. Sərbəst işlərin ləğv olunması<br>7. Fərdi planların işlənməsində tələbələrin iştirakının zəifliyi<br>8. Tədris metodlarının (innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə) bütün təhsil formaları üzrə tətbiqinin əsasən təmin edilməsi<br>9. Tələbələrin tyutorları seçim sərbəstliyinin olmaları barədə məlumatsızlığı |

| | |
|---|---|
| | 10. Müasir texnologiyalarla təchiz olunmuş auditoriyaların azlığı<br>11. Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcud olmaması<br>12. Differensiallaşdırılmış əməkhaqqı sisteminin mövcud olmaması<br>13. Stajkeçmənin vəziyyəti<br>14. Universitet üzrə ayrıca Karyera mərkəzinin mövcud olmaması<br>15. Məzunlarla keçirilən sorğuların dinamikasının izlənilməməsi |
| **İmkanlar** | 1. Tələbə və müəllim mobilliyi<br>2. Kitabxana fondunun imkanları |
| **Təhdidlər** | 1. Bəzi ixtisaslara tələbə qəbul faizinin aşağı olması<br>2. Tələbəyönümlü tədrisin zəifləməsi<br>3. Tələbələrin tədqiqat aparmaq bacarıqlarının formalaşmaması |
| **Komissiyanın tövsiyəsi** | 1. Tədris planlarının işlənməsində, tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında əmək bazarının tələblərinin və işəgötürənlərin iştirakının təmin olunması<br>2. Təhsil proqramlarının, tədris planlarının və onların icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığının təmin olunması<br>3. Fənn proqramlarının yenilənməsi<br>4. Təlim nəticələrinin müəyyən olunması, əlaqələndirilməsi, qiymətləndirilməsi istiqamətində Universitet əməkdaşlarına təlimlərin keçirilməsi<br>5. Dərs yükü bölgüsü zamanı bir müəllimə ayrılan fənlərin sayının azaldılması<br>6. Fərdi tədris planlarının hazırlanmasına tələbələrin daha yaxından cəlb olunması və bir nüsxəsinin tələbəyə verilməsi<br>7. Mütəmadi olaraq tələbə və məzun rəylərinin toplanmasını və bu istiqamətdə müxtəlif sorğuların keçirilməsinin təmin olunması<br>8. Məzunlarla əlaqələrin daha səmərəli təşkil olunması<br>9. Təhsil proqramlarının monitorinqi strategiyasının, fəaliyyət planının hazırlanması və nəzarət mexanizminin işlənməsi<br>10. Kadr potensialının gücləndirilməsi istiqamətində Dövlət proqramları ilə əməkdaşlıq<br>11. Psixoloji xidmətin qurulması |

| 4. **Elmi tədqiqat** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Lənkəran Dövlət Universitetinin 2021-2030-cu illər üzrə SİP sənədinin bir bölməsinin elmi tədqiqat məsələsinə həsr olunması (SİP-də elmi tədqiqat öz əksini tapması)<br>2. LDU-da elmi tədqiqatlar üçün maddi-texniki baza mövcudluğu vəziyyəti ( son illərdə yeni 4 ədəd müasir avadanlıqlarla təchiz olunmuş labaratoriyanın yaradılması)<br>3. Elm və tədqiqat şöbəsinin ayrıca struktur bölməsi kimi mövcudluğu (Elmi tədqiqatların fəaliyyətlərin tənzimlənməsi üçün ayrıca struktur bölmənin-Elm və tədqiqat şöbəsinin yaradılması)<br>4. Yerli və xarici tərəfdaşlarla ( ATM və tədqiqat qurumları ilə) elmi əlaqələrin mövcudluğu<br>5. Elmi tədqiqatların nəticələrinin çapı üçün universitet jurnallarının mövcudluğu |
| **Zəif tərəflər** | 1. Elm və tədqiqat şöbəsi yaradılsa da əsasnaməsinin mövcud olmaması<br>2. Elmi-tədqiqat strategiyasının (SİP-in elmi tədqiqat bölməsinin) maraqlı tərəflər üçün əlçatanlığının təmin edilməməsi<br>3. İxtisaslar üzrə tədqiqatyönümlü elmi-pedaqoji kadr potensialının kifayət qədər olmaması<br>4. Magistratura səviyyəsində bəzi ixtisaslar üzrə tədqiqatla bağlı fənnin seçməyə qoyulması (məs. Turizm və sosial mədəni servis)<br>5. Doktorantura səviyyəsində təhsilalanlar üçün fənlərin tədris edilməməsi<br>6. Antiplagiat sisteminin mövcud olmaması |
| **İmkanlar** | 1. LDU-nun 5 fakültə, 13 kafedra, 4 elmi-tədqiqat laboratoriyası (ETL) mövcudluğu<br>2. Tədqiqatçılar üçün zəngin fonda malik kitabxana<br>3. Tədris-təcrübə bazası, ixtisaslara uyğun elmi-tədqiqat laboratoriyaların mövcudluğu<br>4. Tədqiqat nəticələrinin nəşri üçün, müxtəlif seriyalı, AAK-ın tövsiyə etdiyi və beynəlxalq indeksli elmi jurnalların mövcudluğu |

| | |
|---|---|
| **Təhdidlər** | 1. Magistratura səviyyəsində tədris planına elmi tədqiqatla əlaqədar fənnin daxil edilməməsi nəticəsində tədqiqat səriştəsinin formalaşmaması<br>2. Doktorantura qəbul planının dolmaması (Doktorantura təhsil səviyyəsinə qəbul faizinin aşağı olması)<br>3. Doktorantura proqramları üzrə fənlərin tədris edilməməsinin aparılan tədqiqatların keyfiyyətinə təsiri |
| **Komissiyanın tövsiyəsi** | 1. Doktorantura təhsil səviyyəsi üçün tədris planı hazırlanmalı və uyğun fənlər tədris olunmalı<br>2. Magistratura tədris  planlarının hamısına elmi-tədqiqata ehtiva edən fənlər daxil edilməli<br>3. Universitetin elmi-pedaqoji kadr ehtiyaclarını nəzərə alaraq,  magistratura səviyyəsində gənclərin təhsilini doktorantura piləsində davam etdirilməsinin stimullaşdırılması mexanizmi yaradılmalı<br>4. Universitetin antiplagiat şirkəti ilə müqavilə imzalamalı, bütün elmi nəşrlərin və tədqiqatların bu proqramdan keçilməsini nəzərdə tutan qaydalar qəbul olunmalı |

| **5. İdarəetmə sistemi** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Kənardan cəlb edilən professor-müəllim heyətinin istirahətinin təşkili üçün imkanların olması<br>2. Tələbələrin informasiya idarəetmə sistemində şəxsi kabinetlərində tədris hərəkətliliyi ilə bağlı bir sıra məlumatlara (fənlər haqqında məlumat (saat, kredit), dərs cədvəli, davamiyyət, təlim nəticələri, kollokvium və imtahanların tarixi ilə bağlı elanlar və s.) əlçatanlığının mövcud olması<br>3. İnformasiya idarəetmə sistemində sistem adminləri tərəfindən daxil edilmiş müxtəlif sorğular vasitəsilə dövrlər üzrə tələbələrin sistemdən istifadə səviyyəsinin statistikasının əldə edilməsinin mümkünlüyü<br>4. Lənkəran Dövlət Universitetinin rəsmi saytının multilinqival olması<br>5. Universitetin rəsmi sosial media hesablarının olması və bu hesabların aktiv istifadəsi<br>6. Saytda e-universitet modulunun mövcudluğu |

| | |
|---|---|
| | 7. Saytda məlumatların tez-tez yenilənməsi |
| **Zəif tərəflər** | 1. “Elektron Universitet”-də idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün tam təkmil şəkildə aparılmaması<br>2. İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin olmaması<br>3. 2007-ci ildə təsdiq edilmiş nizamnamə ilə fəaliyyət göstərməsi<br>4. Universitetdə struktur bölmələr (Təhsil sənədləri ilə iş şöbəsi, Keyfiyyət təminatı şöbəsi, Tədrisin təşkili və təlim texnologiyalarının tətbiqi şöbəsi) üçün müvafiq idarəetmə səlahiyyətlərinin İİS-də təyin edilməməsi<br>5. İdarəetmədə inzibati sənədlərin və kargüzarlıq işinin zəif olması<br>6. Universitetin saytında hər hansı SEO fəaliyyətinin mövcud olmaması və google ads alətlərindən istifadə edilməməsi<br>7. Universitetin “Facebook” rəsmi sosyal media hesabında facebook ads alətlərindən, ödənişli offensiv marketinq strategiyasından istifadə olunmaması |
| **İmkanlar** | 1. Tələbələr üçün texniki dəstək xidmətinin nəzərdə tutulması<br>2. Maliyyə dayanıqlığı<br>3. Sayta “Məzun” modulunun əlavə olunması |
| **Təhdidlər** | 1. Tədris prosesində tələbələrin əldə etdiyi təlim nəticələrinin müəllimlər tərəfindən deyil, tyutorlar tərəfindən sistemə əlavə edilməsi<br>2. Strukturlararası sənədləşdirilmiş kommunikasiyanın zəifliyi<br>3. Universitetin sosial media hesablarından istifadəçi sayının az olması<br>4. Universitetin ictimaiyyəti məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması ilə bağlı hər hansı təsdiqedici sənədlərin olmaması |
| **Komissiyanın tövsiyəsi** | 1. İdarəetmədə kollegiallığın artırılması<br>2. Universitetin nizamnaməsinin yenilənməsi, idarəetmə orqanlarının əsasnamələrinin yenilənməsi<br>3. Təşkilatı mədəniyyətin və davranışın təkmilləşdirilməsi |

| | |
|---|---|
| | 4. Universitetinin İctimaiyyətlə əlaqələr üzrə (xüsusilə tələbə qəbulu ilə bağlı) strategiyanın yaradılması<br>5. Məzunlarla işin qurulması və buna məsul olan struktur bölməsinin gücləndirilməsi<br>6. Maliyyə menecmenti və İnsan resursları işinin müasir tələbələrə uyğun gücləndirilməsi<br>7. Universitetdə təhsilalanların tədris hərəkətliliyinin və tədris prosesinin səmərəli təşkilinə dair ehtiyac yaranmış modulların hazırlanıb istifadəyə təqdim edilməsi<br>8. İdarəedici orqanların fəaliyyət istiqamətlərinə dair modulların işlənib istifadəyə təqdim edilməsi<br>9. Vebsayt LDU üçün önəmli PR aləti olduğundan, saytla bağlı SEO fəaliyyətlərinin həyata keçirilməsi, google ads tətbiqi saytın daha böyük və məqsədli auditoriyaya çıxışının təmin edilməsi<br>10. Universitetin sosial media hesablarının inkişaf etdirilməsi və daha aktiv istifadəsinin təşkili<br>11. “Məzun” modulunun sayta tam inteqrasiyasının tamamlanması. |

| **6. İnfrastruktur** | |
|---|---|
| **Güclü tərəflər** | 1. LDU-da tədris binalarının və tədris otaqlarının vəziyyətinin dövlət standartlarının tələblərinə əsasən cavab verməsi<br>2. Universitetin elmi kitabxanasının infrastruktur imkanlarının qənaətbəxş olması<br>3. LDU-da tədris laboratoriyalarının şəraiti və zəruri avadanlıqlarla təchiz olunması<br>4. Kadr hazırlığı aparılan ixtisaslar üzrə təyin edilmiş tədris laboratoriyalarının dərs cədvəli üzrə istifadəsində optimallığın təmin olunması<br>5. Universitetin tədris binalarının yerləşdiyi ərazilərdə ictimai nəqliyyatın fəaliyyət göstərməsi<br>6. LDU-nun tələbələrinin tədris binalarında oxu zalları, laboratoriyalar və kompüter otaqlarının infrastrukturundan istifadə etmələri üçün əlçatanlığı<br>7. Sağlamlıq imkanları məhdud şəxslər üçün lazımi avadanlıqlarla təchiz olunmuş auditoriyanın mövcudluğu<br>8. İstifadədə olan yataqxanaların lazımi şəraitlə təmin olunması<br>9. LDU-da tədris-təcrübə və turizm-təcrübə bazalarının imkanlarının qənaətbəxş olması |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1. LDU-da istehsalat-təcrübə bazasının mövcud olmaması<br>2. Yeməkxanaların zəruri avadanlıqlarla təchiz olunsa da, fəaliyyət göstərməməsi<br>3. Universitetdə psixoloji və tibbi xidmətin qurulmaması<br>4. Tədris infrastrukturunun istifadəsinin dövri monitorinqlərinin aparılmaması<br>5. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcud olmaması |
| **İmkanlar** | 1. Elmi kitabxananın kompüterlərlə tam təchiz olunmuş elektron oxu zalının tələbələr üçün əlçatanlığı<br>2. Kitabxana fonduna daxil olan kadr hazırlığı istiqamətli kitabların və digər vəsaitlərin illik artım dinamikasının izlənilməsi və müvafiq qaydada zəruri hesabatlılığın təmin edilməsi<br>3. Zəruri avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyalarının tədris prosesindən kənar vaxtlarda əlçatanlığı |
| **Təhdidlər** | 1. İstehsalat-təcrübə bazasının qurulması istiqamətində işlərin aparılmaması<br>2. Tələbələrin və əməkdaşların yeməkxanalardan istifadə edə bilməməsi<br>3. Universitetdə tibb xidməti təmin olunmadığından əməkdaşların və təhsilalanların xidmətə əlçatanlığının mümkünsüzlüyü |
| **Komissiyanın tövsiyəsi** | 1. Tədrisində virtual laboratoriyalardan istifadə zərurəti olan fənlər üçün ayrılmış laboratoriya otaqlarının tələbə sayına münasibətdə kompüter təchizatının təmin edilməsi<br>2. Tibb xidmətinin təmin edilməsi<br>3. Yeməkxanaların tələbələrin istifadəsinə təqdim edilməsi<br>4. Oğlanlar üçün hazırlanan yataqxananın növbəti tədris ilinədək istifadəyə tədim edilməsini nəzərə alaraq təmir işlərinin sürətləndirilməsi<br>5. LDU-nun tədris binalarında ayrılmış oxu zallarının sahəsinin və yer sayının artırılması<br>6. Tədris infrastrukturundan istifadənin optimallığını və tam əlçatanlığının təmin edilməsi məqsədi ilə hesabatlılığa söykənən dövri monitorinqlərin aparılması<br>7. III tədris binasında sağlamlıq imkanları məhdud təhsilalanlar üçün infrastruktur şəraitin təmin edilməsi<br>8. Elmi-tədqiqat və innovasiya mərkəzinin yaradılması |

| | |
|---|---|
| | 9. Fəaliyyətləri aparan zaman icranı tənzimləyən sənədli rəsmiləşdirmələrin və aidiyyəti üzrə sənəd dövriyyələrinin təmin edilməsinə diqqət yetirilməsi |

| **7. Beynəlmiləlləşmə** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Universitetin beynəlmiləlləşmə siyasətinin aparılması və işlərin koordinasiyası üçün ayrıca struktur bölməsi olan Beynəlxalq əməkdaşlıq şöbəsinin fəaliyyət göstərməsi<br>2. Beynəlmiləlləşmə siyasəti  çərçivəsində maliyyə dəstəyinin mövcud olması<br>3. Universitet əməkdaşlarının müxtəlif layihələrə rəhbərlik etməsi<br>4. Beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsi üçün lazımı infrastrukturun mövcudluğu (3 yataqxana və 1 hotel) |
| **Zəif tərəflər** | 1. Beynəlmiləlləşmə siyasəti sənədinin olmaması (ayrıca sənəd olaraq)<br>2. Beynəlmiləlləşmə fəaliyyətlərinin sənədli rəsmləşdirilməsi prosesinin təşkil edilməməsi<br>3. Beynəlmiləlləşmə fəaliyyətinə aid göstəricilərinin dövri monitorinqlərinin aparılmaması<br>4. Əcnəbi tələbələrin sayının azalan dinamikası<br>5. Əcnəbi tələbələr üçün hazırlıq kurslarının və ingilis dilli tədrisin olmaması |
| **İmkanlar** | 1. ATM-də ölkə və beynəlxalq səviyyədə əhəmiyyətli sahələr üzrə kadr hazırlığının aparılması<br>2. Səmərəli struktur dəyişikliyi olaraq Beynəlmiləlləşmə üzrə  prorektor vəzifəsinin ştat cədvəlinə əlavə olunması<br>3. Beynəlxalq layihələrə qoşulma imkanları<br>4. Əcnəbi tələbələr üçün hazırlıq kurslarının açılması<br>5. Region universiteti olduğu üçün tələbələrin yaşayış  xərclərinin aşağı olması<br>6. Baytarlıq ixtisası üzrə mübadilə proqramının mövcudluğu (Türkiyənin Qars Dövlət Universiteti ilə) |
| **Təhdidlər** | 1. Əcnəbi tələbələrin sayının azalan dinamikasının beynəlmilləşməyə mənfi təsirləri<br>2. Xarici dil bilgili professor-müəllim heyətinin  çatışmazlığı |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. Beynəlmiləlləşmə siyasətinin hazırlanması<br>2. Şöbənin sənədləşdirmə işlərinin təkmilləşdirilməsi<br>3. Beynəlmiləlləşmə istiqamətində vakant vəzifələrə ixtisaslı kadrların təyin olunması |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 4; Keyfiyyət təminatı istiqaməti üzrə 6; Təlim və tədris istiqaməti üzrə 11; Elmi tədqiqat istiqaməti üzrə 4; İdarəetmə istiqaməti üzrə 11; İnfrastruktur istiqaməti üzrə 9; Beynəlmiləlləşmə istiqaməti üzrə 3 tövsiyə olmaqla, ümumilikdə 48 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin LDU tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);

- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, LDU-nun müvafiq istiqamətlər üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə “əsasən uyğundur” hesab edilməsi;

- Akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi olaraq LDU-nun 2023/2024-cü tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir.